

# Prezident İlham Əliyevdən Ermənistana xəbərdarlıq

*Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. "Unikal" xəbər verir ki, Dövlət başçısı müşavirəni giriş nitqi ilə açaraq 44 günlük Vətən Müharibəsi və onun nəticələri ilə bağlı mühüm məqamlara toxunub:*
*-Bu gün biz keçən ilin yekunlarını müzakirə edəcəyik, 2021-ci ildə görüləcək işlər haqqında danışacağıq. Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu...*

Səh.3


# Unikal

№01 (2039) 8 yanvar 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Hacıbala Abutalıbovun "boz mirası"...



Səh.2

## Azərbaycan XİN-dən Ermənistana cavab

## Bakı sabiq merin yaşıllıqlara qarşı olan dırnaqarası münasibətinin əziyyətini çəkir

*Dünyada fabrik və zavodların, o cümlədən şəxsi avtomobildən istifadə edənlərin sayının artması ilə əlaqədar olaraq havanın çirklənməsinin qarşısını almaq məqsədi ilə müxtəlif addımlar atılır, layihələr cızılır və reallaşır. Bu gün Avropanın bir çox ölkələrində artıq hündürmərtəbəli binaların eyvanlarında da yaşıllıqların salınması vacib şərtlərdəndir. Lakin Azərbaycanda biz vəziyyətin tam əksini görürük. Yaşayış binalarının ətrafında kifayət qədər yaşıllıqların olmaması günümüzün aktual problemi olaraq qalır. Xüsusilə Bakıda yaşıllıqların yetərincə olmaması uzun illərdir mətbuatın, ictimaiyyətin əsas müzakirə mövzularından biridir.*

Səh.12

## "Müqavimətlər olacaq, təxribatlar qaçılmazdır"



*44 günlük Vətən Müharibəsi ilə bağlı müzakirələr davam etməkdədir. Kimlərsə Rusiya sülhməramlılarının Qarabağa gəlməsindən, Dağlıq Qarabağ ərazisində ermənilərin hələ də yaşamasından narahat olsa da, ortada böyük bir qələbə var. "Borçalı Cəmiyyəti"nin sədri, politoloq Zəlimxan Məmmədli ilə söhbətimiz...*

Səh.4

## "Azərbaycanla Ermənistan arasında böyük fərqi bir daha görəcəklər" - Hikmət Hacıyev



*Bu gün Azərbaycan Ağsaqqallar Şurasının yeni inzibati binasının açılış mərasimi keçirilib. Unikal.org xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu münasibətlə Ağsaqqallar Şurasının üzvlərini təbrik edib.*

Səh.2

## Elman Rüstəmovun sığorta şirkətləri ilə bağlı naməlum konsepsiyası



*Yola saldığımız həftə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarı ilə "Amrah Sığorta" və "AXA MBask" Sığorta Şirkəti ASC-lərin lisenziyaları ləğv olundu. AMB-dən verilən məlumatda qeyd olunurdu ki, bununla da Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin sayı 22-dən 20-ə düşüb.*

Səh.7

# "Röya özünə qəsd etsə ..." - Nadir Röyadan yazdı

***Müğənni Nadir Qafarzadə sosial media hesabında xalq artisti Röya haqqında status paylaşıb.***

"Unikal" big.az-a istinadla xəbər verir ki, Nadir, Yeni il günü oynayaraq videosunu sosial media hesabında paylaşan və bu paylaşımından sonra çoxsaylı tənqidlərə məruz qalan xalq artisti haqqında bunları yazıb:

"Mənə elə gəlir ki, bir insanın üstünə bu qədər getmək olmaz. Heç kim süddən çıxmış ağ qaşıq deyil.Allahdan başqa , bütün bəndələrin səhvi də var, günahı da.O, insan danışsın ki, heç bir səhvi və günahı yoxdur.Röyanın o qədər gözəl işləri var ki...

Hər zaman ehtiyaclı insanların yanında olub.Belə baxanda mən Röya ilə heç yaxın münasibətdə deyiləm. Amma haqqında danışmaq lazımdır.Bu tənqidlərən və başlıqlardan dözə bilməyib, özünə qəsd etsə nə qazanacaqsız?




Bir övladı anasız qoyacaqsız.Əl çəkin insanlardan, rahat buraxın insanları.Başqasını qınamamaışdan öncə , düşünək görək biz kimik, bu xalqa bu dövlətə nə xeyrimiz dəyib?

Röya rahat ol, hər bir etdiyimiz əmələ görə Allaha cavab verəcəyik. Heç kimi alqışı ilə yaranmamaısan ki, kiminsə qarqışı ilə də məh olasan.Allah hər bir bəndəsinin mükafatını özü verir.Kim nəyə layiqdir onu verir!

Bunu heç yaltaqlıq kimi qəbul etməyin dostlar! Röyadan nə suyum, nə də çörəyim gəlmir.Sadəvə bir Azərbaycan qadınına və anasına rəhmim gəlir. Röya olmasa, başqası olsa belə , etməyək bunu dostlar! Röya bilər, Allahı bilər!".

# "Dizimi yerə qoyub torpağı öpdüm" - Şuşadan danışıb ağladı



***Xalq artisti Nəzakət Teymurova "Bizimləsən" proqramının virtual qonağı olub.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, xanəndə bir müddət əvvəl getdiyi Şuşa ilə bağlı təəssüratlarını bölüşüb. Göz yaşlarını saxlaya bilməyən müğənni ilk ora ayaq basanda torpağı öpdüyünü deyib:

"O qədər həyəcanlı idim. Kamança ifaçısı Elşənlə məscidin yanına çəkilib ağladıq. Gedib məscidin kənarında dizimi yerə qoyub torpağı öpdüm. Sonra girib namaz qıldım, Allaha şükür etdim. Yol boyu dəhşətə gəlirdim, əsgərlərimiz necə qalxıb o dağlara. Onlar hansı yerlərdən keçib o dağlara qalxmışdı. Məscidin yanında gizlənib ağladım ki, heç kim görməsin. Paltarlarım da qara batmışdı".

Proqramda N.Teymurovanın atası Xosrov Teymurovun Ağdamda olan məzarının fotosu göstərilib. O, atasının 1986-cı ildə dəfn edildiyini söyləyib: "Cavan bacım rəhmətə getmişdi, atamın yanında dəfn olunub. Onun məzarını dağıdıblar. Bu yaxınlarda Ağdamda tədbir olmalıdır. Demişdim, birinci gedim atamın, bacımın qəbrini ziyarət edim, sonra tədbirə qatılım".



# "30 yaşım var, bundan sonra məni kim alacaq?" - Pərvin

***"İnsan şou-biznesə girməzdən əvvəl saf olur. Bura insanı tədricən sırtıldır. Bunu bilmirəm insanlar necə anlayacaq. Məni istəmədən bu aləmə saldılar. Çünki aktrisayam, mənim yerim deyil. Şou-biznes müğənnilərdən ibarətdir. Qəribə, standart olmayan şeylər görürsən. Şok olursan və getdikcə alışırsan".***

Bu sözləri aktrisa Pərvin Abıyeva "MTV Azərbaycan"a açıqlamasında deyib. Sənətçi şəxsi həyatı ilə bağlı sualları cavablandırıb: "Şəxsi həyatım yoxdur, amma olsa, artıq gizlədəcəm. Özüm üçün yaşayıram. Çox güclü və ağıllı insanam. Həyat insanı öyrədir. Elə bir insan olmalıdır ki, o danışanda ağzımı açım qulaq asım ki, nələr bilir. Qadağalar qoysa qəbul edərəm: İnstaqramı bağlayaram, istəmədiyi filmə çəkilmərəm. 30 yaşım var, bundan sonra məni kim alacaq?".

# "Belə davam etsə, acından öləcəyik" - Günay

***Müğənni Günay İbrahimli də işsizlikdən və maddi sıxıntıdan şikayətlənib.***

Sənətçi "Xəbər-ətər" verilişində karantindən danışıb. O bildirib ki, heç bir gəliri yoxdur: "Ölkədə karantin rejimi tədbiq edildən uzun müddət küçəyə çıxmadım. Belə davam etsə, acından öləcəyik. Heç bir gəlirim yoxdur, ailəmin əlinə baxıram. Evdəkilər çalışır, onlar da mənə maddi kömək edirlər".



## Neapol şəhəri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi

***Neapol Şəhər Şurası "Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmətin ifadə edilməsi və Azərbaycan ilə İtaliya arasında çoxşaxəli əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilmiş addımların atılması üçün İtaliya hökumətinə müraciət" adlı sənəd qəbul edib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, Vinçentso Solombrinonun müəllifi olduğu sənəddə beynəlxalq səviyyədə Dağlıq Qarabağın Azərbaycan ərazisi kimi tanındığı, bu bölgənin və ona bitişik 7 rayonun 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən işğal olunduğu, azərbaycanlıların doğma torpaqlarından qovulduğu, BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının qətnamələri, Ermənistanın 27 sentyabr təcavüzü nəticəsində 44 günlük müharibəsinin başladığı barədə ətraflı məlumat verilib.

İtaliya hökumətindən tərəfləri Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan 10 noyabr 2020-ci il tarixli bəyanatdakı öhdəlikləri yerinə yetirməyə çağırmaq tələb olunub. Şəhər Şurası hesab edir ki, münaqişənin başa çatması və vəziyyəti normallaşdırma prosesinin başlanması Azərbaycana öz ərazilərini bərpa etməyə imkan yaradacaq. Ərazilərin bərpasına dair strateji planın işə salınması isə yüksəliş və inkişaf mərhələsinin davam etməsinə, eləcə də italyan şirkətləri üçün yeni vacib iqtisadi və kommersiya imkanlarının yaranmasına yol açacaq.

Sənəddə Azərbaycan və İtaliya arasında gözəl münasibətlərin mövcud olduğu, 2020-ci ilin fevralında hökumət başçıları arasında siyasi, iqtisadi, səhiyyə, enerji, texnoloji, elm və mədəniyyət sahələrində geniş əməkdaşlığa dair çoxşaxəli strateji əməldaşlığın möhkəmləndirilməsi barədə birgə bəyannamənin olduğu vurğulanıb.

Neapol-Bakı Assosiasiyasının da Azərbaycanla Neapol arasında sıx əlaqələri dəstəklədiyinə diqqət cəlb edilib. Qeyd olunub ki, Neapolla Azərbaycanın paytaxtı Bakı qardaşlaşmış şəhərlərdir və bu qardaşlaşma iki xalq arasında dostluq, mədəni, kommersiya və institusional mübadilə baxımından konkret nəticələrin əldə olunmasına gətirib çıxarıb.

## Kirill Qarabağ məsələsində dini liderlərin rolundan danışdı

***Moskva və Bütün Rusiyanın Patriarxı Kirill Qarabağ məsələsinə dair danışıqlarda dini liderlərin rolunu nəzərə almağa çağırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Kirill "Rossiya-1" kanalına müsahibəsində deyib.

Kirill xatırladıb ki, onun təşəbbüsü ilə ermənilərin katolikosu II Qaregin və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Qarabağ probleminə dair bir neçə mərhələdə müzakirələr keçirib, tərəflər təmasların davam etməsi üçün razılığa gəliblər.

"Düşünürəm ki, danışıqların əsas nəticəsi arxasında xalqın əksəriyyətinin dayandığı iki dini liderin bir-biri ilə danışmasıdır. Bu söhbət heç bir ittiham, gərginlik olmadan çox sakit keçib".

Patriarx hər iki tərəfin səmimi şəkildə dilə gətirdikləri öz arqumentləri olduğunu söyləyib.

# Hacıbala Abutalıbovun "boz mirası"...

## Bakı sabiq merin yaşıllıqlara qarşı olan dırnaqarası münasibətinin əziyyətini çəkir

***Dünyada fabrik və zavodların, o cümlədən şəxsi avtomobildən istifadə edənlərin sayının artması ilə əlaqədar olaraq havanın çirklənməsinin qarşısını almaq məqsədi ilə müxtəlif addımlar atılır, layihələr cızılır və reallaşır. Bu gün Avropanın bir çox ölkələrində artıq hündürmərtəbəli binaların eyvanlarında da yaşıllıqların salınması vacib şərtlərdəndir.***

Lakin Azərbaycanda biz vəziyyətin tam əksini görürük. Yaşayış binalarının ətrafında kifayət qədər yaşıllıqların olmaması günümüzün aktual problemi olaraq qalır.

Xüsusilə Bakıda yaşıllıqların yetərincə olmaması uzun illərdir mətbuatın, ictimaiyyətin əsas müzakirə mövzularından biridir.



Elə yola salmaq üzrə olduğumuz həftə mövzu ilə bağlı "Sputnik Azərbaycan"a danışan biologiya elmləri doktoru, Nəbatat bağının laboratoriya müdiri Yusif Zeynalov da son vaxtlar paytaxtda yaşıllıq çoxalsa da, bəzi yerlərdə onların qırıldığına, məhv edildiyinə diqqət çəkib. "Bəzən obyektlər tikəndə onun ətrafındakı yaşıllıqları da qırır, yaxud ağacları kəsib qurutmağa çalışırlar. Bununla da Bakının yaşıllaşmasına çox böyük ziyan vururlar" - o deyib.

Yusif müəllimin sözlərinə görə, son zamanlar az da olsa, Bakının yaşıllaşması davam etdirilir: "Lakin idarələr, təşkilatlar bu işdə çox zəif mövqe sergiləyir. Bu günün ən aktual problemi yaşıllaşmadır. Yaşıllaşma olmasa, Abşeronun vəziyyəti getdikcə pisləşər. Çünki bu gün Bakıda avtomobillərin sayı artıb və havaya külli miqdarda zəhərli qazlar buraxılır. Havadakı çirkliliyin qarşısını alan isə məhz yaşıllıqlardır. Bundan başqa, fabriklərin də sayı artıb. Bir vaxtlar zavod və fabriklərin ətrafında yaşıllıq zolaqları salınırdı. O zamanlar bu işlər məcburi xarakter almışdı".

Əmlak üzrə ekspert Elnur Fərzəliyev isə daha öncəki illərlə müasir Bakını müqayisə edərkən maraqlı fikirlər səsləndirib: "Təxminən 20-25 il bundan əvvəlki Bakıya nəzər salsaq, deyə bilərik ki, o zamanlar bütün yaşayış binalarının öz həyətləri və həyətlərində yaşıllıq əraziləri var idi. O vaxtkı Bakının yüksəkdən çəkilmiş şəkillərinə baxanda şəhər sanki yaşıllıqlar içərisində salınmış kimi görünürdü. Lakin 2000-ci ildən sürətlə inkişaf edən tikinti sektorunun iqtisadiyyatın inkişafına təsiri müsbət olsa da, ekoloji baxımdan yaşıllıq ərazilərin qismən məhv olmasına səbəb oldu. Köhnə binalar arasında sovetlər dövründən qalmış ağaclar belə artıq öz yaşlarını ötüb. Hətta güclü külək olduğu zaman həmin ağacların qırılaraq avtomobillərə zərər vurduğunun daima şahidi oluruq".

Qeyd edək ki, ictimai rəydə uzun illər Bakıya rəhbərlik edən sabiq mer Hacıbala Abutalıbovun yaşıllıq məsələsinə kifayət qədər önəm verməndiyinə dair fikir hakim olub. Bu fikirlə razılaşmamaq mümkün deyil. Düzdür, onun Bakıya rəhbərlik etdiyi dövrdə paytaxtın siması xeyli dəyişib və müasirləşib, lakin təəssüf ki, şəhərdə yaşıllıqlar çox azalıb. Hətta bir çoxları Bakının "boz şəhərə" çevrilməsindən gileylənirlər. Belələrini qınamaq olmur. Son illər şəhər ətraflarında mütəmadi olaraq ağacəkmə kampaniyaları keçirilsə də, mərkəz və mərkəzə yaxın ərazilərdə torpaq sahələrinin məhdud olması səbəbindən yaşıllıq ərazilərinin salınmasında problemlər yaranır. Hacıbala müəllim mer olarkən həmin ərazilər ucdantutma satılıb və bu zaman heç vaxt fikirləşilməyib ki, yaşıllıqlar üçün yer saxlamaq lazımdır.

Üstəlik, Hacıbala Abutalıbovun dövründə salınmış parklara nəzər salsaq görərik ki, onlar yaşıllıqlar əvəzinə mərmər və daş örtüklərlə bəzədilib. Bu isə həm ekoloji cəhətdən, həm də insanların isti havalarda sərinləyə bilmələri üçün heç də səmərəli deyil. Eyni zamanda paytaxtın görkəmi baxımından da həmin parkların zövqlə salındığını deyə bilmərik.

Yeri gəlmişkən, sabiq merin dekorativ ağaclara marağı da uzun zamanlar müzakirə mövzusu olub. Təbii yaşıllıqlara dırnaqarası yanaşan Abutalıbov dekorativ ağaclara iri məbləğdə pullar xərclənməsində problem görmürdü. Bir çoxlarının fikrincə, bunun kökündə korrupsiya amili dayanırdı.

Hacıabala müəllim tikinti zamanı normativlərin pozulmasına da biganə münasibət sərgiləyirdi. Şübhəsiz, bu da korporativ maraqlardan irəli gəlirdi. Ekspertlərin də vurğuladığı kimi, Bakıda çox zaman yaşayış binalarının tikintisi zamanı yaşıllıq faktoru nəzərtə alınmayıb. Düzdür, son illərdə Memarlıq və Arxitektura Komitəsi tərəfindən qaydalar hazırlanıb və ümumi tikintinin 25 faizindən az olmayaraq yaşıllıqların olması tələbi var. Lakin bu tələbə hər zaman riayət edildiyini söyləmək çətindir. Bu isə həmin tələbin yerinə yetirilməsinə nəzarətin hansısa səbəbdən zəif olduğunu göstərir. İnsafən, vətəndaşlarımızın da sözügedən məsələdə aktiv olduğunu demək mümkün deyil. Memar, professor Cahid Həsənovun da vurğuladığı kimi: "Camaat ev alanda əsas verdiyi sual bu olur ki, üzü dənizə baxır, ya yox. Sanki bununla hər şey həll olunur. Lakin soruşulmur ki, həyətyanı ərazidə yaşıllıq zolağı neçə kvadratmetrdir?"

Bəli, hazırda Bakının yaşıllaşdırılması istiqamətində son zamanlar səylərin artdığı göz önündədir. Lakin H.Abutalıbovun paytaxta rəhbərlik etdiyi uzun müddər ərzində bununla bağlı ciddi addımlar atılmaması arzuedilməz mənzərə yaradıb. Həmin mənzərəni dəyişmək üçün xeyli vaxt lazım gələcək. Təəssüf ki, o vaxtadək Bakının təbii görkəmi və gözəlliyi də, havası da ürəyimizi sıxmağa davam edəcək...

***Orxan Həsənli***

# Azərbaycan-Ermənistan sərhəddi tam nəzarətə götürülməlidir

## Politoloq: "Paşinyanın Azərbaycan torpaqlarına qanunsuz səfərinə mane olacaq real addımlar atılmalıdır"

***Xəbər verildiyi kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın rəhbərliyi ilə İrəvanda Təhlükəsizlik Şurasının iclası keçirilib. Görüşdə Dağlıq Qarabağdakı separatçıların ideri Arayik Arutunyan da iştirak edib. İclas iştirakçıları Ermənistan və Qarabağdakı vəziyyəti, humanitar problemləri, habelə təhlükəsizliklə bağlı məsələləri müzakirə ediblər.***

Əslində, bu, birinci və sonuncu hadisə deyildi. Ermənistan tərəfi 10 noyabr bəyanatının şərtlərini pozaraq təxribat xarakterli fəaliyyətini davam etdirməkdədir. Belə ki, bir müddət əvvəl Dağlıq Qarabağa Ermənistanın yeni müdafiə naziri gəldi, dünən isə qonşu ölkənin xarici işlər naziri təşrif buyurdu, separatçı həmkarıyla Xankəndidə "əməkdaşlıq sazişi" imzaladı. Bu kimi addımların davam edəcəyi isə istisna edilmir.

Bu barədə fikirlərini "Unikal" qəzeti ilə bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, Paşinyan müharibədən əvvəl də Təhlükəsizlik Şurasının iclaslarına Araik Arutunyanı çağırırdı. Paşinyan Dağlıq Qarabağdakı "prezident seçkisi" zamanı Araik Arutunyanı dəstəkləmişdi və o seçildikdə Ermənistanın baş naziri gücünün Dağlıq Qarabağda da keçdiyinə inanmışdı. Çünki digər "namizədlər" Qarabağ klanının adamlarıydı və Paşinyana nifrət edirdilər. Buna baxmayaraq, 44 günlük müharibədə Araik Arutunyanla Paşinyan arasında münasibətlərdə soyuqluq yaşandı və bu təbii idi. Çünki, hər ikisi məğlubiyyətə görə məsuliyyəti ad çəkmədən bir-birlərinin üzərlərinə atmaq istəyirdilər.

Müsahibimiz qeyd edib ki, müharibə bitdikdən sonra hər ikisi anladı ki, bir-birlərinə dəstək verməsələr, rəqibləri onları ayrılıqda məhv edəcək: "Ona görə də Paşinyan və Arutunyan müharibədən əvvəl olduğu kimi yenidən əməkdaşlıq yolunu seçiblər. Birincisi, Paşinyan Arutunyanla birgə İrəvanda Təhlükəsizlik Şurasını keçirməklə ölkə daxilindəki rəqiblərinə, Rusiyaya və Azərbaycana mesaj yollayır ki, Ermənistan və Dağlıq Qarabağ üzərindəki nəzarəti davam edir və gücünü itirməyib. İkincisi, Paşinyan Təhlükəsizlik Şurasının birgə iclasıyla göstərmək istəyir ki, Ermənistan müharibədən əvvəl olduğu kimi Dağlıq Qarabağın iqtisadi və maliyyə problemlərinin həllində iştirak edəcək.

Paşinyan Ermənistandakı proseslərə nəzarəti itirməməyə çalışsa da, Dağlıq Qarabağın ermənilərin yaşayan hissəsinə nəzarət Moskvanın nəzarətinə keçib. Rusiya Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə cavabdehliyi öz üzərinə götürüb, humanitar məsələləri həll edir. Ermənistan hələ ki, Dağlıq Qarabağ separatçılarının büdcəsini və orada yaşayan ermənilərin maaşlarının verilməsini təmin edir. Ancaq Rusiya bu prosesi də bir müddət sonra öz nəzarətinə götürəcək".

E.Şahinoğlu hesab edir ki, Rusiya Dağlıq Qarabağda bütün bu çalışmaları həyata keçirərkən, əsas işi - bölgədəki separatçıların və terrorçuların tərksilahı ilə məşğul olmur: "Ancaq Kremldə onu da anlayırlar ki, bu məsələnin həllini gecikdirsələr, toqquşma ehtimalına rəğmən, tərksilah məsələsiylə Azərbaycan və Türkiyə hərbçiləri məşğul olacaqlar. Türkiyə hərbçilərinin dağlarda gizlənən PKK-çıların məhv edilməsi və tərksilah olunmasıyla bağlı böyük təcrübəsi var.



Rusiya hərbçilərinin Dağlıq Qarabağdakı fəaliyyətinin Azərbaycan cəmiyyətində və siyasi dairələrdə böyük narazılıq doğurduğu aşkardır. Kreml də bunu anlamamış deyillər. Ona görə də Moskva erməni separatçılarının xeyrinə pozulan balansı son günlər korrekte etməyə çalışır. Məsələn, Dağlıq Qarabağdakı rusiyalı hərbçilərdən biri erməni separatçılarının "gələcək qələbələrinin" şərəfinə badə qaldırdı və internetdə yayılan həmin görüntü cəmiyyətimizdə böyük narazılıq yaratdı. Bundan sonra bir qrup rusiyalı hərbçi Yeni il gecəsində "Yaşasın Azərbaycan" dedilər. Və ya noyabrın 10-dan bu yana rusiyalı hərbçilər ermənilərin təhlükəsizliyini təmin etmək üçün Xankəndi ətrafında minaların təmizlənməsini həyata keçirirlər. Rusiya eyni missiyanı 20 nəfərlik qrupla Ağdamda da həyata keçirməyə qərar verib. Rusiyalı hərbçilərin türkiyəli həmkarlarıyla birgə Ağdamda ortaq monitorinq mərkəzinin fəaliyyətə başlamasına sayılı günlər qalıb. Ona görə də Rusiya indidən Dağlıq Qarabağda Azərbaycan və Türkiyə hərbçiləriylə əməkdaşlıq üçün zəmin yaradır".

Politoloq onu da vurğulayıb ki, bu arada, Ermənistanın Türkiyədən aldığı mallardan imtina etməsi də müzakirə mövzusudur: "Ermənistan hakimiyyəti 2 250 türk malını İran malları ilə əvəzləyib. İrəvan bu qərarıyla Türkiyə ilə münasibətlərinin normallaşması imkanlarının üstündən xətt çəkmiş olur. Paşinyan bu qərarıyla cəmiyyətinə və İrana bu mesajları göndərmiş olur: Birincisi, İrəvan üçün Türkiyə ilə sərhədlərin açılması aktual deyil və İrəvan Ankaranın regional əməkdaşlıq formatına qatılmaq istəmir. Lap yaxşı, onsuz da Ermənistanın siyasi dairələri və cəmiyyəti Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından vaz keçməyənə qədər bu ölkənin regional əməkdaşlığa qoşulması mümkün deyil.

İkincisi, Paşinyan Türkiyə mallarını İran mallarıyla əvəz etməklə Tehrana da isti mesaj göndərdiyini düşünür. İran rəsmiləri və din xadimləri müharibə günlərində Azərbaycanın ərazi bütövlüyünə dəstək verən açıqlamalar səsləndirdilər, Dağlıq Qarabağın Azərbaycana aid olduğunu vurğuladılar. Bu Ermənistan rəsmilərinin xoşuna gəlməsə də, qorxularından İran əleyhinə açıqlama vermədilər. İndi də Türkiyə mallarını İran mallarıyla əvəz etməklə Tehrana demək istəyirlər ki, iranlı həmkarlarından inciməyiblər. İrandakı dairələrin ermənilərin bu hiyləsinə diqqət yetirmələri vacibdir, Ermənistan elə böyük bazar deyil ki, Türkiyə mallarının İran malları ilə əvəz olunmasının İran üçün böyük ticari əhəmiyyəti olsun. İran üçün bölgədə əsas bazar, ticarət tərəfdaşı və birgə regional layihələr olan Türkiyə və Azərbaycanla bağlıdır. Tehranın da bunu unutmamaları lazımdır".

Müsahibimiz sonda onu da nəzərə çatdırıb ki, müharibədən sonra Ermənistanın yeni müdafiə nazirinin Dağlıq Qarabağa gəlməsi, sonra ölkənin xarici işlər nazirinin səfəri, separatçı həmkarıyla Xankəndində "əməkdaşlıq sazişi"ni imzalaması gözardı edilməməlidir: "Rusiyalı hərbçilər Laçın dəhlizini Ermənistanla erməni separatçılarının ixtiyarına veriblər. Bu gedişlə Ermənistanın baş naziri Nikol Paşinyan da yaxın günlərdə dəhliz üzərindən Xankəndinə gələcək. Onun üçün bu səfər son dərəcə vacibdir. O erkən parlament seçkisinə qərar verib və Xankəndinə gəlməklə cəmiyyətinə göstərməyə çalışacaq ki, "Dağlıq Qarabağ Respublikası" varlığını sürdürür və Ermənistanla əlaqələr möhkəmdir. Biz nə edəcəyik? Ermənistan müdafiə nazirinin Xankəndinə gəlişinə reaksiya verilmədi, erməni xarici işlər nazirinin gəlişinə Azərbaycan Xarici İşlər Nazirliyinin uzun müddətdir susan mətbuat katibi açıqlama verdi və bu səfərin 10 noyabrda qəbul olunan bəyanata zidd olduğunu vurğuladı. Görünür, Paşinyanın səfəri üçün də oxşar açıqlama yayınlanacaq. Bizə dişsiz və qarşı tərəfin qulaqardına vurduğu açıqlamalar yox, Paşinyanın Azərbaycan torpaqlarına qanunsuz səfərinə mane olacaq real addımlar, o cümlədən Azərbaycan-Ermənistan sərhəddinin tam şəkildə nəzarətə götürülməsi lazımdır. Hakimiyyət bu haqda ciddi düşünməlidir".

***Z.Məmmədli***



# Mikayıl Cabbarov Qarabağın bərpasından danışdı

***"İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası Sizin tapşırığınıza uyğun olaraq hazırlanıb. Onun hazırlanması və müzakirəsi prosesində iqtisadi şurada bütün rəylər nəzərə alınıb və aidiyyəti üzrə təqdim edilib. İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq".***

Unikal.org xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə bildirib.

"İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir.

Tapşırığınıza uyğun olaraq, hər bir bölgəmizin təbii ehtiyatlarını, ənənəvi iqtisadiyyat sahələrini, nəqliyyat qovşaqlarını, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və Sizin göstərişinizlə artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq, hər bir iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı irriqasiya və meliorasiya sistemlərinin çəkilməsi və sair sahələr üzrə investisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq olunması məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiqi təklif olunur", - deyə o, qeyd edib.

# Baş nazirdən Nazirlər Kabineti ilə bağlı sərəncam

***Baş nazir Əli Əsədov "Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 dekabr tarixli 1214 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında Sərəncam imzalayıb.***



Unikal.org xəbər verir ki, bununla bağlı Nazirlər Kabinetinin rəsmi saytı məlumat yayıb. Sərəncama əsasən, Ədliyyə Nazirliyi icra prosesində müəyyən ediləcək aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 dekabr tarixli 1214 nömrəli Fərmanına uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilir.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# "Azərbaycanla Ermənistan arasında böyük fərqi bir daha görəcəklər" - Hikmət Hacıyev

***Bu gün Azərbaycan Ağsaqqallar Şurasının yeni inzibati binasının açılış mərasimi keçirilib.***

Unikal.org xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu münasibətlə Ağsaqqallar Şurasının üzvlərini təbrik edib.

Xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında ağsaqqal tövsiyəsinin və məsləhətinin əhəmiyyətini vurğulayan Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyev cəmiyyətimizdə ağsaqqalların roluna çox böyük önəm verir. Azərbaycan ağsaqqalları tariximizin bütün dövrlərində öz sözlərini deyiblər. Ağsaqqallar Şurası bu gün ölkəmizin inkişafına, Prezidentimizin yürütdüyü siyasətə öz dəstəyini göstərir.

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində Azərbaycan ağsaqqalları yenə də öz sözlərini dedilər. Xalqımızın həmrəy olmasında ağsaqqalların vacib rolunun bir daha şahidi olduq. Ölkəmiz inkişafının yeni bir mərhələsinə qədəm qoyur. İşğaldan azad edilmiş torpaqlarımızda quruculuq, abadlıq işləri görüləcək. Beynəlxalq ictimaiyyət Azərbaycanla Ermənistan arasında böyük fərqi bir daha görəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ərazilərimiz gülüstana çevriləcək. Bu xüsusda da ölkəmizin inkişafının yeni mərhələsində ağsaqqallarımızın böyük rolunun olacağına əminik. Həmçinin regionlarda Azərbaycan ağsaqqal ocaqlarının daha da inkişaf etdirilməsi və onların cəmiyyətimizin inkişafında daha fəal rol oynamaları önəmlidir", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Prezident İlham Əliyevin cəmiyyətimizdə ictimai birliklərin, vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dövlət orqanları yanında məşvərətçi şuraların yaradılmasına böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan cəmiyyəti və mədəniyyətində ağsaqqal sözünün öz çəkisi, xüsusi yeri var. Biz bunu çox böyük fəxrlə deyə bilərik ki, heç bir ölkədə Ağsaqqallar Şurası institutu yoxdur. Azərbaycan bu mənada da özünün əsrlərlə formalaşmış zəngin təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşə bilər. Beynəlxalq səviyyədə sülhün, əmin-amanlığın və mədəniyyətlərarası dialoqun təşviqi prosesində Azərbaycan ağsaqqalları da öz sözlərini deyə bilərlər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında Ağsaqqallar Şurası deyilən bir institut var ki, burada bizim təsisatımız fəal rol oynayır.

Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib. Ağsaqqallar Şurasının üzərinə böyük məsuliyyət düşdüyünü deyən Eldar Quliyev bildirib ki, şuranın birinci vəzifəsi regionlarda qurumun bölmələrinin tərkibini yenidən formalaşdırmaqdır: "Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasəti dəstəkləməklə, bu siyasəti regionlarda vətəndaşlarımıza çatdırmaq bizim vəzifələrimiz sırasındadır. Ötən ilin bizim üçün dəyəri o oldu ki, 30 il ərzində həll edilməyən Qarabağ problemi dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həllini tapdı. Torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi. Bu nailiyyətimiz Prezident İlham Əliyevin daxili və xarici siyasətinin məntiqi nəticəsi idi. İnanırıq ki, bu torpaqlarda quruculuq-abadlıq işləri böyük sürətlə həyata keçiriləcək. Biz də Ağsaqqallar Şurası olaraq bu prosesdə yaxından iştirak edəcəyik".



Ağsaqqallar Şurasının növbəti üç il üçün fəaliyyət proqramı qəbul etdiyini bildirən Eldar Quliyev deyib: "İlk növbədə, yerlərdə seçkilər keçirilməlidir, eyni zamanda, nizamnamələr təsdiq edilməli və şərait yaradılmalıdır. Dövlətimizin başçısının bizə göstərdiyi etimadı doğruldacağımıza əminik".

Sonra tədbir iştirakçıları yeni inzibati binada yaradılmış şəraitlə tanış olublar.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycan XİN-dən Ermənistana cavab



***"Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsinin Azərbaycanın Qarabağ bölgəsinə Ermənistan rəsmilərinin qanunsuz səfərlərinə haqq qazandırmaq cəhdi və bunun 10 noyabr tarixli üçtərəfli bəyannamənin öhdəliklərinə zidd olmadığını iddia etməsi Ermənistan rəsmilərinin əfsuslar olsun ki, 30 il bundan öncə olduğu kimi hələ də xəyallardan çıxış etdiyini və bölgədə mövcud olan yeni reallıqdan nəticə çıxarmadıqlarını nümayiş etdirir".***

Bunu Unikal.org-a açıqlamasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.

"Bu isə, o deməkdir ki, Ermənistan rəhbərliyi Qarabağda yaşayan insanları, sülh və təhlükəsizlik, rifah şəraitində gələcək birgəyaşayışı deyil, keçmişə yönük, dar siyasi maraqlarını fikirləşir. Bu siyasətin Ermənistan üçün nə ilə nəticələndiyi isə göz qabağındadır", - XİN rəsmisi vurğulayıb.

# Vaksinin birinci və ikinci dozası nə vaxt vurulacaq - TƏBİB

***"Azərbaycana gətiriləcək peyvənddə böyük ümid bağlayırıq. Amma hər kəs başa düşməlidir ki, vaksin belə sehrli çubuq deyil".***

Unikal.org xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib. Mütəxəssis qeyd edib ki, bir insan peyvənd vurdurursa onun bədənində immunitet hələ inkişaf etməyə başlayacaq: "Misal olaraq, birinci doza vurdurduqdan 14-21 gündən sonra ikinci doza vurulacaq. İkinci dozadan sonra bəlli anticisimlərin əmələ gəlməsini gözləyəcəyik. Bu, o deməkdir ki, çətin olsa da, bir müddət vaksinasiya prosesindən sonra da tibbi maska istifadə edilməli, əl gigiyenası və sosial məsafəni saxlamaq qaydasına ciddi əməl edilməlidir. Hamı əlbir olub özümüzü qorumalıyıq. Çünki birinci dozanı alıb ikinci doza alana qədər, yəni onda immunitet yarana qədər təhlükədə olacaq. Ona görə də hər kəs bu məsələyə ciddi yanaşmalıdır".

# Azərbaycanda koronavirusun yeni ştamı aşkarlanıb? - RƏSMİ AÇIQLAMA

***"Bu gün üçün heç kim dəqiq məlumat verə bilməz ki, Azərbaycanda koronavirusun yeni ştamı var. Çünki biz ancaq PCR üsulu ilə virusun mövcudluğunu təsdiq edə bilirik".***

Unikal.org xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

TƏBİB rəsmisi qeyd edib ki, PCR vasitəsilə virusun olub-olmaması məlum olur: "Virusun növünü, mutasiyasını və ya yeni ştamlarının olduğunu araşdırmırıq. Məlum olan ştam haqqında dəqiq məlumat odur ki, yoluxma sürəti daha yüksəkdir. Lakin daha ağır xəstəlik törədir, yaxud daha çox ölümə səbəb olur, fəsadları meydana çıxır kimi dəqiq məlumatlar yoxdur".

# Yoluxma sayının azalması test sayı ilə əlaqədar deyil

***Ölkədə COVİD-19-a yoluxma sayının azalması test sayının azalması ilə əlaqədar deyil.***

Unikal.org xəbər verir ki, bunu TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu Departamentinin müdiri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, sərt karantin tədbirlərinin yeni başlandığı günlərdə gündəlik yoluxma sayı 4000, hətta 5000-ə çata biləcək qədər idi:

"Bu gün isə gündəlik yoluxma sayı 1000-dən aşağı enib. Yoluxma sayının sağalma sayından az olması, bəzi günlərdə hətta iki dəfəyədək az olması ona gətirib çıxarır ki, xəstəxanalarda yataq yerləri boşalır".

# Prezident İlham Əliyevdən Ermənistana xəbərdarlıq

## Dövlət başçısı: "Əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq"

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, Dövlət başçısı müşavirəni giriş nitqi ilə açaraq 44 günlük Vətən Müharibəsi və onun nəticələri ilə bağlı mühüm məqamlara toxunub:

-Bu gün biz keçən ilin yekunlarını müzakirə edəcəyik, 2021-ci ildə görüləcək işlər haqqında danışacağıq. Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Biz bunu hərbi yollarla həll etdik. Baxmayaraq, uzun illər ərzində beynəlxalq vasitəçilər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar bizə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Biz də deyirdik ki, əgər belədirsə, onda münaqişə sülh yolu ilə həll olunsun, biz də bunun tərəfdarıyıq. Müharibə dövründə mən dəfələrlə Azərbaycan xalqına müraciət edərək və xarici kütləvi informasiya vasitələrinə müsahibələr verərək deyirdim ki, Ermənistan tərəfi bizə tarix versin, onlar nə vaxt bizim torpaqlarımızdan öz silahlı qüvvələrini geri çəkirlər və biz dayanırıq. Əks təqdirdə, axıra qədər gedəcəyik və bunu etdik. Beləliklə, şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən dəfələrlə demişdim ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu - hərbi yolla. Ondan sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi.

Mən son illər ərzində ölkəmizin hərtərəfli inkişafını dilə gətirərək deyirdim ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik. Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi, demək olar ki, Ermənistan ordusu yoxdur. Müharibədən sonra müşahidə olunan mənzərə onu göstərir ki, bu gün Ermənistan silahlı qüvvələri faktiki olaraq tam dağıdılıb. Ermənistan məğlub edilib və biz istədiyimizə 44 gün ərzində nail ola bilmişik. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, keçmiş Hadrut rayonunu, Xocavənd rayonunun böyük hissəsini, Suqovuşan qəsəbəsini, Murovdağ silsiləsini və Şuşa şəhərini hərbi yollarla azad etdik. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi hərbi yollarla işğaldan azad edildi. Bunun nəticəsində Ermənistan faktiki olaraq diz çökdü, məcbur olub noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Beləliklə, Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Bu Qələbə tarixdə əbədi qalacaq. Bu Qələbə bütün dünyaya sübut etdi ki, - bir daha bunu qeyd etmək istəyirəm, - bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən demişdim ki, tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq. Mən demişdim ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Mən demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Demişdim ki, biz bu məsələni istənilən yolla həll edəcəyik və etdik, bütün təzyiqlərə, təhdidlərə baxmayaraq. Baxmayaraq ki, dünyada kifayət qədər güclü erməni lobbisi var. Dünyada bir çox aparıcı dövlətlər Ermənistanı dəstəkləyir və müharibə dövründə biz bunu açıq-aşkar gördük, bəzi ölkələr bunu gizlədə bilmirdilər. Bu dəstək Ermənistana nə verdi? Heç nə. Bizim gücümüz, iradəmiz qarşısında bu dəstək sıfıra bərabər oldu. Hər kəs gördü ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən deyəndə ki, biz axıra qədər gedəcəyik, sözümə əməl etdim. O vaxt dayandıq ki, Ermənistan öz alçaldıcı məğlubiyyətini etiraf etdi, diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu. Hesab edirəm ki, bu, Ermənistan üçün tarixi dərs oldu. Onlar bir daha Azərbaycan xalqının böyüklüyünü gördülər. Baxmayaraq ki, işğal edilmiş bütün torpaqlarda vandalizm aktları törədildi, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz dağıdıldı və ya təhqir edildi, bütün yaşayış binalarımız dağıdıldı, Ağdam, Füzuli şəhərləri yoxdur, kəndlər yoxdur, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərlərində tək-tük bina qalıb, orada da Ermənistan hərbçiləri yerləşmişdilər. Kəlbəcər və Laçın rayonlarında daha çox qanunsuz məskunlaşma aparılmışdır. Ancaq Ermənistana o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində onlar oranı da dağıtmışlar, bütün dünyaya öz vəhşiliklərini göstərmişlər. Bütün dünyanın gözü qarşısında evləri yandırıb, meşələri kəsib, qırıb, yandırıb, vandalizm aktları törətmişlər. Bütün dünya gördü ki, biz kiminlə üz-üzə idik. Bu vəhşiliyin, bu qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur. Heç İkinci Dünya müharibəsində işğalçı qüvvələr bu qədər qəddarlıq törətməmişlər. Onlar hesab edirdilər ki, biz bu bölgələrə qayıtmayacağıq, amma biz qayıtmışıq və qayıdırıq. Bu gün biz Böyük Qayıdış haqqında danışacağıq.

İndi mənə məlumat verildi ki, Ermənistanın xarici işlər naziri Xankəndiyə gedib. Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq. İndi münasibətlərin normallaşdırılması istiqamətində addımlar atılır. Rusiya öz vasitəçilik imkanlarını tərəflərə təqdim edib. Bu yaxınlarda Ermənistana və Azərbaycana səfər etmiş Rusiya hökumət nümayəndələrindən ibarət heyət əsasən bu mövzular haqqında söhbətlər aparmışdır.

Yaxşı, əgər münasibətlər normallaşacaqsa, o zaman belə təxribat xarakterli "səfərlərə" nə ehtiyac var? Nəyi göstərmək istəyirlər? Yenəmi bizi qıcıqlandırmaq istəyirlər? Unutmasınlar ki, onlara çox baha başa gəldi bu tipli addımlar. Ona görə bu səfərlərə son qoyulmalıdır. Heç bir xarici vətəndaş bizim icazəmiz olmadan o əraziyə gedə bilməz. Heç bir beynəlxalq təşkilat, - ancaq Qırmızı Xaç istisna olmaqla, - oraya gedə bilməz. Bu, bizim ərazimizdir. Bütün dünya bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistanın xarici işlər naziri, sən kimsən ki, oraya gedirsən? Xəbərdarlıq edirik. Əgər buna oxşar addım təkrarlanarsa, bizim cavabımız çox sərt olacaq. Elə birinci dəfə biz Xarici İşlər Nazirliyi vasitəsilə onlara xəbərdarlıq etdik. Ondan sonra xəbərdarlıq başqa cür veriləcək. Onların ayağı oradan kəsilməlidir. Otursun öz ölkəsində.

Sülhməramlı qüvvələr. Onların orada funksiyası var. Noyabrın 10-da bu funksiya təsbit edildi. Baxmayaraq ki, indi onlar orada humanitar işlərlə məşğuldurlar, halbuki noyabrın 10-da imzalanmış Bəyanatda bu funksiya təsbit edilməyib, biz buna, necə deyərlər, göz yumuruq. Nə üçün? Çünki başa düşürük ki, orada insanlar yaşayır, başa düşürük ki, indi qış gəlib, hava soyuqdur. Orada müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın. Ona görə biz imkan verdik. İndi yüklərin böyük hissəsi oraya Azərbaycan ərazisindən gedir. Biz imkan verdik. Bərdəyə qədər dəmir yolu ilə gedir. Ondan sonra maşınlarla Dağlıq Qarabağa aparılır. Əlbəttə, biz imkan verməyə də bilərdik.

Ermənistan 30 il bizim suyumuzu kəsib, 100 min hektar torpağı susuz qoyub. Baxmayaraq ki, həm Sərsəng, həm də Suqovuşan su anbarları o vaxt ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə və onun fəaliyyəti nəticəsində inşa edilmişdir. Ermənistan bizim suyumuzu kəsmişdi. Amma mən yenə də deyirəm, biz heç vaxt onların səviyyəsinə düşməməliyik. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır. Mən demişəm, onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar. Ona görə biz bu imkanları verdik. Yoxsa Laçın dəhlizi ilə oraya yük daşımaq çox çətin məsələdir. Biz digər addımlar atdıq ki, orada humanitar işlər getsin. Yenə də deyirəm, noyabrın 10-da imzalanmış sənəddə bu, yoxdur. Amma biz yenə də imkan veririk. Bu, bizim ürəyimizin nə qədər geniş olmasını göstərir. Hesab edirəm ki, noyabrın 10-da imzalanmış Bəyanat gələcək fəaliyyət üçün əsas olmalıdır. Bu Bəyanatdan başqa, hər hansı bir digər sənəd imzalanmayıb.

Eyni zamanda, imkan verdik ki, - söhbət bizim ərazimizdən keçən yollardan və azad edilmiş torpaqlardan gedir, - erməni vətəndaşlar Qubadlı rayonundan keçən yoldan istifadə etsinlər. Bunu gərək onlar qiymətləndirsin, yoxsa yox. Bu, bizim torpağımızdır. Başa düşürük ki, yol oradan keçib. Sovet vaxtında sərhədlərin o qədər də böyük əhəmiyyəti yox idi, orada yaşayan erməni əhalisi bəlkə də bilməyib ki, bu, Azərbaycan ərazisidir. Çünki kim onlara deyə bilərdi ki, bu, Azərbaycan ərazisidir. Onlar hesab ediblər ki, bu, Ermənistan ərazisidir. İndi biləndə ki, bu, Azərbaycan ərazisidir və Azərbaycan sərhədçiləri oraya gəlib yerləşiblər, əlbəttə, onlar stres keçiriblər. Amma yenə də mən göstəriş vermişdim ki, bir adamın burnu qanamamalıdır. Onlara başa salın ki, bu, bizim yerimizdir, bizim torpağımızdır, çıxıb getsinlər. Vaxt verdik onlara. Ermənistan tərəfi bizdən xahiş etmişdi ki, yanvarın 2-nə qədər vaxt verin. Biz də vaxt verdik. Vaxt verməyə bilərdik. Mən oraya bir hərbi dəstə göndərə bilərdim və görüm nə günə düşərdilər onlar. Bunu etdikmi? Yox! Amma onlar edərdilər. Onlar Kəlbəcəri işğal edəndə bizə vaxt vermədilər. Bizim vətəndaşlar oradan ayaqyalın Murov aşırımından, Ömər aşırımından keçərək çıxdılar. Bir çoxları da yolda donub həlak oldular. Onlar bizə vaxt verdilər?

Onlar mülki əhaliyə qarşı soyqırımı törətmişlər, Xocalı soyqırımı, digər hərbi cinayətlər. Biz isə bizim azad edilmiş ərazilərdə diversiya ilə məşğul olanları əsir götürdük. Məhv etmədik. Dedim ki, əsir götürün, daha müharibə başa çatıb, daha qan tökmək lazım deyil. Bu, yenə də bizim humanist mahiyyətimizi göstərir. Bu, bizim ərazimizdə yerləşib və oradan çıxmaq istəməyən bir qüvvədir və bizə qarşı təxribatlar törədib, hərbi təxribatlar. Bunun nəticəsində hərbçilərimiz həlak olub. Biz isə yenə humanistlik göstərmişik. Onları əsir götürmüşük. Amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır. Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Bunu hər kəs bilsin. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə ayın 10-da qurtarıb, Bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi bu qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu, onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz.

Mən bir daha demək istəyirəm ki, biz bir çox hallarda humanistlik göstərmişik və Ermənistan tərəfi bunu qiymətləndirməlidir. Bunun müqabilində Ermənistan xarici işlər nazirinin bizim torpağımıza gəlməsi qəbuledilməzdir. Artıq mən demişəm, ümid edirəm ki, onlar düzgün nəticə çıxaracaqlar. Çıxarmasalar, onların böyük problemləri olacaq və yenə də peşman olacaqlar. Beləliklə, müharibə başa çatdı. Biz istədiyimizə nail olduq. İndi artıq quruculuq dövrü başlayır".



# “Müqavimətlər olacaq, təxribatlar qaçılmazdır”

## Zəlimxan Məmmədli: “Rusiya bölgədə nəzarətsiz qaldıqca, suvernliyimizin risk altında olmasını yaddan çıxartmamalıyıq”



***44 günlük Vətən Müharibəsi ilə bağlı müzakirələr davam etməkdədir. Kimlərsə Rusiya sülhməramlılarının Qarabağa gəlməsindən, Dağlıq Qarabağ ərazisində ermənilərin hələ də yaşamasından narahat olsa da, ortada böyük bir qələbə var. ”Borçalı Cəmiyyəti”nin sədri, politoloq Zəlimxan Məmmədli ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Zəlimxan bəy, öncə 44 günlük Vətən Müharibəsi və nəticəsi barədə fikirlərinizi bilmək istərdik.***

-Azərbaycan insanı məyus idi. Bir sıra daxili və xarici amillər insanlarımızı ümidsizləşdirmişdi. Milli qüvvələr isə Qarabağ probleminin həlli ilə bağlı rəsmilər və bəzi dairələr tərəfindən təkzib olunsa da, hərbi-siyasi yolu birmənalı diktə edir, ictimai rəyi taraz saxlamağa çalışırdılar.

Və doğru olaraq vətən savaşı başladı. Zamanın məhz indi seçilməsində ölkədaxili və regional faktorların rol oynadığını təsirsiz hesab etmirəm. Rusiya uzun illərdir Azərbaycan siyasi hakimiyyəti və öz törəmələri olan “5-ci kalon”dan hərbi güc ilə bölgəyə girişinə şərait yaradılmasını diqtə edirdi. Azərbaycan müxtəlif vasitələrlə bundan yayınırdı. Aprel əməliyyatı, Tovuz təxribatında məncə hədəflərdən biri bu idi. Azərbaycanın Kremldən olan bu təhdidlərə sinə gərə bilməsini dəyərləndirmək lazımdır. İndiki zamanda isə ABŞ-ın başının seçkiyə qarışması Rusiyanı daha da həvəsləndirdi. Tovuz təxribatından sonra Türkiyənin sürətli siyasi-diplomatik-hərbi həmlələrlə bölgəyə girişi fərqli mənzərə yaratdı. Rusiya Azərbaycanın arxasında ciddi güc olduğunun fərqində oldu, intensiv diplomatik gedişlər alt qatda Rusiya-Türkiyə-Azərbaycan arasında qarabağ düyününün çözülməsi məsələsini masaya daşıdı, məncə razılaşıldı. Rusiya ilə bərabər Türkiyənin də Qarabağa girişinin razılaşdırılması yeni siyasi mahiyyət yaratdı. Müharibə variantı ən optimal variant olaraq tərəfləri qane etdi. Vətən savaşının Şuşa zəfərinə qədər hissəsi gerçək qəhrəmanlıq tarixi imiz kimi yazıla bilər. Zəif, döyüş qabiliyyəti olmayan Azərbaycan ordusu müasir, hələ tədqiq olunası hərbi taktika nümayiş etdirə bildi. İmicimiz radikal şəkildə dəyişdi. “Azərbaycan ordusu, Azərbaycan xalqı döyüş qabiliyyətli qəhrəman, döyüşkən xalqdır” həqiqəti dünyaya yayıldı.

***-Əslində, bu müharibə Azərbaycanın dostları və düşmənlərinin bəlli olması üçün də rol oynadı. Sizcə, dünya da yeni Azərbaycan obrazı ilə qarşı-qarşıya qalmadımı?***

-Bəli. Türkiyə, Pakistan, Əfqanıstan, İsrail, Britaniya, Ukrayna, Gürcüstan, Macarıstan kimi dostlarımız yeni güc mərkəzinin ortasında olmağımızın göstəricisi idi. Eyni zamanda, ordumuzun döyüş hazırlığı regionda ən müasir silah arsenalına sahib olduğumuza, Rusiya silah sistemini məhv etmək qüdrətini nümayiş etdirdi. 44 günlük vətən savaşı Türkiyə ilə Azərbycan arasında 1 millət, 2 dövlət formulunu daha da dərinləşdirərək 1 millət 1 dövlət modelinə, daha sıx hərbi-siyasi birlik olmağımıza yaşıl işıq yandırdı. Həmçinin, digər türk dövlətlərini ürəkləndirən, yaxın gələcəkdə yeni türk dövlətlər birliyinin perspektivini açdı. Ən əsası Azərbaycan, Türkiyə və region dövlətləri üçün təhdid mənbəyinə çevrilmiş “Böyük Ermənistan xülyasını saxta, əsassız cəfəng nifaq toxumu olduğunu sübüt etdi və bu ideyanı birdəfəlik məhv etdi. Vətən savaşı həmçinin döyüşkən, məğlubedilməz Erməni ordusu mifini darmadağın etdi. Vətən savaşı həm də erməni himayədarlığı və türk düşmənliyi edən ATƏT-in həmsədrlərini ifşa etdi. Vətən savaşı mövcud ATƏT-in həmsədr institutunu iflas edərək ya yenilənməsi, ya da missiyasının dayandırılmasını siyasi gündəm etdi, BMT TŞ-nın qətnamələrinin yerinə yetirilməsini təmin etdi. Vətən savaşı millətimizin bütün spektrlərinin Vətən məsələsində birlik probleminin olmadığının möhürünü vurdu.

***-Maraqlı məqamlardan biri də odur ki, uzun illər hakimiyyətə qarşı barışmaz mövqedə olan siyasi qüvvələr də vahid mövqedən çıxış edə bildilər. Sizcə, bu birliyin önəmi nə qədər idi?***

-Siyasi partiyalar yekdilliklə ordumuzun, doğru verilən siyasi qərarların yanında oldu. Güneyli, Qüzeyli bir millət olaraq hamı Vətən səngərində idi. Eyni zamanda, Azərbycan ordusu çoxdinli, çox millətli, çox mədəniyyətli bir ordu nümunəsi göstərdi. Türklər, talışlar, ləzgilər, gürcülər, ruslar, avarlar, tatlar, udinlər, kürdlər və digər xalqların nümayəndələri müqəddəs bildikləri Azərbaycan torpaqları uğrunda, bayrağımız uğrunda bir səngərdə döyüşə, ya şəhid ya qazi ola bildilər. Bununla Azərbaycanın azlıqlara tolerant olmadıqları haqda Erməni propoqandası iflas etdi. Sadaladıqlarım birinci dönəmin-Şuşa zəfərinə qədər olanlardır.

***-Zəlimxan bəy, 10 noyabr bəyanatının imzalanmas və rus sülhməramlılarının ölkəmizin ərazilərinə gətirilməsi ilə bağlı narahatlıqlar var. Sizin mövqeyiniz necədir?***

-Şuşa zəfəri ümumxalq sevincinin səhərisi 10 noyabr gecə bəyanatı ilə hərbi əməliyyatların dayandırılması xeyli haqlı suallar doğurdu. Rusiya kimi işğalçı bir ordu niyə bizim əlimizlə “sülhməramlı” medalı ilə mükfatlandırıldı, beynəlxalq hüququ saya salmadan ölkəmizə daxil etdik? Azərbaycanın niyə Xankəndinə, Xocavəndə, Xocalıya bayraqları sancılmadı? Niyə Rus sülhməramlıları ilə baş-başa türkiyə hərbiçiləri yoxdur? Niyə Rusiya erməniyanlılıq edir? Niyə rus hərbçiləri birtərəfli qaydada Azərbaycanın xəbəri olmadan məskunlaşma işi ilə məşğul olur? Terrorçu və axtarışda olan Arayiki niyə zərərsizləşdirmir? Status məsələsi birdəfəlik olmayacağı təqdirdə qanunsuz “Artsax”ın mərkəzi hakimiyyət orqanları, hökuməti formalaşdırılır? Və nəhayət rəsmilər bu suallara cavab vermir, cəmiyyətlə intensiv təmasdan qaçırlar?

***-Məlumdur ki, həm müharibədən əvvəl, həm də savaş dönəmində Azərbaycana təzyiq və təpkilər var idi. Bununla bağlı Prezident İlham Əliyevin də açıq və üstüörtülü mesajları oldu. Odur ki, rəsmilərin “müəyyən qədər səbrli olmaq lazımdır” mesajına qulaq vermək olmazmı?***

-Elədir. Bu məqamda qoyduğumuz suallara cavabla bağlı sosial sifariş olsa da, daha soyuqqanlı davranış tələb olunur. Geopolitik durum, hərbi-siyasi güc balansı əhəmiyyətli dərəcədə dəyişib. Rusiyanın tək hegemonluğu Türkiyənin dövriyyəyə girməsi ilə balanslaşdırılmaq üzrədir. Faktik olaraq Azərbaycanda Türkiyənin timsalında NATO ilə onun əsas rəqibi Rusiya əməkdaşlığa meyllidir. Bütün proseslərin sonrakı inkişafı bu cütlüyün bundan sonrakı əməkdaşlığı və münasibətlər sisteminin necə qurulmasından asılı olacaq. Təbii ki, Rusiyanın bundan sonra ölkəmizdə hərbi baza statusu almaq istəyi qətiyyətlə qəbul oluna bilməz. Rusiya qoşun birliklərinin ölkəmizdən daha tez çıxması gündəmdə olmalıdır. Burada Türkiyənin NATO-nun təmsilçisi kimi BMT-dən sülhməramlı statusla Qarabağda yerləşməsi bu prosesi daha da sürətləndirə bilər. Rusiya bölgədə nəzarətsiz qaldıqca, suvernliyimizin risk altında olmasını yaddan çıxartmamalıyıq.

***-Siz hər zaman Azərbaycanla Türkiyə arasındakı münasibətlərin daha da dərinləşdirilməsinin, bu yaxınlığın müxtəlif müstəvilərdə rəsmi sazişlərlə sənədləşdirilməsinin tərəfdarı olmusunuz. Sizcə, bundan sonra Türkiyə ilə münasibətləri hansı istiqamətdə inkişaf etdirmək lazımdır?***

-Türkiyə-Azərbaycan birliyi dünyaya yeni güc mərkəzinin - türk güc mərkəzinin daxil olması anlamına gəlməlidir. Azərbaycan və Türkiyə arasında təxirə salmadan hərbi ittifaq yaradılmalı, Türkiyə hərbi bazalarının Naxçıvanda, Qarabağda, Gəncədə yerləşdirilməsi təmin olunmalı, Türkiyənin Şuşada konsulluğu yaradılmalıdır. Bunları bizlərə yasaq edən heç bir mexanizm yoxdur. Həm Türkiyədə, həm də Azərbaycanda əksəriyyət buna müsbət yanaşacaq. Bu gün hətta Trkiyə ilə Azərbaycanın bir dövlət modelində birləşməsi referenduma çıxarılarsa şübhə etmirəm ki, Türkiyə və Azərbaycan seçicilərinin 90 faizindən çoxu müsbət səs verər. Prosesin inkişafında bu cür sosial sifarişlər real siyasi məzmun ala, reallaşa bilər. Müqavimətlər olacaq, təxribatlar qaçılmazdır. Amma bu dünyanın qəbul etmək zorunda olacağı reallıqdır. Digər türk dövlətlərinin, Pakistanın da bu birlikdə olma ehtimalları yaxın gələcəyin reallığı ola bilər. Erməni kartından sui- istifadələr, güman ki, Ermənistan-Azərbaycan-Türkiyə arasında dinc yanaşı yaşama anlaşmaları ilə sonuclanacaq. Mübarizə daha çox ağıl, iradə, cəsarət tələb edən bir müstəviyə qədəm qoyub. Millətimizin resursu o qədər zəngindir ki, inanıram ki, zəfər bizim, zəfər Türk millətinin və Türk dünyasının olacaq.

***Z.Məmmədli***

# 2021-ci il ölkə iqtisadiyyatı üçün olduqca məsuliyyətli bir il olacaq

## Samir Şərifov: “Dövlət büdcəsində nəzərdə tutulmuş müvafiq vəsaitlər də inkişafı təmin etmək üçün öz rolunu oynayacaq”

***“Yola saldığımız 2020-ci il Azərbaycan dövləti və xalqı üçün ən yaddaqalan və şanlı dövr kimi tarixə yazılır. Möhtərəm cənab Prezident, son 17 il ərzində Sizin rəhbərliyinizlə ölkədə həyata keçirilmiş iqtisadi və hərbi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət, dövlət və ordu quruculuğu və 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə qazanılmasını, işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin edib”.***



“Unikal” xəbər verir ki, bu fikirləri müşavirədə Maliyyə naziri Samir Şərifov səsləndirib. O bildirib ki, Prezidentin maliyyə orqanları və hökumət qarşısında qoyduğu əsas, ən ümdə vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, həmin regionda müvafiq infrastrukturların yaradılması və bununla əlaqədar müvafiq maliyyə vəsaitlərinin təmin edilməsidir: “Bununla əlaqədar Sizin tapşırığınıza əsasən, 2021-ci ilin təsdiq olunmuş dövlət büdcəsində məqsədli olaraq bərpa, yenidənqurma işlərinin aparılması, eyni zamanda, həmin regionun Azərbaycan iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsi üçün 2,2 milyard manat vəsait nəzərdə tutulub.

Eyni zamanda, Sizin qarşımızda qoyduğunuz digər vacib məsələ Azərbaycan Ordusunun təchizatı, Azərbaycan sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsinin təmin olunmasıdır. Bu vəzifələrin həyata keçirilməsi üçün də dövlət büdcəsində müvafiq vəsaitlər nəzərdə tutulub. Qeyd etmək istərdim ki, ümumilikdə 4,6 milyard manat maliyyə təminatı yaradılıb. Bununla əlaqədar nəzərə alınmamış digər tədbirlərin həyata keçirilməsi üçün müəyyən ehtiyat vəsaitlər də nəzərdə tutulub. Onu da bildirmək istərdim ki, bu vəsaitlərin ayrılması ilə yanaşı, dövlət büdcəsi ilə ölkəmizin ənənəvi dövlət vəzifələrinin, nəzərdə tutulmuş bütün sosial proqramların həyata keçirilməsi və bir sıra təşəbbüslərin icra olunması da nəzərdə tutulub. O cümlədən Sizin tapşırığınız əsasında təhsil kreditlərinin verilməsi üzrə xüsusi bir mexanizmin hazırlanması üçün müəyyən maliyyə təminatı nəzərdə tutulur ki, müvafiq qərar qəbul edildikdən sonra bu mexanizm işə salına bilər.

Digər tərəfdən, onu da nəzərə almaq lazımdır ki, 2020-ci il ölkə iqtisadiyyatı üçün sosial-iqtisadi cəhətdən kifayət qədər mürəkkəb bir il olmuşdur. Bu da bütün dünyada baş vermiş proseslərdən irəli gələn məsələdir. Çünki ölkəmiz xarici mənşəli şoklara məruz qalıb. Bu, əsasən, qlobal koronavirus pandemiyası və onun ölkə iqtisadiyyatı üçün yaratdığı mənfi fəsadlardır. Həmin mənfi təsirlərin azaldılması üçün ötən il xüsusi olaraq vəsaitlər ayrılmışdır. 2021-ci ildə də ayrılmış həmin vəsaitlər, eyni zamanda, dövlət büdcəsindən, eləvə olaraq müəyyən dövlət fondlarından, digər büdcədənkənar imkanlardan, özəl sektordan və maliyyə-bank sektorundan vəsaitlərin səfərbər edilməsi proqramı həyata keçirilmişdir. Həmin proqramın 2021-ci ildə də icra olunması üçün vəsaitlər nəzərdə tutulub. O cümlədən sahibkarlara güzəştli əsaslarla kreditlərin ayrılması üçün müəyyən dövlət zəmanətlərinin verilməsi, eyni zamanda, həmin zəmanətli kreditlərin faiz dərəcələrinin subsidiyalaşdırılması üçün vəsaitlər nəzərdə tutulmuşdur. Bununla yanaşı, ənənəvi olaraq ipoteka proqramlarının həyata keçirilməsi üçün də dövlət büdcəsində vəsaitlər nəzərdə tutulub. Bu vəsaitlər, eyni zamanda, Azərbaycanda sosial mənzillərin tikintisi məsələlərini də əhatə edəcək. Bu məqsədlər üçün növbəti ilin büdcəsindən 152 milyon manat vəsait nəzərdə tutulub.

Hərbi qulluqçuların mənzilməişət şəraitinin yaxşılaşdırılması məqsədilə Sizin müvafiq Fərmanınızın icrası olaraq son illər ərzində vəsaitlər ayrılır və bu il də bu məqsədlərə 35 milyon manat vəsait ayrılıb. Digər tərəfdən, bəzi dövlət şirkətlərinin əhaliyə göstərdiyi xidmətlərin subsidiyalaşdırılmış qiymətlərlə həyata keçirilməsini nəzərə almaqla dövlət tərəfindən həmin şirkətlərə müəyyən subsidiyaların verilməsi nəzərdə tutulur”.

Maliyyə naziri onu deyib ki, yerli gəlirlərlə xərclər arasında da müsbət dəyişikliklər müşahidə olunmaqdadır: “Artıq ölkəmizin 42 şəhəri və rayonu öz gəlirləri hesabına öz xərclərini təmin etmək iqtidarındadır. Yerdə qalan rayonların xərcləri ilə gəlirləri arasında kəsirin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən dotasiyaların verilməsi davam etdiriləcək. Xüsusi olaraq qeyd etmək istərdim ki, kənd təsərrüfatı sahəsində proqramlara vəsaitin ayrılması davam etdirilir. Bu məqsədlə növbəti ilin büdcəsində də 460 milyon manatdan çox vəsaitin ayrılması həyata keçiriləcək. Bu vəsait hesabına həm fermerlərə müəyyən subsidiyaların verilməsi, o cümlədən ərzaq, əkin sahəsi üzrə və son zamanlar digər yeni subsidiyalaşdırma mexanizmləri maliyyələşdirilməsi üçün vəsait ayrılması nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, 2021-ci il ölkə iqtisadiyyatı üçün olduqca məsuliyyətli bir il olacaq. Hesab edirik ki, ötən il pandemiyaya qarşı mübarizə tədbirləri həm səhiyyə sahəsində, həm də sosial-iqtisadi sahədə uğurla həyata keçirilmiş və prinsip etibarilə onun kəskin fəsadları aradan qaldırılmışdır. Artıq dünyada, o cümlədən ölkəmizdə də optimizm artmaqdadır. Sizin tapşırıqlarınızın icrası olaraq peyvəndin əldə edilməsi, sözsüz ki, ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsirini göstərəcəkdir. Bununla bağlı dövlət büdcəsində nəzərdə tutulmuş müvafiq vəsaitlər də inkişafı təmin etmək üçün öz rolunu oynayacaq”.

***H.İsgəndərov***

# "Müharibənin başlamasını bilirdik " - Dilqəm Əsgərov

***Biz orada müahirəbənin başlamasını bilirdik. Artilleriya səsləri yaxınlaşırdı.***



Unikal.org-un məlumatına görə, bunu bu gün keçirilən mətbuat konfransında erməni girovluğundan azad edilən Dilqəm Əsgərov deyib.

O bildirib ki, Azərbaycan Ordusunun yaxınlaşmasını görən ermənilər öz dustaqlarını Şuşa həbsxanasından köçürüblər: ”Amma bizi aparmadılar. Bizim sadəcə gündüz gəzintimizi ləğv etdilər. Artıq o gündən bizi həyətə gəzməyə çıxarmadılar. Azərbaycanın artilleriya atəşi nəticəsində mərmi düz Şuşa həbsxanasının qarşısına düşdü. Ermənilər artıq qorxuya düşmüşdülər. Bizə psixoloji təsir etməyə çalışırdılar. Amma biz sevinirdik, bilirdik ki, Azərbaycan əsgərləri torpaqları azad edir. Erməni həbsxanasında rəis bizi qorxudurdu. Amma biz bilirdik ki, onlar qorxudan bizə təsir etmək istəyirdilər”.

D.Əsgərovun sözlərinə görə, bir neçə gün sonra məlum oldu ki, əsgərlər Şuşaya daxil olub:

”Dərhal bizi maşına mindirib Şuşadan Gorusa apardılar. Bizimlə birlikdə bir azərbaycanlı əsir də apardılar. Amma sonradan onu yoxa çıxardılar. Mənə badalaq verib yıxdılar, təpiklədilər. Sonra apardılar Yerevana. Yerevanda paltarlarımı soyundurdular, başıma sellofan torba salıb boğurdular. Oradan Yerevan həbsxanasına apardılar. Nəzarətçilər qapını qaynaqladılar. Yalnız nəfəslik açıq qalırdı. Həmin şəxslər nəfəslikdən bizi söyürdülər. Bizi sonra yenidən qaytardılar Gorusa. Bir neçə gün qalandan sonra ruslara təhvil verdilər və Bakıya göndərdilər”.

# "Mən onların cavablarını verdim" - Amin Musayev



***“Vətənə qayıtdığım üçün Ali Baş Komandana minnətdarlığımı bildirirəm. Düşünürəm ki, əsir düşməkdənsə ölmək yaxşıdır. Əsir götürülən zaman mənə nalayiq söz dedilər və mən onların cavablarını verdim. Orada rus jurnalistin olmasını belə bilmirdim”.***

Unikal.org xəbər verir ki, bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində keçirilən mətbuat konfransında erməni əsirliyində olmuş hərbi qulluqçumuz Musayev Amin Alim oğlu deyib.

“Məni sonra tibbi maşına mindirəndə də vurdular. Müəyyən yol getdikdən sonra maşını saxlayıb yenə vururdular. Sonra huşumu itirdim. Xəstəxanada olduğumu isə sonradan bildim. Həkim sarğı edən zaman səsim çıxanda belə məni vururdu. Kefləri nə zaman istəyəndə isə yemək verirdilər. Gətirib tullayıb gedirdilər”, - deyə o bildirib.

# Eyyub Hüseynov koronavirusa yoluxdu

***Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynov koronavirusa yoluxub.***



Bu barədə Unikal.org-a AİB sədrinin özü məlumat verib.O, bildirib ki, Covid-19 testinin nəticəsi pozitiv çıxıb.Hazırda səhhəti stabildir.

# Rusiya XİN: ABŞ-ın seçki sistemi arxaikdir



***Moskva Vaşinqtonda baş vermiş hadisələri ABŞ-ın daxili işi hesab edir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

XİN rəsmisi bildirib: "Bu, ABŞ-ın daxili işidir. Bununla belə, Vaşinqtondakı hadisələr göstərdi ki, ABŞ-ın seçki sistemi arxaikdir, müasir demokratik standartlara cavab vermir, pozuntular üçün şərait yaradır. İndi ABŞ-da müşahidə olunanlar, cəmiyyətdəki parçalanmanın səbəbi böyük ölçüdə budur. Dost Amerika xalqına öz tarixlərinin bu dramatik mərhələsindən layiqincə çıxmağı diləyirik".

# Erməni təcavüzünü ifşa edən kitab




***Müjgan Əliyevanın təşəbbüsü və redaktorluğu ilə ingilis dilində qələmə alınan "The true face of aggression: through injustice and bloodshed" kitabının əsas məqsədi, Azərbaycanın Ermənistan tərəfindən məruz qaldığı təcavüz haqqında həqiqətləri dünyaya çatdırmaqdır.***

"Unikal" xəbər verir ki, kitabda ilk dəfə olaraq ikinci Qarabağ müharibəsi, Bərdə və Gəncə şəhərinə olan raket hücumlar, Qarabağda törədilən ekoloji terror, Ermənistanın Azərbaycana qarşı tətbiq etdiyi psixoloji müharibə, və Xocalı Soyqırımı haqqında məqalələr oxuyuculara təqdim olunacaq. Bu kitabda milli qəhrəmanlarımız Çingiz Mustafayev, Mübariz İbrahimov, Polad Həşimovun qəhrəmanlıqlarına xüsusi ilə yer verilib.

Kitabda Bakı Dövlət Universitetinin professoru, Ekoloji Kimya kafedrasının müdiri Sevinc Hacıyeva, Bakı Dövlət Universitetinin müəllimi, kimya elmlər namizədi Fərqanə Əliyeva, İngiltərinin Bristol Universitetinin məzunu, Bakı Dövlət Universitetinin doktorantı Tofiq Əliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı, innovativ inkişaf və beynəlxalq əməkdaşlıq üzrə ekspert Rüstəm Məmmədov, Bakı Dövlət Universitetinin mühazirəçisi, ictimaiyyətlə əlaqələr üzrə ekspert Müjgan Əliyeva, Almaniyada fəaliyyət göstərən, insan hüquqları üzrə ekspert Təhminə Salayeva, Türkiyənin Orta Şərq Texniki Universitetinin doktorantı, Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin əməkdaşı Nigar Şirəlizadə, Türkiyənin Atatürk Universitetinin doktorantı Kadir Aydın, İstanbul Universitetinin fəxri məzunu Hatice Ferek, İstanbul Aydın Universitetinin fəxri məzunu Ülkər Əliyevanın məqalələri dərc olunub. Eyni zamanda kitabda Real TV-nin fotojurnalisti Famil Mahmudbəylinin İkinci Qarabağ müharibəsi zamanı Gəncə, Bərdə və digər cəbhə bölgəsinə yaxın olan ərazilərdə çəkdiyi kadrlar oxuyuculara təqdim olunur.

Kitabın dizaynı Kamran Paşayeva məxsusdur. Üz qabığında olan foto Tərtərin Şıxarx kəndində, ermənilən dinc əhaliyə qarşı olan növbəti hücumu zamanı fotojurnalist Famil Mahmudbəyli tərəfindən çəkilib. Kitab Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşən və şəhid olan əsgər və hərbçilərimizin əziz xatirəsinə həsr olunur. Xüsusi ilə qeyd etməliyik ki, kitabın satışından əldə olunan gəlir şəhid və qazi ailələrinə yardım üçün ayrılacaq.

# 57 rayon üzrə 674 mindən çox su qrafiki tərtib olunub

***Fermerlərin təbii fəlakətdən və digər risklərdən qorunması üçün aqrar sığorta sistemi formalaşdırılıb. Ötən ilin noyabrından heyvandarlıq və bitkiçilik sahəsi üzrə sığorta məhsulu fermerlərə təqdim edilib. Su məsələləri komissiyasının koordinasiyası ilə fermerlərin suvarma suyuna olan tələbatını ödəmək məqsədilə tədbirlər davam etdirilib.***

"Unikal" xəbər verir ki, bu sözləri yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Nazir bildirib ki, "Meliorasiya və Su Təsərrüfatı" ASC ilə birlikdə mövcud suyun ədalətli və vaxtında bölüşdürülməsi üçün 57 rayon üzrə 674 mindən çox su qrafiki tərtib edilib və nazirlik tərəfindən dərc olunub. Hazırda payızlıq əkinlərin su tələbatının formalaşdırılması üzrə işlər davam etdirilir.

# Əbülfəs Qarayevin tarixi binalarla düşmənçiliyi...

## Sabiq Mədəniyyət naziri onları hansı maraqlara görə "yararsız" elan edirdi?



***Yola salmaq üzrə olduğumuz həftə - yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Kərimovu Mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Qəbul zamanı ölkə başçısı bir sıra aktual mövzulara toxunub, önəmli mesajlar verib.***

Dövlət rəhbəri çıxışında Mədəniyyət Nazirliyində Əbülfəs Qarayevin zamanındakı xoşagəlməz hallara toxunub. Prezident bildirib ki, nazirlik yararsız vəziyyətdə olan mədəniyyət ocaqlarının qısa müddət ərzində təftişini aparmalıdır, siyahıya almalıdır, yeni siyahılar tərtib etməlidir: "Çünki vaxtı ilə dövlət tərəfindən qorunan abidələrin siyahıları dəqiq tərtib edilməmişdir. Orada qərəzli yanaşma var idi. Bəzi binalar o siyahıdan çıxarılırdı ki, sonra onlar satışa çıxarılsın. Belə hallar da var. Kifayət qədər çox pozuntular var idi. Yəni, bu siyahılarla bağlı aparılan manipulyasiyalar, əlbəttə ki, bizim mədəni irsimizə çox böyük zərbə vurdu. Digər xoşagəlməz halların, - əfsuslar olsun ki, Mədəniyyət Nazirliyində kifayət qədər xoşagəlməz hallar mövcud idi, - hamısı üzə çıxdı. Bu pozuntuları buraxan insanlar məsuliyyətə cəlb olundular, o cümlədən cinayət məsuliyyətinə. Ona görə siz bütün bu pozuntularla bağlı ciddi mübarizə aparmalısınız. Mən sizə bu barədə göstərişlərimi artıq nazir müavini vəzifəsinə təyin edəndə vermişdim..."

Qeyd edək ki, dövlət başçısının bu sözləri nazir postu tutduğu uzun illər ərzində Əbülfəs Qarayevin tarixi binalara, abidələrə qarşı dırnaqarası münasibət bəslədiyi, onların dağıdılması, məhvi ilə müşayiət olunan prosesə hansısa şəxsi, merkantil maraqlar səbəbilə göz yumduğu barədə həm mətbuatda yazılanları, həm də ictimaiyyət nümayəndələri tərəfindən səsləndirilən fikirləri təsdiqləyir. Sabiq Mədəniyyət naziri bu yazılanlara, bu fikirlərə daim laqeyd yanaşıb, onları oxumaq, dinləmək istəməyib. Çünki sərf eləmirdi.

Hətta iş o yerə çatmışdı ki, Qarayev bir çox tarixi binaların, abidələrin sökülməsinə, dağıdılmasına haqq qazandırmaqdan da çəkinmirdi. Məsələn, bir dəfə demişdi ki, "Sovetski"də ölkə deyil, yerli əhəmiyyətli olan, artıq istifadə müddəti bitən və işlədilməsi mümkün olmayan binaların sökülməsinə razılıq verib. Lakin söküntü prosesi tam əksini göstərdi. Üstəlik, Qarayev heç bir izahat vermədi ki, nə vaxtdan tarixi bina, abidə üçün "istifadə müddəti" təyin edilir, nə vaxtdan onların dəyəri istifadəyə yararlığı ilə ölçülür? Bu absurd məntiqlə Qarayevin uzun illər Mədəniyyət naziri postunda əyləşməsi biabırçılıq deyildisə, bəs nə idi?

Yeri gəlmişkən, maraqlı bir xatırlatma edək. Əbülfəs müəllim vəzifədə olarkən Abşeronun Fatmayı kəndində 19-cu əsrə aid türbə və hamam qorunmalı olduğu halda, uçulub dağılmaq təhlükəsi ilə üzləşdiyi barədə məlumat yayılmışdı. Bildirilirdi ki, Azərbaycanın keçmişi ilə səsləşən, ən azı 200 yaşı olan həmin abidələrin mühafizəsi və bərpası ilə bağlı heç bir iş görülmür. Hansı ki, bu, birbaşa Mədəniyyət Nazirliyinin səlahiyyətində olan məsələdir. Üstəlik, Fatmayı Əbülfəs Qarayevin dədə-baba yurdu sayılır. Onun babası, dövrünün məşhur həkim-pediatrı Əbülfəz Qarayev məhz Fatmayı kəndində dünyaya göz açıb. İctimaiyyət sual edirdi ki, Qarayev ən azı buna görə Fatmayıdakı tarixi tikililərin qorunması və bərpa olunması istiqamətində addım ata bilməzdimi?

Bu yetərincə sadələvh yanaşma idi. Çünki sabiq Mədəniyyət nazirinin tarixi və mənəvi dəyəri olan abidələrə, binalara heç vaxt həssaslığını görməmişik, həm də o abidələrin, binaların harada yerləşməsindən asılı olmayaraq!

Əbülfəs müəllim, ölkə başçısının da vurğuladığı kimi, dövlət tərəfindən qorunan abidələrin siyahılarının qeyri-dəqiq tərtib edilməsinə, qərəzli yanaşma sərgilənməsinə, bəzi binaların satılmaq məqsədilə siyahıdan çıxarılmasına, bir sözlə, hansısa maraqlar naminə çoxsaylı pozuntulara yol verilməsinə göz yummağı yaxşı bacarırdı.

Məhz bu kimi halların nəticəsidir ki, adında "mədəniyyət" sözü olan bir nazirlikdə rüşvətin, korrupsiyanın at oynatdığı üzə çıxdı.

Və yenə də məhz bu kimi halların nəticəsidir ki, Qarayev Azərbaycan tarixinin ən uğursuz "mədəniyyət naziri" olaraq xatırlanacaq...

**_Sənan Mirzə_**

# Elman Rüstəmovun sığorta şirkətləri ilə bağlı naməlum konsepsiyası

## Bir ildən çoxdur Mərkəzi Bankın sığorta bazarını çətinliklərdən necə xilas etmək istədiyi məlum deyil



***Yola saldığımız həftə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarı ilə ”Amrah Sığorta” və ”AXA MBask” Sığorta Şirkəti ASC-lərin lisenziyaları ləğv olundu.***

AMB-dən verilən məlumatda qeyd olunurdu ki, bununla da Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin sayı 22-dən 20-ə düşüb.

Qeyd edək ki, son illər Azərbaycanda sığorta şirkətlərinin bağlanma tendensiyası gedir. Ötən il də bir neçə şirkət fəaliyyətini dayandırıb. Məsələn, 2020-ci ilin mayında Mərkəzi Bankın qərarı ilə ”Standard Insurance” ASC sığorta şirkətinin kapitalını tam itirdiyinə, cari fəaliyyətini etibarlı qaydada həyata keçirmədiyinə və istehlakçılarının hüquqlarının pozulmasına yol verdiyinə görə lisenziyası ləğv edilmiş, şirkətə müvəqqəti inzibatçı təyin olunmuşdu. Habelə şirkət barəsində iflas proseduruna başlanılmasına dair ərizə ilə məhkəməyə müraciət ünvanlanmışdı. Eyni zamanda həmin sığorta şirkətinin idarəetmə orqanlarının səlahiyyətləri dayandırılmış və həmin səlahiyyətlər müvəqqəti inzibatçıya verilmişdi.

Bəs son illərdə sığorta şirkətlərinin bir-birinin ardınca bağlanmasının səbəbi nədir?

”Unikal”ın araşdırmasına görə, hələ ötən ilin payızında Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Azər Əliyev qurumun keçirdiyi mətbuat konfransında bildirmişdi ki, ölkədəki sığorta şirkətlərinin bağlanması davam edəcək.

Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov isə bir neçə ay əvvəl yerli mediaya açıqlamasında ayrı-ayrı sığorta şirkətlərinin bağlanmasının fərqli səbəbləri olduğunu söyləmişdi. Sitat: “Bəzi sığorta şirkətlərinin problemi ona görə yaranıb ki, onlar hansısa banka məxsus olublar. Həmin bankın problemli kreditlərinin olduğuna görə ona bağlı olan sığorta şirkətinin də problemi yaranıb. Və ya bank bağlanıb və sığorta şirkətinin də pulu həmin bankda olub”.

Bununla yanaşı ekspert bildirmişdi ki, əksər hallarda problem qeyri-peşəkar idarəçiliklə bağlı yaranır: “Həmçinin qeyri- peşəkar sığorta nəzarətinin həyata keçirilməsi də problem yaradır. Şirkətlər vaxtında öz risklərini qiymətləndirmirlər və bu cür fəaliyyət nəticəsində ağır vəziyyətə düşürlər. Eyni zamanda, sığorta şirkətlərinin rəhbərlərinin qeyri-dürüstlüyü də buna səbəbdir. Faktiki olaraq, sığorta olunanlardan cəlb olunan pulların talanması baş verir. Pullar talanır, guya hara isə xərcləyir, amma bir də ayılırlar ki, pul çatmır”.

Araşdırmalarımız nəticəsində o da aydın olub ki, 2019-cu ilin sonundan sığorta şirkətlərinə nəzarət səlahiyyəti Mərkəzi Banka keçib. Bundan sonra bildirilib ki, AMB sığorta bazarı üçün hansısa konsepsiya hazırlayır. Lakin Elman Rüstəmovun rəhbəri olduğu baş bankın bir ildən çoxdur bu sektoru necə xilas etmək istədiyi aydın deyil. Görünən odur ki, Mərkəzi Bank hələlik çıxış yolunu sığorta şirkətlərini bir-birinin ardınca ləğv etməkdə görür. Hansı ki, biz oxşar prosesi bankların sağlamlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər zamanı da görmüşdük. O vaxt da Elman müəllimin rəhbərlik etdiyi qurum bankların bağlanmasına üstünlük verirdi. Nəticədə ortaya xeyli sayda işsizlər və əmanətləri batan, yaxud onları geri qaytarmaq üçün illərlə sürünən müştərilər çıxdı.

Düzdür, AMB hələ ”Standard Insurance” ASC-nin ləğvi zamanı bəyan etmişdi ki, Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edildikdən və qanunvericiliklə müəyyən edilmiş aidiyyəti səlahiyyətlər təhvil alındıqdan sonra bu qurum sığorta sektorunun maliyyə vəziyyətinin qiymətləndirilməsinə başlayıb. Eyni zamanda vurğulanmışdı ki, Mərkəzi Bank sığorta sektorunun maliyyə dayanıqlığını və sığorta şirkətlərinin bazar davranışlarının qanunvericiliyə uyğunluğunu sistemli olaraq nəzarət altında saxlayır. Görülən bütün tədbirlər sığorta sektorunun inkişafına, sığorta xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsinə yönəlib.

Lakin haqqında danışılan nəzarətin və görülən tədbirlərin konkret nədən ibarət olduğu barədə ictimaiyyətdə aydın təsəvvür yoxdur. Eyni zamanda bu nəzarət və görülən tədbirlərin effektliliyi də mübahisə mövzusu ola bilər. Əks halda yeni ilin ilk günlərində daha iki sığorta şirkətinin ləğvinə qərar verilməzdi...

***Toğrul Əliyev***



## Füzulidəki “Şükürbəyli” yarımstansiyası yenidən qurulacaq

***““Azərenerji” ASC-nin tədbirlər planına əsasən may ayınadək Füzuli rayonundakı “Şükürbəyli” yarımstansiyası yenidən qurulacaq”.***

“Unikal” xəbər verir ki, bunu energetika naziri Pərviz Şahbazov Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat şəklindəki müşavirədə bildirib. O qeyd edib ki, bu məqsədlə yüksək gərginlikli əlavə xətt çəkilir, həmçinin yarımstansiyanın gücü qaldırılır:

“Cənab Prezident, Şuşa şəhərinə, Siz qeyd etdiyiniz kimi, 75 kilometr məsafədə 110 kilovoltluq 2 dövrəli elektrik verilişi xəttinin tikintisi həyata keçirilir. Növbəti mərhələdə isə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında, ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovoltluq şəbəkə yaradılacaq. Bu ərazilərin təbii qazla təminatı ilə bağlı hazırlanmış proqramda SOCAR tərəfindən müxtəlif diametrlərdə 416 kilometr magistral qaz xəttinin çəkilməsi də təklif olunur”.

Nazir həmçinin vurğulayıb ki, Prezidentin tapşırığına əsasən ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Qarabağ regionunda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək yaşıl zona, yaxud yaşıl məkan konsepsiyasının hazırlanmasına başlanılıb:

“Bu istiqamətdə Beynəlxalq Bərpaolunan Enerji Agentliyi ilə müzakirələr aparılmaqdadır. İlkin qiymətləndirmələrə görə, bu ərazilərdə 4000 meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialı vardır. Kiçik su elektrik stansiyalarının inventarlaşdırılması işinə başlanılıb. İlkin məlumatlara görə, bu stansiyaların sayı 30-a yaxındır, lakin əksəriyyəti yararsız hala salınıb. Üç stansiyada artıq bərpa işlərinə başlanılıb. Yaşıl enerji layihələrinə xarici investorların cəlb edilməsi üzərində iş aparılır. Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, Cəbrayıl rayonu ərazisindəki “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarının tikintisinin başa çatdırılması bu ərazilərin enerji təminatına öz töhfəsini verəcək”.

## Qarabağda kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə başlanılıb

***“İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı verdiyiniz tapşırıqlara uyğun olaraq, işlərə artıq başlanılıb.***

Nazirlik “Azərkosmos” ASC ilə birlikdə azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqların da çoxillik əkmələrin peyk təsvirləri əsasında xəritələşməsini aparılıb”.

“Unikal” xəbər verir ki, bunu Kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat şəklindəki müşavirədə bildirib. O qeyd edib ki, hazırda həmin torpaqlarda əkinlərin aparılması, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq tədbirlərinin göstərilməsi məqsədilə ilkin işlərə başlanılıb:

“Bu il sizin aqrar sahədə həyata keçirdiyiniz islahatlardan bəhrələnərək nazirlik əsas diqqətini və fəaliyyətini yerlərdə fermerlərə məsləhət və informasiya xidmətinin gücləndirilməsinə, xidmətlərin daha əlçatan edilməsinə, innovativ üsulların tətbiqinə və əlbəttə, ən ümdə vəzifələrdən biri kimi işğaldan azad olunan ərazilərdə əkinlərin bərpasına yönəldəcək. Sizi əmin edirik ki, bu sahədə qarşıya qoyduğunuz vəzifələri layiqincə yerinə yetirmək üçün bütün səylərimizi göstərəcəyik”.

# İcbari tibbi sığorta haqlarının toplanılmasına başlanıldı

***1 yanvar 2021-ci il tarixindən etibarən “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət və neft sektorunda, qeyri-dövlət və qeyri-neft sektorunda çalışanlardan, mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən icbari tibbi sığorta haqlarının toplanmasına başlanılıb.***

İqtisadiyyat Nazirliyindən Unikal.org-a verilən məlumata görə, Dövlət Vergi Xidmətinin idarə rəisi Nigar Vahabzadə bildirib ki, icbari tibbi sığorta əhaliyə etibarlı, keyfiyyətli tibbi xidmətlərin, ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə zəmanət verməklə səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək məqsədi daşıyır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 31 yanvar 2019-cu il tarixli Fərmanı ilə icbari tibbi sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət vergi orqanlarına həvalə edilib.

““Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, 2021-ci il yanvarın 1-dən muzdla işləyənlər üzrə bütün işəgötürənlər tərəfindən, o cümlədən dövlət büdcəsindən maliyyələşən təşkilatlar, qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürənlər, habelə onların işçilərin aylıq hesablanmış əməyin ödənişi fondundan icbari tibbi sığorta haqqı tutulması müəyyən olunub”, - deyə N. Vahabzadə qeyd edib.

## "Təhsil kreditlərinin verilməsi üzrə xüsusi mexanizm hazırlanır" - Nazir



*"Azərbaycan Ordusunun təchizatı, Azərbaycan sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsinin təmin olunması üçün dövlət büdcəsində müvafiq vəsaitlər nəzərdə tutulub".*

Unikal.org xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə bildirib.

Onun sözlərinə görə, bu məqsədlə ümumilikdə 4,6 milyard manat maliyyə təminatı yaradılıb: "Bununla əlaqədar nəzərə alınmamış digər tədbirlərin həyata keçirilməsi üçün müəyyən ehtiyat vəsaitlər də nəzərdə tutulub".

"Bu vəsaitlərin ayrılması ilə yanaşı, dövlət büdcəsi ilə ölkəmizin ənənəvi dövlət vəzifələrinin, nəzərdə tutulmuş bütün sosial proqramların həyata keçirilməsi və bir sıra təşəbbüslərin icra olunması da nəzərdə tutulub. O cümlədən təhsil kreditlərinin verilməsi üzrə xüsusi bir mexanizmin hazırlanması üçün müəyyən maliyyə təminatı nəzərdə tutulur ki, müvafiq qərar qəbul edildikdən sonra bu mexanizm işə salına bilər", - deyə nazir qeyd edib.

## 2020-ci ildə ərzaq qiymətləri daha da yüksəlib

***2020-ci ildə əsas ərzaq məhsulları və qida xammalının dünya qiymətləri son üç ilin ən yüksək həddinə çatıb.***

Unikal.org xəbər verir ki, bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bildirib.

Belə ki, əsas ərzaq məhsullarının beynəlxalq bazardakı qiymətlərinin aybaay dəyişkənliyini əks etdirən indeksin dekabr ayında 2,2 faiz artaraq 107,5 bəndə çatdığı, bununla da 6 ilə yaxın müddət ərzindəki ən yüksək həddə çatdığı bildirilir. Bütövlükdə FAO indeksinin 2020-ci ildəki orta indeksi 2019-cu ilə nisbətən 3,1 faiz artsa da, 2011-ci ildə qeydə alınmış tarixi rekorda nisbətən 25 faiz azdır.

Dekabr ayında bitki yağları qiymətinin indeksi 4,7 faiz, taxıl qiymətləri indeksi 1,1 faiz, ağartı qiymətlərinin indeksi 3,2 faiz artıb. O cümlədən buğda, qarğıdalı, çəltik kimi taxıl məhsulları qiymətlərinin indeksinin artması daha çox başlıca istehsalçı ölkələrdəki havalarla, həmçinin məhsuldarlıqla bağlı proqnozlarla şərtlənir.

FAO ekspertlərinin qənaətincə, ərzağın bahalaşması pandemiyanın fəsadlarından daha çox bütövlükdə tələbtəklifin dəyişkənliyindən asılıdır.

## Ölkədə taxıl əkini balansı 10 faiz artacaq

***Kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası 2020-ci ildə də davam edib və bu sahə üzrə 2 faiz artım, bitkiçilikdə 1 faiz və heyvandarlıq üzrə 2,9 faiz artım olub. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurulub və kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilib.***

"Unikal" xəbər verir ki, bu sözləri yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Nazir bildirib ki, 2020-ci ildə 1 milyon hektardan artıq sahədə taxıl əkini həyata keçirilib və işğaldan azad edilən ərazilər hesabına növbəti illərdə bu sahənin əkin balansının təqribən 10 faiz artırılması nəzərdə tutulub. Ancaq ötən il havanın quraqlıq keçməsi taxılçılığa təsirsiz ötməyib, 100 min hektardan çox sahədə çıxış alınmayıb. Buna baxmayaraq, taxıl üzrə məhsuldarlıq ölkə üzrə 31,2 sentner təşkil edib. Suvarma problemi yaşanmayan əksər regionlarda məhsuldarlıq xeyli yüksək olub və bir çox rayonlarda məhsuldarlıq 40 sentneri ötüb. Bir sıra özəl və pilot təsərrüfatlarda taxıl üzrə məhsuldarlıq hətta 60 sentnerə qədər çatıb.

# Bəzi icra başçıları yenidən öz ampluasında

## Mərdan Camalzadə və digərləri ənənəvi "iş prinsiplərindən" əl çəkməlidirlər

***Azərbaycanda vətəndaşların ən çox narazı olduğu dövlət qurumlarının başında şəhər və rayonların İcra Hakimiyyəti başçılarının gəldiyini söyləmək artıqdır. Elə 2019-cu ilin sonlarından başlayaraq bir neçə rayon rəhbərinin hüquq-mühafizə orqanları tərəfindən keçirilən xüsusi əməliyyat nəticəsində həbsi də insanlarımızın bu vəzifəli şəxslərdən boş yerə giley-güzar etmədiyini təsdiqləyir. Təəssüf doğuran məqam isə odur ki, nə bu həbslər, nə də şanlı qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsində ortaya qoyulan xalq-dövlət birliyi bir sıra icra başçıları öz fəaliyyətlərində ciddi dönüş yaratmağa məcbur edə bilmir.***



Yuxarıda yazdıqlarımızın sübutu kimi son günlərdə bəzi rayonlardan gələn şikayətləri göstərmək olar. Həmin şikayətlərin ictimai rəydə xüsusi qəzəb və səs-küylə qarşılanmasının səbəbi isə hələ də bu vəzifəli şəxslərin canlarını vətən torpaqlarının müdafiəsi, düşmən işğalından azad edilməsi uğrunda qurban verən şəhidlərimizin ruhuna, onların ailə üzvlərinə hörmətsizliyidir.

Belə şikayətlərdən birində Qusar rayonunda dəfn edilmiş şəhidlərin məzarlarının düzəldilməməsi, qəbirüstü daşların hazırlanmaması ilə bağlı bəhs edilir, bu barədə yerli İcra Hakimiyyətinin ünvanına kəskin fikirlər səsləndirilir. Bəzi saytlarda Qusar rayonunun Həsənqala kəndindən olan şəhid İsmayılov Orxan Qədim oğlunun məzarının fotoşəkli yerləşdirilib və Qusar rayonunda şəhid məzarlarına, eləcə də şəhid ailələrinə laqeyd və biganə münasibət bəsləndiyi qeyd edilib. Düzdür, yerli İcra Hakimiyyəti həmin şikayətlərə reaksiya verib, şəhidlərin məzar daşlarının hazırlanması məqsədilə dekabr ayının əvvəllərində işlərə başlanıldığını, bütün şəhidlərin məzarlarının mərmər örtükləri və baş daşlarının sifariş verildiyini deyib. Bəyan edib ki, artıq bütün məzarların betonlanma işləri başa çatdırılıb, 5 məzar mərmərlə üzlənərək baş daşları quraşdırılıb. 2021-ci ilin yanvar ayının 20-dək bütün şəhidlərin məzarlarının mərmər örtüklərinin və baş daşlarının quraşdırılması başa çatdırılacaq.

Lakin Vətən müharibəsinin bitməsindən iki aya yaxın vaxt keçsə də rayonun 32 şəhidinin qəbirüstü daşlarının qoyulub başa çatdırılmaması həqiqətən təəccüb doğurur, ona görə də narazılıqlar haqlıdır. Bu səbəbdən də yerli İcra Hakimiyyətinin açıqlamasındakı "Həssas mövzu olduğundan belə mövzularla bağlı informasiyalar işıqlandırılmazdan əvvəl məsələlərin ətraflı şəkildə araşdırılması daha məqsədəuyğun olardı" iradını anlamaq mümkün deyil. Həssaslığı göstərməli olanlar bunda gecikirlərsə sadə vətəndaşlar, media, ictimaiyyət nümayəndələri nə üçün susmalıdırlar?

Başqa bir şikayət faktında isə Zərdab rayonu Alıcanlı kənd sakini, şəhid atası, birinci qrup əlil Ataxan Əsəd oğlu Əsədov Zərdab Rayon İcra Hakimiyyətinin Başçısı Mərdan Camalzadədən giley-güzarını ifadə edir. Məlum olur ki, şikayətçinin oğlu Sərdar Əhədov Birinci Qarabağ Müharibəsində Ermənistan işğalçılarına qarşı döyüşərək qəhrəmancasına şəhid olub. O, oğlunun Vətənin müdafiəsi uğrunda döyüşməsi, şəhidlik zirvəsinə ucalması ilə fəxr etdiyini, qürur duyduğunu dilə gətirib.

A.Əsədov daha sonra qeyd edib ki, torpaqlarımızın azadlığı uğrunda oğlu şəhid olan ataya qanunu sənədlə verilmiş 10 hektar torpaq sahəsini Zərdab Rayon İcra Hakimiyyətinin Başçısı Mərdan Camalzadənin sifarişi ilə əlindən alıblar. Həmin torpaq sahəsində əkilmiş taxıl və və yoncanı mal-qaraya otararaq tələf ediblər. Sitat: "Mal-qara sahibləri mənə dedilər ki, buna icazəni icra başçısı Mərdan Camalzadə və onun müavini Pərvin Mahmudova verib. Hansı ki, həmin torpaq sahəsini qanunu qaydada bələdiyyədən müqavilə ilə 25 illik icarəyə götürmüşəm. Əlimdə reyestr çıxarışı və icarə müqaviləsi var. Mən bu barədə iki dəfə Mərdan Camalzadənin qəbulunda oldum. Sonuncu dəfə o mənim üstümə şığıyıb "məni bezdirmisən mən torpaq işinə baxmıram" deyərək məni vurmaq istədi". Orada olan insanlar müdaxilə etməsəydi, icra başçısı məni vuracaqdı".

Şəhid atasının söylədikləri həqiqətən məyusluq doğurur. Bir tərəfdən növbəti dəfə belə aydın olur ki, ölkə rəhbərliyinin dəfələrlə etdiyi xəbərdarlıqlara, hüquq-mühafizə orqanlarının apardığı həbslərə baxmayaraq Azərbaycanda hələ də bəzi icra başçıları ənənəvi ampulalarındadır: yəni vətəndaşla münasibəti düzgün, qanunlar çərçivəsində qurmaqda çətinlik çəkirlər. Digər tərəfdən isə dövlətin və cəmiyyətin xüsusi hörmətlə, qayğı ilə, diqqətlə yanaşdığı şəhid ailələrinin problemlərinə başdansovdu münasibət sərgiləyir, hətta onlara qarşı aqressiv davranırlar. Bu qəbuledilməzdir. Belə vəzifə sahibləri unutmamalıdırlar ki, həmin davranışlar ictimaiyyətdə daha çox qıcıq yaradır, qəzəb doğurur, ölkədəki milli birliyi, həmrəyliyi xüsusilə zədələyir.

Cəmiyyət artıq məmur özbaşınalıqları barədə eşitmək, görmək və oxumaq istəmir! Ən əsası isə cəmiyyətin şəhid ailələrinə, qazilərə qarşı ən kiçik haqsızlığa belə dözmək limiti qalmayıb. Başda icra başçıları olmaqla hər bir vəzifə sahibi artıq bu sadə həqiqətləri anlamalı, işlərini, fəaliyyətlərini həmin sadə həqiqətlər üzərində qurmağı öyrənməlidirlər. Əks halda hansı aqibətlə üzləşəcəkləri Nizaməddin Quliyevlərin, İsmayıl Vəliyevlərin, Qoca Səmədovların, Vilyam Hacıyevlərin taleyindən yaxşı məlumdur...

***Orxan Həsənli***

# Vətəni yaşadanlar: “Çətin günlərdən keçdik” - İrəli”nin sədri

***Azərbaycanlıyam... Bu söz necə də qürurlu səslənir. Bu hissi yaşayan hər bir Azərbaycan vətəndaşı xoşbəxtdir. Xoşbəxtdir ki, doğma yurdu, müstəqil dövləti, canını fəda edən oğulları var. Bizə oğul deyən Vətənimiz, uğrunda canımızı sevə-sevə qurban verəcəyimiz müqəddəs torpaqlarımız var. Daim fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı xalqı, yağılardan qoruyan güclü ordusu var.***

Bu torpaqlar uğrunda canını fəda edən oğullarım, ölümü gözə alaraq son günə qədər döyüşən qardaşlarımız var. Onları heç zaman unutmamalı, unutdurmamalıyıq. Modern.az saytı “Vətəni yaşadanlar” rubrikasına davam edir. Haqqında danışacağımız qəhrəman “İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlıdır. Onunla müsahibəni təqdim edirik.

***-Şahin bəy, bizə həyat yolunuzdan qısa danışa bilərsiniz?***



- Şahin Rəhmanlı, 1991-ci ilin 26 sentyabr tarixində Biləsuvar rayonunda, müəllim ailəsində doğulmuşam. Orta məktəb və ali təhsil müddətində hər zaman dərslərimlə yanaşı, ictimai aktivliyimə də diqqət yetirmişəm. 2014-2015-ci illərdə həqiqi hərbi xidmətimi Azərbaycan Respublikası Sülhməramlı Qüvvələrinin tərkibində Əfqanıstan İslam Respublikasında NATO-nun Qətiyyətli Dəstək hərəkatı çərçivəsində keçmişəm. 2016-cı ildən “İrəli” İctimai Birliyində çalışıram və hazırda birliyin idarə heyətinin sədriyəm.

***- İllər sonra Qarabağımızı geri aldığımız Vətən müharibəsinə könüllü olaraq getmisiniz?***

- Bəli. Uşaqlıqdan vətənpərvər ailədə böyümüşəm. Məktəbimizin sinif otaqlarının əksəriyyətində məcburi köçkünlərin “yaşadığını” görəndə, həmişə soruşurduq, insan məktəbdə qalar? Niyə insanlarımız bu çətinlikdə yaşayırlar? - Onda verilən cavablar bizi Qarabağa daha da yaxınlaşdırırdı. Verdiyimiz şəhidləri xatırlayanda, bizə qarşı törədilmiş qırğınları xatırlayanda, Xocalını xatırlayanda, əgər “irəli!” əmri verilərsə, “mən də o sıralarda olmaq istəyirəm” fikri keçirdi qəlbimizdən. Elə buna görədir ki, Vətən müharibəsinin başladığı ilk günlərdən, heç tərəddüd etmədən mən də döyüşlərə qatıldım.

***- Qarabağın bizə görmək qismət olmayan hansı ərazilərində döyüşmüsünüz?***

- Füzuli, Cəbrayıl, Xocavənd ərazilərində olduq, həmçinin, Qubadlı və Şuşa istiqamətində gedən döyüşlərdə də aktiv şəkildə iştirak etdik. Bir az əvvəldə qeyd etdiyim kimi, artileriyada olduğumuz üçün məsafə buna imkan verirdi. Həmin əraziləri gəzdikcə, insanın ürəyi parçalanır. Kəndlər, qəsəbələr, hətta şəhərlər də xaraba qoyulub, dağıdılıb. Füzuli rayonunun mərkəzi hissəsinə baxdıqca, adama elə gəlir ki, min illərdir insan üzünə həsrət qalıb torpaqlar. Bu bir daha onu sübut edir ki, düşmən özü də qəbul edib ki, bu torpaqlar ona aid deyil.

***- Çətin olduğunu anlayıram, amma istərdim ki, azca da olsa, orada keçən bir gününüzü bizə təsvir edəsiniz. Sadə vətəndaş əsgərin, zabitin müharibə zamanı nələr ilə üzləşdiyini təsəvvürünə gətirsin.***

- Dövlət başçımızın dediyi kimi, bu döyüşlər bizim üçün Milli Qürur məsələsi idi. Ona görə də həmin anlarda heç bir çətinlik görmürdük. İndi bütün yaşadıqlarımızı yuxu kimi xatırlayıram. Həqiqətən çətin günlərdən keçdik, bəzən yuxusuz, bəzən yorğun, bəzən yaralanmış yoldaşlarına görə narahatlıq hissi... Ancaq çox şükürlər olsun ki, həm ordumuzun gücü, həm cənab Ali Baş Komandanın güclü iradəsi, həm də xalqımızın hər bir nümayəndəsinin dəstəyi və qayğısı ilə həmin çətinliklərin öhdəsindən mərdliklə gəldik. Cənab Prezident hər dəfə işğaldan azad etdiyimiz yerləri açıqlayanda, düşməni siyasi müstəvidə əzəndə ifadə etdiyi o məşhur kəlamlar hər bir əsgərin üzündə sevinc hissi yaradırdı. O sevinc ki, bütün çətinlikləri gözümüzdə heçə endirir və bizi illərdir həsrətində olduğumuz, şəhidlərimizin qanı ilə yoğrulmuş torpaqlara daha da yeyin irəliləməyə çağırırdı.

***- Hər an ölümlə üzbəüz idiz. Həmin anlarda ilk nə düşünürdünüz - ailə, uşaq, ev....***

- Yalnız Qələbəni! Və qalib əsgər kimi evə qayıdanda ailəmizin, dostlarımızın və bütün soydaşlarımızın üzündəki o qürur ifadəsini görməyi. Çünki çox yaxşı bilirdik ki, ən böyük rahatlıq torpaqlarımız azad olunandan sonra olacaq.

***- Şükürlər olsun, müharibədən sağ-salamat döndünüz. Geri qayıdan zaman hansısa cəbhə yoldaşınızın ailəsinə çatdırdığınız bir söz oldumu?***

- Əlbəttə, ilk növbədə salamlarını və yaxşı olduqlarını çatdırdım. Və ən önəmlisi Qələbə xəbərini bir də onların dilindən səsləndirdim.

***- 10 noyabr Qələbə xəbərini cəbhədə aldınız. Bu şad xəbəri cəbhə yoldaşlarınızla necə qeyd etdiniz?***

- Həmin gecə yatmamışdıq. Qızğın döyüşlər gedirdi. Xəbəri alanda hər kəsin sevinci dağ boyda idi. Düşmənin bir qorxaq kimi qaçmasını bilmək, növbəti torpaqların bir güllə belə atılmadan azad olunacağı xəbərini almaq möhtəşəm idi. Demək olar ki, həmin gecə səhərə kimi yatmadıq və döyüşlərin əvvəlindən keçdiyimiz günləri xatırladıq.

***- Çiyin-çiyinə döyüşdüyünüz silahdaşlarınızdan şəhid olanların ailələrinə nə demək istəyirsiniz?***

- Allah bütün şəhidlərimizi rəhmət eləsin. Onları əsl vətənpərvər kimi yetişdirən valideynlərin əllərindən öpürəm. Qoy onlar bilsin ki, bütün xalqımız şəhidlərimizə borcludur. Onların sayəsində bu gün biz azadıq, güclüyük. Qoy onlar bilsinlər ki, döyüş meydanında olan hər birimiz bu müqəddəs məqama yüksəlməyə can atırdıq. Qoy onlar bilsinlər ki, övladları ölümləri ilə bir ölümsüzlük qazandılar! Xalqın, millətin qəlbində əbədi yaşayacaqlar!

***- Bəs müharibə dövründə bir yumruq altında birləşdiyiniz döyüş yoldaşlarınıza və bu gün Vətənin keşiyində duran əsgərlərimizə nə deyərdiniz?***

- Möhkəm olun! Siz müzəffər bir ordunun əsgərisiniz! Başınızı dik tutun! Siz şəhidlərimizin qisasını aldınız! Siz Xocalının qisasını aldınız! Siz bir daha sübut etdiniz ki, yumruq kimi birləşib və o yumruğu düşmənin başına endirə bilən bir xalqın nümayəndəsisiniz.

İnşallah, sağ-salamat xidmətinizi başa vurun qayıdın, sonra bu möhtəşəm qələbəmiz haqqında uzun illər danşacağıq!

***- Son olaraq, əgər müharibəni bir cümlə ilə ifadə edin deyilsə, nə deyərdiniz?***

- Fikrimi şairin sözləri ilə ifadə etmək istəyirəm:

Millətin qəlbində yer etməz kədər,
Əsrlər dəyişər, sənələr keçər.
Nə qədər qaranlıq olsa gecələr,
Mümkünmü sonunda sabah
olmasın?!
Şükürlər olsun ki, biz həmin
sabahdayıq!

***Fidan İlqarqızı***



# Sentyabrın 27-dən bu günə qədər 54 erməni əsirlikdən azad edilib - RƏSMİ

***Bu il sentyabrın 27-dən bu günə qədər keçirilmiş bütün humanitar proseslərdə bütövlükdə 54 erməni azad edilib.***

Unikal.org xəbər verir ki, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib. O bildirib ki, onlardan 6 nəfəri 2020-ci il sentyabrın 27-dən əvvəl Azərbaycan ərazisində saxlanılmış şəxslərdir: ”Bundan başqa, Ermənistan silahlı qüvvələrinin geri çəkilərkən döyüş bölgəsində köməksiz vəziyyətdə qoyub getdikləri ağır xəstə olan 2 nəfər yaşlı erməni mülki şəxs Azərbaycan tərəfindən yerləşdirildikləri xəstəxanada aldıqları müalicəyə və həkimlərin hərtərəfli səylərinə baxmayaraq, vəfat etdikləri üçün meyitləri beynəlxalq təşkilatların vasitəçiliyi ilə qarşı tərəfə təhvil verilib”.

E. Səmədov deyib ki, Azərbaycan tərəfi 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına hələ müstəqilliyinin ilk illərində, 1993-cü ildə qoşulub, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərə və humanizm prinsiplərinə daim sadiq olub: ”Ermənistan Respublikasının hərbi təxribat əməlləri ilə bağlı Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başladığı 2020-ci il sentyabrın 27-dən sonra Azərbaycan hərbçilərinə təslim olmuş Ermənistan hərbçiləri və döyüş bölgəsindən təxliyyə olunmuş mülki şəxslər Cenevrə Konvensiyalarının tələblərinə əsasən, dərhal interne edilib, saxlanma şəraiti, onlarla davranış, qida, su təminatı və yaralıların müalicə hüquqları tam təmin olunub.

Dövlət Komissiyası əsir düşmüş Ermənistan hərbçiləri və saxlanılan şəxslər barədə məlumatları müntəzəm qaydada BQXK-ya təqdim edib, qurum əməkdaşlarının onlara baş çəkmələrinə hərtərəfli şərait yaradıb. Həmçinin əsirlərin və saxlanılan şəxslərin öz yaxınlarına məktub yazmasına, bəzilərinin video ismarıclar göndərməsinə, o cümlədən telefon əlaqəsi saxlamalarına imkanlar yaradılıb”.

# Azərbaycan polisi Xocavənddə

***Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a bildirilib ki, Xocavənd rayonunun ərazisində Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xidməti fəaliyyətini davam etdirir.

Rayonun ərazisində xidməti postlar qurulub və təhlükəsizliyə tam olaraq nəzarət edilir.



## Fərhad Bədəlbəyli: "Hələ Şuşaya getməmişəm, açığını desəm..."

***Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli Teleqraf.com-a müsahibə verib. Müsahibəni təqdim edirik:***

***- Fərhad müəllim, Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan edildi. Bu haqda fikirlərinizi öyrənmək istərdik.***

- Şuşanın Azərbaycanının mədəniyyətinin paytaxtı elan edilməsi bizi çox sevindirdi. Bu prosesdə xüsusi ilə Qarabağ Dirçəliş Fondu çox mühüm rol oynayacaq. Mən Azərbaycan vətəndaşları arasında sorğu keçirmək istəyirəm ki, Şuşanı necə görmək istəyirsiniz? Hər bir tələbə, şagird, fəhlə, ziyalı, məmur öz fikrini bildirsin. Çünki bərpa olunan Şuşa millətin simvolu sayılacaq.

Bütün dünya bilir ki, müharibə Şuşa uğrunda gedirdi. Şuşa işğaldan azad edildikdən sonra müharibə bitdi, əsas məsələ Şuşa idi. Şuşa hamımız üçün çox əzizdir. Bu haqda hər bir azərbaycanlının mövqeyi və fikrini öyrənmək lazımdır. Şuşamızın inkişafı mənim üçün çox maraqlıdır. Şəhər necə olacaq? Mən Şuşanı qədim stildə görürəm.

Məsələn, sovet dövründə Şuşada "xruşovkalar" tikib, şəhəri korlaylblar. Zövqsüz binalar inşa edibər. Yeni Şuşa tamam başqa şəhər olmalıdır. Qədim ruhunu ona qaytarmalıyıq. Necə ki, İçərişəhəri bərpa elədik. İndi İçərişəhər xarici qonaqlar üçün çox maraqlıdır. Şuşa da turizmin paytaxtı olmalıdır. Orada musiqi festivalları keçirilməlidir.

Cənab prezident İlham Əliyev bildirdi ki, Vaqif poeziya günləri və "Xarı Bülbül" festivalı qeyd edilməlidir. "Xarı Bülbül" festivalını 1989-cu ildə dostum Polad Bülbüloğlu təşkil edib. O zaman mədəniyyət naziri idi. Çox çətin illər idi, ermənilər çirkin işlərlə məşğul olurdular. O illərdə bu festivalı keçirmək çox çətin idi, amma biz bunu bacardıq. Çox sayda qonaqlar gəlmişdi. Çörək tapılmırdı, güclə qonaqları yedizdirirdik.

Amma indi hər cür imkanımız var. Orada, inşallah, bu festivalı keçirməli, cənab prezidentin tapşırığını yerinə yetirməliyik.

***- Yaxın günlərdə bir çox məşhurlarımız Şuşaya getdilər, Gövhər ağa məscidində oldular. Siz nə zaman getməyi düşünürsünüz?***

- Sizə açığını deyim, Şuşaya getmək üçün Polad Bülbüloğlunu gözləyirəm. Çünki Şuşaya həmişə birlikdə gedirdik. Həyatımda ən xoşbəxt günlər idi. İstəyirəm ki, Şuşaya yenə Polad Bülbüloğlu ilə birlikdə gedim.

***- Şuşada bir çox mədəniyyət mərkəzləri dağıdılıb. Bu sahədə nələrə ehtiyac var?***

- Şuşada Polad Bülbüloğlu ilə Elitar Musiqi Məktəbi açmaq fikirləşirik. Muğam yarışları, müsabiqələri, festivalları keçirilməli, musiqi məktəbi yaradılmalıdır. Bizim qarabağlı xanəndələrimiz orada ustad dərsləri keçməlidirlər. Şuşada il ərzində qaynar fəaliyyət və mədəniyyət ab-havası hiss edilməlidir. Şuşaya tez-tez getməliyik. Cıdır düzündə müntəzəm tədbirlər təşkil olunmalıdır.

Vaxtilə Şuşada Cıdır düzündə maestro Niyazi ilə simfonik orkestrdə çıxış etmişik. Orada möhtəşəm bir həyat var idi, indi də onu bərpa etmək lazımdır.

***- Qarabağda televiziya açılmasına ehtiyac varmı?***

- Bəli, düşünürəm ki, Qarabağda televiziya açılması yaxşı olar. Təbliğat üçün bütün müasir texnika ilə təchiz olunmalıdır. Telestudiya qurulmalı, bütün dünyaya informasiya ötürməliyik. İndi ermənilərə həm informasiya, həm də hərbi sahədə qalib gəlirik. Hər bir azərbaycanlı bir döyüşçü olmalıdır...

# Şəhid ailələrinə dəstək layihəsi həyata keçirilib

## Sahil Babayev: "2000 şəhid ailəsi və müharibə iştirakçısının ailəsi özünüməşğulluq proqramlarına cəlb edilib"

***"2020-ci ildə bütün sosial ödənişlər vaxtında və tam şəkildə həyata keçirilib. Sizin müvafiq Sərəncamınızla 2020-ci ilin əvvəlində bütün pensiyalar ölkə üzrə 16,6 faiz indeksasiya olunaraq artırıldı. Ümumilikdə 2020-ci ildə pensiya ödənişləri 2019-cu illə müqayisədə 20 faiz artdı. Azərbaycan Respublikası Prezidentinin təqaüdləri 25 faiz, sosial müavinətlər 15 faiz artdı və ümumilikdə bu ödənişlər 2 milyondan çox vətəndaşımızı əhatə etdi. Aparılan islahatlar nəticəsində Azərbaycanda orta pensiyanın məbləği 13 faiz artaraq 300 manata, yaşa görə pensiyanın orta məbləği də 13 faiz artaraq 330 manata çatmışdır. Həm minimum, həm də orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə Azərbaycan MDB məkanında öz liderliyini qorumuşdur".***

Bu fikirləri Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev müşavirədəki çıxışı zamanı deyib. O bildirib ki, müavinətlər və pensiya əlavələri vahid təqaüd məbləğində birləşdirilmiş və məbləğlər artırılmaqla bu rəqəmlər təsdiqlənmişdir".

Nazir bildirib ki, İkinci Qarabağ müharibəsi döyüşlərində iştirak edən və ya şəhid olan vətəndaşlarımızın ailələri ilə bağlı son bir ayda görülmüş işlər 7 min şəxsi əhatə edib: "2300 şəxsə sosial ödənişlər təyin olunmuşdur. 2000 şəhid ailəsi və müharibə iştirakçısının ailəsi özünüməşğulluq proqramlarına cəlb edilmiş, 2700 nəfərə isə sosial-psixoloji və reabilitasiya xidmətləri göstərilmişdir. Əlavə olaraq mülki şəhidlərimizin sosial ödənişlərinin hamısı prioritet qaydada tam şəkildə təmin olunmuş, onlara sosial-psixoloji reabilitasiya xidmətləri təqdim edilmişdir. Bu məqsədlə xüsusi işçi qrupu yaradıldı. İşçi qrupunda bütün aidiyyəti dövlət qurumlarının üzvləri var və əlaqələndirilmiş iş nəticəsində şəhid ailələrinin, müharibədə yaralanan şəxslərin, müharibə iştirakçılarının sosial təminatı, sosial ödənişləri, məşğulluq tədbirləri sürətlə artırılmasıdır və 16 min ailənin əhatə edilməsi planlaşdırılır. Haqqıödənilən ictimai işlər proqramı icra olunur və yaradılmış 38 min daimi iş yerindən 98 faizi işçilərlə təchiz edilib. Pandemiyanın fəsadlarının aradan qaldırılması ilə bağlı tədbirlər planına əsasən yaradılmış 50 min ikiaylıq müvəqqəti iş yerləri də 75 faiz komplektləşdirilmişdir.

Dövlət şirkətlərində yaradılan 26 min ictimai iş yerinin də DOST İş Mərkəzinə ötürülməsinə dair tapşırığınız artıq icra olunur. Bu ildən ictimai iş yerləri də DOST İş Mərkəzi vasitəsilə təmin ediləcəkdir. Bütün bu proqramların şəffaflığının, ictimai açıqlığının təmin edilməsi üçün müvafiq elektron portal da yaradılıb. Həm özünüməşğulluq proqramı, həm də ictimai iş yerləri üzrə aktiv şəxs və ya işə cəlb edilən vətəndaşlar haqqında bütün məlumatlar ictimaiyyətə onlayn qaydada açıqlanır və hər kəsin istənilən məlumatı almaq imkanları var.

Cənab Prezident, Sizin tapşırığınızla pandemiya dövründə həssas təbəqədən ünvanlı sosial yardım mexanizminin də əhatə dairəsi genişləndirilib: "2020-ci ildə 77 min ailənin 322 min üzvünə ünvanlı yardım ödənilmişdir. Bu, 2019-cu illə müqayisədə 19 min nəfər çoxdur və 15 faizlik artımla orta aylıq ödənilən məbləğ 240 manata çatmışdır. Sizin tapşırıqlarınıza uyğun olaraq, bütün sosial ödənişlərin həyata keçirilməsində avtomatlaşdırma, elektronlaşdırma tədbirləri görülür, vətəndaş-məmur təması minimuma endirilir və bunun nəticəsində 2020-ci ildə artıq həm müavinət və təqaüd, həm də pensiyalar üzrə 95 min təyinat məhz elektron portal üzərindən hər hansı bir təmas olmadan həyata keçirilmişdir. Eyni zamanda, əsassız pensiya işlərinin, əsassız və saxta əlillik işlərinin və digər ödənişlərin araşdırılması nəticəsində il ərzində 125 milyon manat qənaət əldə edilmişdir. Digər tərəfdən, yığımların artması nəticəsində il ərzində 160 milyon manatlıq qənaət əldə olunmuşdur və ümumi məbləğin 250 milyon manatı dövlət büdcəsinə ödənmiş, 35 milyon manatı isə Pensiya Fondunun 2021-ci il üçün ehtiyatına yönəldilmişdir.



**"İşğaldan azad olunmuş ərazilərimizdə, həm də onlara yaxın regionlarımızda üstün şəkildə təmin ediləcəkdir**

Cənab Prezident, qeyd edim ki, ümumilikdə son iki il ərzində əhaliyə ödənişlərin 1 milyard manat artmasına baxmayaraq, dövlət büdcəsindən transfertin məbləği azalmış və ümumilikdə 570 milyon manat vəsait dövlət büdcəsinə qaytarılmışdır. Siz qeyd etdiyiniz kimi, İkinci Qarabağ müharibəsində şəhid olan, müharibədə iştirak edən, yaralanan əsgərlərimizin ailələrinə dəstək verilməsi üçün də mexanizmlər hazırlanmışdır və Sizin Sərəncamınızla dekabrın 31-də şəhid ailələrinin təqaüdü 500 manata, 1-ci qrup müharibə əlillərinin təqaüdü 400 manata, 2-ci qrup müharibə əlillərinin təqaüdü 350 manata, 3-cü qrup əlillərin təqaüdü isə 300 manata qədər artırılmışdır. Milli qəhrəmanlarımızın təqaüdləri 1800 manata çatdırılmışdır və Sizin Sərəncamınızla yeni bir təqaüd - Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunmuş, onun da məbləği 2000 manat olaraq müəyyən edilmişdir. Təqaüdlərin artırılması, ümumilikdə 100 minədək insanı əhatə edir. Burada müxtəlif kiçik məbləğli aparılır.

Qeyd etdiyiniz kimi, 1500 şəhid ailəsinə, müharibə əlilinə mənzillərin və evlərin verilməsinə dair cari il üçün planımız var idi. 1450 mənzil və fərdi ev artıq bu şəxslərə təqdim edilib və növbəti 10-15 gün ərzində - 15 yanvaradək 1500 evin hamısı təqdim olunacaq.

Avtomobillərin verilməsi proqramı da davam etdirilmiş və il ərzində 400 müharibə əlilinə və əlilliyi olan şəxslərə avtomobillər təqdim olunmuşdur.

Məruzə edim ki, məşğulluq proqramlarımız da davamlı şəkildə icra olunub və məşğulluq mərkəzləri tərəfindən 100 min nəfər vətəndaşımız işlə təmin edilib, 12 min ailə isə özünüməşğulluğa cəlb olunub. Özünüməşğulluq proqramı İşdən Sığorta Fondu ilə yanaşı, BMT İnkişaf Proqramı, yerli banklarımız, Heydər Əliyev Fondunun dəstəyi ilə icra edilib.

2021-ci il üçün hədəfimiz, əlbəttə ki, Sizin tapşırıqlarınıza uyğun olaraq bu proqrama cəlb olunan ailələrin sayının olan insanlarımıza dəstək tədbirləri də icra olundu. 600 min işsiz, qeyri-formal işləyən şəxsə birdəfəlik ödəmə proqramı 190 manat məbləğində icra edildi. Bu məqsədlər üçün 450 milyon manat vəsait sərf olundu. Sosial tərəfdaşlarımızın dəstəyi ilə 110 min aztəminatlı ailəyə 3 dəfə ərzaq yardımları verildi. 65 yaşdan yuxarı və tənha yaşayan şəxslər daimi sosial xidmətə götürüldü və müxtəlif sosial xidmət müəssisələrində həssas kateqoriyadan olan insanlarımıza dəstək tədbirləri təqdim edildi. Bu proqramlar cari ildə də davamlı olaraq icra ediləcəkdir. Həm sosial xidmət müəssisələrimizin, həm reabilitasiya mərkəzlərimizin şəbəkəsinin genişləndirilməsi ilə daha çox əhaliyə xidmət göstəriləcək. Məşğulluq proqramlarımız isə Sizin tapşırığınıza uyğun olaraq, ilk növbədə, prioritet əsasda həm işğaldan azad olunmuş ərazilərimizdə, həm də onlara yaxın regionlarımızda üstün şəkildə təmin ediləcəkdir".

# Laçının laçın oğlu, "Sumqayıt uşağı" Bəhruz Əzizov

***O, döyüş dostları ilə birgə Laçında neçə vaxtdır "at oynadır". Hələ özlərinin ilk "özəl iaşə obyektlərini" - "Veteran" çay evini də yaradıblar.***

Valideynləri Laçından olsa da, Bəhruz (əsl adı Pərvizdir, ancaq hamı onu Bəhruz kimi tanıyır) Sumqayıtda dünyaya gəlib - 3 aprel 1993-cü ildə, Laçının işğalından 11 ay sonra. Laçın haqqında, onun əlçatmaz dağları, geniş düzləri, sıx meşələri, gur və saf sulu çayları haqqında ancaq atasından eşidib, o yerləri yalnız şəkillərdə, köhnə videolarda görüb. Vətən müharibəsi başlayanda qeyrətli bir oğul kimi evdən xəbərsiz könüllü olaraq Milli Orduya yazılıb. Rəsmi çağırışı gözləməyə səbri çatmayıb, hər gün hərbi komissarlığın yolunu "döyənək" eləyib və artıq oktyabrın 1-də istəyinə nail olaraq, bununla həm də evdəkiləri təəccübdə, heyrətdə qoyaraq, cəbhəyə yollanıb. Bircə bunu deyib: "Ata, gedirəm sənin, babalarımızın yurdunu düşməndən azad etməyə!". Bunun müqabilində atası Zöhrabın qürurla oğluna baxıb, ona uğur, qələbə diləməkdən başqa çarəsi ola bilərdimi?

Boylu-buxunlu, cüssəli, cəsur oğlan olan Bəhruz artıq neçə vaxtdır atasına verdiyi sözə əməl edib. Döyüş dostları ilə birgə cəbhə boyu Cəbrayılda, Qubadlıda düşmənə qan udduraraq, daha da irəliyə gedib, Laçına ilk yetişən igidlərimizdən olub (rəsmi xəbərdən də neçə gün əvvəl!). Və böyüyüb, boya-başa çatdığı Sumqayıta, atasına şad xəbər də göndərib: "Ata, sənin doğma yurdunda - Laçındayıq, sənin Vəlibəyli kəndindəyik. Ermənilərdən gəbərtdiklərimizi gəbərtdik, qalanları da tülkü kimi qaçıb getdilər. Allah qoysa, tezliklə bütün laçınlılar öz dədə-baba ocaqlarına dönə biləcəklər. Bir də o murdar düşmənin ayağı bu yerlərə dəyməyəcək! Qoymarıq!".



Bəhruzun Laçın dağlarında əldə silah at oynatması, özünün və döyüş yoldaşlarının igid, vüqarlı görkəmləri də göstərir ki, Vətənin bu cəsur övladları Laçına, bütün Qarabağa bir daha düşmən ayağının dəyməsinə heç vaxt yol verməyəcəklər.

...Bəhruz Vətən müharibəsinə qədər Azərbaycan əsgəri kimi çox çətin relyefli, havası sərt, qarlı-sazaqlı olan Murov dağında ciddi sınaqlardan keçib. Onun ilk olaraq Goranboyun Ağcakənd, Ballıqaya ərazilərindən başlanan əsgər həyatı sonralar qarlı-şaxtalı Murov zirvələrində davam edib.

Bəhruz hələ uşaqlıqdan - ağlı kəsəndən elə o arzuda-istəkdə olub ki, ordumuzun sıralarında vuruşaraq, azğın düşməni döyüş dostları ilə birgə doğma torpaqlarımızdan qovaraq, müqəddəs sandığı Qarabağı, üzünü görmədiyi, bəlkə atasından da çox daim həsrətində olduğu dədə-baba yurdu Laçını azad etsin. Həmişə bu istəklə yaşayıb. Fikirləşib ki, əgər Azərbaycanın əfsanəvi sərkərdəsi Şah İsmayıl Xətai hələ 14 yaşından ağır, qanlı döyüşlər apararaq, böyük Azərbaycan naminə möhtəşəm qələbələr qazana bilibsə, niyə o özü və yaşıdları 18-19 yaşında düşmənə qan uddura bilməsinlər? Ona görə də hərbi sirrlərə, hərb qaydalara mükəmməl yiyələnmək üçün əsgərlik dövründə komandirlərin keçdikləri təlimlərdə həvəslə iştirak edib, fəallıq göstərib. Neçə il əvvəl hərbi komandanlıqdan aldığı təşəkkürnamələr də bunu təsdiq edir.

Elə o zaman Murovdağda düşmənlə üz-üzə dayanıb hərbi xidmətini davam etdirərkən əsgər yoldaşları kimi o da hər gün Ali Baş komandanın "hücum!" əmrini gözləyib. Çünki elə o vaxtlar hiss etmişdi ki, üz-üzə dayandıqları erməni dığaları mənfur olduqları qədər də qorxaqdırlar, Milli Ordumuzun qurd ürəkli oğullarının kiçik bir harayı, həmləsi qarşısında davam gətirməyib, qaçmağa üz tutacaqlar.



Ataları Zöhrab kişinin doğma Laçınla bağlı söhbətlərinin, həsrət dolu kövrək xatirələrinin nəticəsidir ki, Bəhruzun kiçik qardaşı Məhəmmədəli də əsl dağlar oğlu kimi hərbi xidmətini məhz Murovdağda keçib. Hətta cəsur bir əsgər kimi 2016-cı ilin Aprel döyüşlərində də iştirak edib, komandanlığın təşəkkürünü də alıb. Həmin il əsgəri xidmət dövrü başa çatsa da, yaranmış hərbi vəziyyətə görə o, hələ bir aydan da artıq xidmətini davam etdirməli olub.

Elə Bəhruzu könüllü döyüşə getməyə, Qarabağ uğrunda vuruşmağa, çətin, qanlı-qadalı yollardan keçməyə sövq edən də məhz ailədə hökm sürən vətənpərvərlik, torpağa bağlılıq hissləri olub. Axı, onun babası Lətif Əşrəf oğlu Əzizov da vaxtilə döyüşçü olub - ikinci Dünya müharibəsinin iştirakçısı kimi uzun və ağır döyüş yolu keçib, el-obasına üzüağ, orden-medallarla, 1-ci qrup müharibə əlili kimi qayıdıb. Onun sonralar Laçın dağlarında keçən mənalı həyatı daim doğma yurdu ilə bağlı olub. Lətif kişinin unudulmaz, nurlu xatirəsi bu gün də nəvələr üçün əzizdir, onların yoluna işıq saçır...

Bugünlər Bəhruzun atası Zöhrab Əzizov Qarabağ torpaqlarımızı, doğma yurdu xilas etmək üçün odlardan-alovlardan keçmiş oğlu ilə fəxr edir, böyük qürur duyur! Axı, hansı ata belə oğullarla fəxr etməz, öyünməz, sevinməz ki?!..

***Rəhman ORXAN***

# Dastana dönən Qarabağ qəhrəmanları

***27.09.2020-də başlandı. Azərbaycan tarixinə xalqın bağrına yaralar açan, işid oğullarımızın qanının axdığı və 44 gün sürən Qarabağ müharibəsi, tariximizin ən şanlı zəfər savaşı. İlk anda yuxudan oyanırsan və bu xəbərə bilmirsən sevinəsən, yoxsa cəbhəyə yollanan igidlərimizin həyatı üçün təlaş keçirdəsən. Amma an o an idi.***

30 ildir gözü yol çəkən torpaqlarımız bizləri çağırışa səsləyirdi. Xarıbülbül başını qaldıraraq həsrətdən yanan qoxusunu yaydı havaya. Gəlirdi qələbə xəbərləri fonunda üçrəngli bayrağa bükülmüş yüzlərlə şəhidlərimiz, o bayrağı gözü üstə gəzdirən qazilərimiz. Cəbhədə mərmilər atıldıqca hər evdə nəfəslər tutulur, ürəklər çırpınırdı. İgidlərimizə tuşlanan hər güllə sanki bizlərin ruhunu qanadırdı. Xəstəxanaya çatdırılan, hələ yarasının qanı dayanmamış oğullarımızı gördük ki, yenidən savaş dostlarının yanına qayıtmaq istəyirdi. Qazilərimiz günlərlə çəkdikləri aclıq, susuzluq, yorğunluq, ağrı-acını unudaraq əməliyyat masasında narkozfdan oyanar-oyanmaz cəbhə yoldaşlarının adlarını sayaqlayırdı. Ayılan kimi isə onların yanına qaçmağa can atırdı. Əsgərlərimizin yaralı bədənlərini unudub içindəki qələbə, savaş ruhunu sakitləşdirə bilməməsinə şahidlik edən bizlərin keçirdiyi hisslər isə idarə və ifadə edilməz hala çevirilirdi. Dilimizdə dua, əlimizdə iynədərman. Bizlər bu qədər yaralı olarkən bu qədər də qürurlu olmamışdıq. Tibb işçilərimiz oldu ki, əlindəki bütün imkanları səfərbər edib dəstək üçün cəbhəyə axışırdı. Dünyanın dörd bir yanından 50 milyonluq həmrəylik zəncirləri Azərbaycanı sardı sarmaladı.. Səsimizə, mübarizəmizə dəstək verdi dünya azərbaycanlıları. 50 milyonluq azərbaycanlı həmrəyliyi nə idi, bütün dünyaya sübut etdik. Qarabağı bizlərə sücaətləri, qanları, canları naminə qaytaran igidlərin təəssüratları ürəyimizdə tərifedilməz hisslər qoydu. İlahi bu mübarizə bizi necə doğmalaşdırdı, necə yaxınlaşdırdı. Nə çox sevirmişik Vətəni, bəzən hansısa sosial problemdən bezib qaçmaq istədiyimiz yurdumuzu.



44 günlük savaş dünyada cənnəti də cəhənnəmi də yaşatdı bu xalqa.

Ayağından ağır yara alan, amma sürünərək savaşan əsgərin mübarizəsinə, üzündən yara alıb qanlar axmasına məhəl qoymadan savaş meydanından çəkilməyən igidimizin ürəyinə, şəhidlik məqamına yüksələrkən "Vətən sağ olsun" deyib qolundakı qolbağı çiyinçiyinə döyüşdüyü dostunun qoluna xatirə olaraq bağlayaran və gözlərini əbədi yuman oğlumuzun Vətən sevgisinə necə aşiq olmayasan? Qolunu, ayağını, əlini itirdiyini görə-görə yenə də döyüşən oğullarımızın qəhrəmanlıq dastanları bitməztükənməz. O oğullarımız ki, həm də 44 günlük mübarizədə özlərinə ömürlük qan qardaşları, dostlar qazandılar. Unudulmaz, yaddaşları donduracaq , bütün həyatlarını dəyişdirəcək xatirələri isə beyinlərinə əbədi həkk etdilər. Əməliyyat masasından yeni çıxan əsgərə ünvanlanan "bütün bu hadisələrin başınıza gələcəyini bilsəydiniz yenidən cəbhəyə gedərdiniz?" sualına verilən "son nəfəsimizə qədər döyüşərdik" cavabı alan bəndənizinm o anda keçirdiyi qürur hissi izaholunmazdı. Bunca zəfərdən, axıdılan qanlardan sonra bizim üzərimizə düşən tək şey var: bu Vətəni sonsuza qədər canımız, qanımız bahasına qorumaq, ona bir də yadelli ayağının dəyməsinə imkan verməmək. Qanla yazılan,ağrılarla, göz yaşları ilə yoğrulan tarixımizə, sərhədlərimizə sahib çıxmaqla, əbədi birlik və həmrəyliyimizlə şəhidlərimizin ruhunu şad etmiş olarıq. Bir ölər, min dirilərik...

***Günay Məmmədli***

# ABŞ RUSİYA VƏ İRANI ÇİNDƏN QOPARA BİLƏCƏKMİ?

## Bayden dönəmində Çinə qarşı təzminat davası açıla bilər

***Bu da ən az baş sındırdığımız "Bizi necə bir gələcək gözləyir?" sualının cavabı... Son iki böyük savaşa baxdığımız zaman səhnədə baş verənlərlə sonradan həyata keçirilənlər arasında böyük fərq olduğunu görürük. II Dünya Müharibəsinə baxan zaman Hitlerin çılğınlığını, lakin ardınca yeganə hakim güc olan dolları görürük. Savaşın səbəblərindən biri deyildi, amma ən önəmli nəticəsi oldu.***



Dünya 2021-ci ilə girərkən, qapandı. Hər kəs evindəydi. Təyyarələr, avtobuslar, qatarlar görünmürdü. Küçələrlə insanlar arasına qırmızı bir lent çəkilmişdi. Azadlıq böyük ölçüdə azalmış, hərəkət qabiliyyətimiz isə minimal səviyyəyə enmişdi. Durum hər yerdə belə idi. Almaniya, İngiltərə, ABŞ, Türkiyə, Rusiya, Portuqaliya və Yeni Qvineyada da durum eyni idi, bir-birindən fərqli deyildi. Ölümlər və infeksiya davam edir, insanlıq özünü qorumağa çalışırdı. İqtisadiyyat tıxanır və şəkil dəyişdirirdi. Bütün bu mənzərə içində fərqli olan yeganə bir yer var idi. O da Vuhan idi. Yəni, Qərbin "virusun çıxıdığı mərkəz" adlandırdığı yer.

Covid-19 pandemiyasının mərkəzi kimi tanınan Çinin Vuhan şəhəri düz bir il sonra normal vəziyyətinə döndü. Küçəyə çıxma qadağalarının ləğv edilməsilə birlikdə küçə, meydan, restoran və gecə klubları doldu. Və "Reuters" Vuhanın infeksiyadan sonrakı canlı, parlaq gecə həyatını görüntülədi. Yeni ilin çılğın şənlik tədbirlərinin görüntüləri yayıldı.

Dünyanın qalan qismi isə özünə qapanmış, sanki çırpınırdı. Problemlərlə boğuşurdu. Bu nöqtəyə təkrar dönəcəyik. Ancaq öncə Körfəzə enək.

Səudiyyə Ərəbistanı, Misir, BƏƏ və Bəhreyn 2017-ci ilin iyun ayında Qətəri "terrora dəstək verməkdə" ittiham etmiş, ardınca bu 4 ölkə Qətərə qarşı 13 maddəlik bir tələb siyahısı irəli sürmüşdü. Bunun rədd edilməsindən sonra Qətərə qarşı həm embarqo tətbiq edilməyə başlamış, həm də diplomatik münasibətləri kəsmişdilər. İrəli sürülən tələblər arasında Qətərdəki Türkiyə hərbi bazasının qapadılması, "Müsəlman qardaşları" üzvlərinin ölkədən çıxarılması, "Əl Cəzirə"nin fəaliyyətinin dayandırılması, İranla əlaqələrin zəiflədilməsi və Yəməndəki üsyançı husilərə dəstəyə son verilməsi də vardı. Qətər isə, təbii, cihadçı təşkilatlara dəstək verdiyini rədd edirdi.

Türkiyə embarqodan sonra Qətərə ən böyük dəstək verən ölkələrdən biri olmuşdu. Bu tarixdən sonra ABŞ ərəblərlə İsraili yan-yana gətirmək cəhdinə girişdi. Və bu məsələdə uğur əldə etdi. Körfəz məsələsində önə çıxan, bu tabloya uymayan yeganə güc Qətər idi.

İndi gəlinən nöqtədə Qətər də Səudiyyə Ərəbistanına, dolayısilə İsrailə yaxın hala gəldi. Anlaşmanın nə gətirəcəyi tam bəlli olmasa da, demək olar ki, təxmin edilə bilər. Çünki ABŞ və İsrailin Qətərlə problem yaşayan ölkələr vasitəsilə ona qarşı irəli sürdüyü tələblər bəllidir: Türkiyənin hərbi bazası olmasın, İranla əlaqələr durdurulsun və "Müsəlman qardaşları" ilə araya məsafə qoyulsun.

Qətərin Səudiyyə Ərəbistanına yanaşması müsbət dəyərləndirilsə də, bu, İran üçün sıxıntı qaynağı ola bilər. Onsuz da İranın nüvə proqramı əvvəldən hədəfə alınmışdı. Əgər pıçıltılara qulaq versəniz, Körfəzdə İranla bağlı fikir birliyinin təmin edildiyini duymaqda çətinlik çəkməzsiniz. İran rejimi üçün önəmli bir fiqur olan Qasım Süleymaninin öldürülməsindən sonra gəlinən bu nöqtə olduqca əhəmiyyətlidir.

İran ABŞ-ın qonşusu deyil. İran dünyada ABŞ-ın siyasi və iqtisadi rəqibi də deyil. Paylaşa bilmədikləri bir şey də yoxdur. Ancaq İran Çinin onunla eyni yolda yürümək istəyən dostudur. "İpək yolu" üçün də ciddi bir oyunçudur. Durum belə olunca, ABŞ baxımından 2 önəmli ünsür - Rusiya və İran önə çıxmaqdadır. "İpək yolu"na və Çinə nəzarət edilə bilməsi üçün bu iki ölkədən birinə zərər vermək istəyəcəklər. Məqsəd Çinin Avrasiya ilə bütünləşməsinə əngəl olmaqdır.

Pentaqon düz bir il öncə Qasım Süleymanini vuraraq öz məqsədinə aydınlıq gətirdi. Aradan ötən zaman ərzində Qətər də Körfəz koalisiyasına gəldi, qatıldı. Bəlkə də, ABŞ və NATO bu məqsədlə Ermənistan-Azərbaycan savaşı zamanı ortada çox görünmədi. İngiltərə və Türkiyənin önünə çıxılmadı, Qətər də aşağıda Körfəzdə bütünlüyü təmin etdi...

İndi ABŞ-da "Süveyşin şərqi" strategiyasının masaya yatırılmış olması haqqında danışılmaqdadır.

Rusiya və İran Çinə görə hədəfdədir. Makron NATO ilə bağlı "Beyin ölümü gerçəkləşdi" desə də, reallıqda durum belə deyil. NATO, Polşa üzərindən Rusiyaya gözdağı vermək üçün böyük hazırlıq görür. Məqsəd Çini durdurmaq, ona nəzarət etməkdir, ancaq öncə onun Rusiya və İranla əlaqəsini kəsmək istəyirlər.

İrana qarşı silahdan istifadə etmək variantı masaya gələ bilərmi? Mən qəti şəkildə "Bəli" deyərdim. Körfəzdə birlik axtarışlarının səbəbi budur.

Dönək Çinə, Vuhana. ABŞ-ın sabiq müdafiə nazirlərinin çoxu respublikaçı olsa da, hamısı Qərbin Çinlə böyük koalisiya formasında mübarizə aparmasını tələb etməkdədir. Avropa onsuz da buna dirənə bilməyəcək. Hətta Merkel hazır görünür. Deyəsən, İngiltərənin də bir qolu bu işin içində olacaq.

Rusiya və İran hansısa bir formada Çinin orbitindən çıxarıldıqdan sonra iş gəlib təzminat məsələsinə dayanacaq. İndi Çin yaydığı fotoşəkillərin, görüntülərin gələcəkdə başına iş açacağını bilmir. Bütün dünyanın öz evinə sığındığı, iqtisadiyyatların tıxandığı, dəyən zərərin həcminin trilyonlarla dollara çatdığı, Qərbdə minlərlə insanın öz həyatını itirdiyi bir halda, bu əyləncə və "Normala döndük!" hissi aşılayan görüntülər məhkəmədə təzminat almaq üçün istifadə ediləcək.

Baydenin gəlişindən sonra (ola bilsin, gəlmədən belə) silahlı bir müdaxilənin edilməsi variantı masadadır. Bu, aydındır. Savaşın ritmindən, tezliyindən asılı olaraq, müəyyən müddətdən sonra növbə təzminata gələcək. Məqsəd də budur. Baş tutub-tutmayacağını görəcəyik.

Ancaq ABŞ-ın problemi düşmənini meydana gətirib gərginliyi zirvəyə çatdırdıqdan sonra həll etmə meylini də unutmamaq lazımdır. Xroniki hala gətirmədən heç bir problemi həll etməmişdir.

Bu virus da hansısa bir formada Harvarddan getdi. Dünyanı dəyişdirmək istəyənlər də ABŞ-dadır. Daha doğrusu, virusu hazırlayıb yayanlar da, Vuhanı işarət edib hədəfə qoyanlar da, vaksini hazırlayıb "ümid" olaraq satanlar da eyni komandanın üzvləridir. Bu, Cefri Epşteyndən Bill Qeytsə, Entoni Fauçidən professor Novaka qədər uzanan geniş bir şəbəkədir. Böyük oyunçuların çoxu ABŞ-dadır. Tezis də, anti-tezis də ABŞ daxilindədir.

"Virus" III Böyük Savaşın (III Dünya Müharibəsi nəzərdə tutulur - tərc.) adıdır. Bitən zaman yerdən kim nə toplayacaq? Və bizə kim, nəyi qəbul etdirməyə çalışacaq? Çin, çinlilər vasitəsilə bir model yaratmaq, sonra da bu modeli qəbul etdirib "bəxşiş" toplamaq istəyənlər eyni adamlardır.

Rəqəmsal qəlibləri Çin kimi idarə forması olan ölkələrdə yarada və yaya bilərsiniz. Sonra nə olacaq? Kassa qazanacaq.

Yaxşı, bəs, biz nə edirik? Harvardın kimya bölümü ilə, professor Martin Novakla, Çindəki kamera vasitəsilə qeydəalma və təqibetmə sistemi və vaksinlərlə deyil, Boğaziçi Universitetinə təyin olunan rektorla məşğul oluruq. Diskussiyalar da onun layiq olub-olmadığına görə deyil, partiya uniformasına görə aparılır. Yaxşı, bəs, bu doğrudurmu?

***Ərgün Dilər***
***"Takvim", Türkiyə,***
***06 yanvar 2021-ci il***

## Britaniyada sutkada koronavirusdan 1000-dən çox adam öldü

***Koronavirusa yoluxmuş Böyük Britaniya sakinləri arasında sutka ərzində qeydə alınan ölüm sayı aprel ayından bəri ilk dəfə 1000 nəfəri keçdi.***

Trend-in məlumatına görə, son 24 saat ərzində rekord 62,3 min yoluxma faktı da qeydə alınıb.

Ölkə hökuməti bildirib ki, sutka ərzində 1 041 nəfər koronavirusdan vəfat edib.

Son dəfə bu cür rəqəmlər epidemiyanın bahar dalğasının pik nöqtəsinə çatanda müşahidə olunurdu. 1224 ölüm halı ilə anti-rekord isə 21 aprel tarixində qeydə alınıb.

## ABŞ-da gərginlik: Birinci xanımın aparat rəhbəri istefa verdi

***ABŞ-ın birinci xanımı Melanya Trampın aparatının rəhbəri Stefani Qrişem çərşənbə günü Vaşinqtonda qarışıqlıqları nəzərə alaraq vəzifəsindən istefa verib.***

Bu barədə CNN telekanalı məlumat yayıb.

Məlumata görə, Qrişem bildirib ki, öz vəzifəsini dərhal tərk etmək niyyətindədir. Daha əvvəl o, Ağ Evin mətbuat katibi, həmçinin Ağ Ev Aparatında kommunikasiyalar üzrə direktor olub.

Çərşənbə günü ABŞ-ın hazırkı prezidenti Donald Trampın tərəfdarları Konqresinin binasına hücum etməyə çalışıblar. Onlar sonda binanın içinə girməyə nail olublar. Qanunverici orqanın nümayəndələri təhlükəsiz yerlərə təxliyə edilib.

Son məlumatlara görə, toqquşmalar zamanı etirazçılardan biri həlak olub, daha dörd nəfər yaralanıb. Ölən şəxs qadındır. ABŞ polisi azı 20 nəfəri qarışıqlıqlar yaratmaq ittihamı ilə saxlayıb.

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**




# Azərbaycan bütün mümkün vasitələrlə Qarabağ həqiqətlərini dünyaya çatdırmalıdır

## Fazil Mustafa: "Xocalı soyqrımı, əsir və girovlara qarşı qeyri-insani davranışlar dünyanın və insan haqlarını qoruyan təşkilatların diqqətinə çatdırılmalı, onların bu məsələyə cavabı tələb edilməlidir"

***28 il idi ki, Dağlıq Qarabağın və işğal altında olan torpaqların Azərbaycana aid olduğu, bu torpaqlarda qalan mədəni, dini və tarixi abidələrin dağıdıldığı, işğalçı dövlətin dinc sakinlərə divan tutduğu barədə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırılsa da, həmin təşkilatlar bunu sükutla qarşılayır, insanlığa və bəşəriyyətə qarşı vandalizmi törədənlərə hər hansı bir sanksiya tətbiq etmirdi. Azərbaycanın 28 ildən sonra öz torpaqlarını güc yolu ilə işğaldan azad etməsi düşmənin vandal davranışını dünyaya nümayiş etdirməyə imkan yaratdı. İndi Ermənistan-Azərbaycan münaqişəsi ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi günümüzün aktual məsələsi olmaqla yanaşı hər birimizin qarşısında duran ümdə vəzifələrdəndir.***

Bəs görəsən işğalçı dövlətin əsl simasının dünyaya tanıdılması, həqiqətlərin olduğu kimi çatdırılması üçün Azərbaycan tərəfi hansı işləri görməlidir?

Millət vəkili Fazil Mustafa deyir ki, hazırda pandemiya dövrü olduğundan beynəlxalq təşkilatlar onlayn formatda işləyir: "Biz də bu dövrdə pandemiya deyib səssiz dayanmamalı, onlayn formada öz müraciətlərimizi,məktublarımızı göndərməliyik. İndiyə qədər dünyaya erməni vəhşiliyindən bəhs etsək də, heç kəs o torpaqlarda mədəni və dini abidələrimizə divan tutulduğunu,Azərbaycanın o torpaqlardakı tarixini silməyə çalışdığını qəbul etmirdi, yaxud da etmək istəmirdi. Amma bu gün biz bunu dünyaya əyani şəkildə göstərə bilirik. Çünki, erməni vəhşiliyinin əks olunduğu o torpaqları işğaldan azad etmişik. Ermənilər və digər dövlətlər bizdən dini abidələrə qarşı tolerant yanaşmağı, onları mühafizə etməyi tələb edir. Amma işğal dövründə onlar bunu Ermənistandan tələb etmirdilər. Bizim məscidlərimiz təhqir olunub, dağıdılıb, mədəni -tarixi abidələrimizin izini silməyə çalışıblar. Ona görə də, biz bunları görüntülərlə birgə həmin beynəlxalq təşkilatların diqqətinə çatdırmalıyıq. Amma bununla iş bitmir. İşğalın nəticələrini əks etdirən görüntülər altında xarici dillərdə titrlər getməklə dünyaya yayılmalıdır. Biz bunu sosial şəbəkələr üzərindən də etməliyik. Dünyaya onların insanlığa qarşı davranışları da nümayiş etdirilməlidir. Xocalı soyqrımı, əsir və girovlara qarşı qeyri-insani davranışlar dünyanın və insan haqlarını qoruyan təşkilatların diqqətinə çatdırılmalı, onların bu məsələyə cavabı tələb edilməlidir".



Deputat deyir ki, bu məsələdə vətəndaş cəmiyyəti institutlarının və deputatların üzərinə böyük iş düşür: "İndi biz bu işi daha sistemli şəkildə etməliyik. Bütün deputatlar işğalçının əsl üzünü dünyaya göstərmək üçün öz mövqeyini bildirməli, bununla bağlı beynəlxalq təşkilatlara müraciətlər ünvanlamalıdır. Eyni zamanda vətəndaş cəmiyyəti təmsilçiləri bu işdə vətəndaş mövqelərini ortaya qoyaraq aktiv olmalıdırlar".

F. Mustafa onu da bildirir ki, eyni zamanda Azərbaycan dəymiş ziyanın tələb olunması ilə bağlı haqlı mövqeyini də ortaya qoymalıdır: "Azərbaycanın işğal altında saxlanılan torpaqlarında təkcə mədəni, tarixi, dini abidələr dağıdılmayıb. Düşmən bu torpaqlarda bütün infrastrukturu məhv edib. Meşələrə, yeraltı və yerüstü sərvətlərə divan tutub. Bu işğalın nəticəsində bir milyon insan evindən didərgin düşərək köçkün həyatı yaşayıb. Bu zülmün, bu mənəvi əzabın da hesabı sorulmalıdır. Bir sözlə işğalçı dövlət qeyri-insani davranışlarına görə beynəlxalq hüquq qarşısında cavab verməlidir".

Qeyd edək ki, prezident də dəfələrlə öz çıxışlarında işğalçı dövlətdən Azərbaycana vurduğu ziyana görə təzminat tələb edilməli olduğunu vurğulayıb. Prezident son çıxışında da bildirib ki, biz itirilmiş gəliri də hesablamalıyıq: "Çünki bu 30 il ərzində biz bu müəssisələrdən hansı gəliri götürə bilərdik. Orada bir çox müəssisələr və bu müəssisələrin böyük potensialı var idi. Onlar dağıdılıb və biz götürə biləcəyimiz o gəliri götürməmişik. O da hesablanmalıdır. Həmçinin ekologiyamıza vurulan ziyan hesablanmalıdır. Mən bəzi rəqəmləri səsləndirəcəyəm. Qırılan meşələr. Bu meşələr elə-belə qırılmayıb. Bu meşələr qırılıb və satılıb. Qırılmış o meşələrin, ağacların bazar qiyməti hesablanmalıdır. Çünki bunlar satılıb və qanunsuz gəlir mənbəyi olubdur. Bununla paralel olaraq, bizim torpaqlarımız qanunsuz yollarla istismar edilib. İndi Ermənistan mətbuatında gedən məlumata görə, o torpaqların böyük hissəsini kriminal rejimin başçıları zəbt etmişdilər. Orada Ermənistanın keçmiş prezidentləri Koçaryan və Sarkisyanın böyük torpaq sahələri var idi. Eyni zamanda, qanunsuz rejimə rəhbərlik edənlərin böyük torpaq sahələri var idi. Onlar hər il böyük gəlir əldə edirdilər. Çünki o torpaqlar çox münbitdir və çox məhsuldardır. Eyni zamanda, örüş sahələri, otlaq sahələri. Bütün bunların qanunsuz istismarı gərək qiymətləndirilsin və biz onu pul ekvivalentinə çevirməliyik. Əlbəttə, oradakı təbii sərvətlərin qanunsuz istismarı artıq danılmaz faktdır. Bizdə şirkətlərin adları var. Bildirməliyəm ki, əgər bizim qızıl və digər yataqlarımızı qanunsuz istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə gedəcək. Əgər bu təzminatı ödəməsələr, bütün işlər gedəcək beynəlxalq məhkəmələrə və onlar orada biabır olacaqlar. Bundan sonra onların biznes fəaliyyəti demək olar ki, dayandırılacaq. Çünki başqa ölkədə təbii sərvətləri qanunsuz istismar edib, ondan gəlir qazanıb varlanan şirkətlərə, insanlara müasir dünyada yer yoxdur. Ona görə onların qarşısında məsələ qoyulub, onların qanunsuz istismar etdikləri qızılın və digər təbii sərvətlərimizin dəyəri hesablanmalıdır, dəymiş ziyan hesablanmalıdır, əldə edilmiş gəlir hesablanmalıdır və bizə qaytarılmalıdır. O təqdirdə biz beynəlxalq məhkəmələrə müraciət etməyə bilərik".

Prezident qeyd edib ki, 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar: "Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir. Ona görə bu məsələ çox ciddi təftiş edilməlidir. Qeyd etdiyim kimi, həm dəymiş ziyan hesablanmalıdır, eyni zamanda, bu meşə fondunun bərpası ilə əlaqədar aidiyyəti qurumlar, ilk növbədə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi xüsusi proqram tərtib etməlidirlər ki, biz ermənilər tərəfindən dağıdılmış meşələri bərpa edək. Azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb. Oraya da mütləq bir qrup ezam olunmalıdır, yerində təftiş aparılmalıdır və bu qoruq bərpa edilməlidir. Qubadlı Dövlət Təbiət Yasaqlığı 1969-cu ildə yaradılıb, 1988-ci ildə sahəsi 8500 hektar olub, 2020-ci ildə 6923 hektar. Yəni, 1577 hektar dağıdılıb, talan edilib. Daşaltı Dövlət Təbiət Yasaqlığı 1981-ci ildə Heydər Əliyev tərəfindən yaradılmışdır. 1988-ci ildə 400 hektar sahəsi var idi, hazırda 350 hektardır. Burada da 50 hektar dağıdılıb. Laçın Dövlət Təbiət Yasaqlığı 1961-ci ildə yaradılıb, 1988-ci ildə 7500 hektar sahəsi var idi. Hazırda 4457 hektar qalıb, 3043 hektar ermənilər tərəfindən məhv edilib. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı 1993-cü ildə yaradılıb, sahəsi 1700 hektar idi. Hazırda cəmi 135 hektar qalıb. Yəni, 1565 hektar məhv edilib. Bunun dəymiş ziyanı da hesablanmalıdır və Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



# 60 yaşlı kişi qonşusunu əlindəki bellə qətlə yetirdi

***Ucar rayonunda qonşusunu qətlə yetirməkdə ittiham olunan 1960-cı il təvəllüdlü Mövlam Mustafayevin məhkəməsi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Mövlam Mustafayev ötən il iyulun 10-da Ucarın Yuxarı Şilyan kəndində yerləşən yaşayış evini və həyətyanı sahəsini su ilə təmin etmək üçün Bağman kəndindəki su arxının bəndini açıb, sonra yaşadığı evə tərəf qayıdıb.

Mövlam Mustafayev saat 9 radələrində yaşadığı kənddə "Baba Məhərrəmli" məhəlləsində "Gülnisə" adı ilə tanınan bərənin yanında qonşusu Qəzənfər Musayevin onun həyətinə doğru axan suyun qarşısını kəsməyə çalışdığını, suyu öz torpaq sahəsinə istiqamətləndirdiyini görüb,ona etirazını bildirib.

Bu zaman Qəzənfər Musayev onun və ailəsinin ünvanına nalayiq sözlər deyib. Bundan əsəbiləşən Mövlam Mustafayev əlində saxladığı belin sapı ilə yarımbükülü vəziyyətdə iş görən Qəzənfər Musayevin bədəninin müxtəlif nahiyələrinə zərbələr endirib. Qəzənfər Musayev aldığı xəsarətlərin təsirindən hadisə yerində ölüb.

İstintaq orqanı tərəfindən Mövlam Mustafayevin barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Mövlam Mustafayev elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. Onun ifadəsinə görə, iyulun 10-da, səhər saat 05.30-da bel götürərək yaşadığı evdəki hovuzu doldurmaq üçün su arxını açmaq məqsədi ilə piyada Bağman kəndinə gedib: "Su arxında bəndi açdıqdan sonra kəndə tərəf qayıtdım. Saat 9 radələrində qonşum Qəzənfərin əlindəki bellə bərənin yanında mənim yaşayış evimə gedən suyu öz torpaq sahəsinə istiqamətləndirdiyini gördüm.

Su bərəsinin üstündə olan təkərlə palçıqdan qarışıq bəndin üstündə dayanaraq Qəzənfər Musayevə etirazımı bildirdim. Yaşayış evimə gedən suyun qarşısını kəsməməsini xahiş etsəm də, Qəzənfər suyu öz torpağına tərəf suyun istiqamətləndirməkdə davam etdi. Məni və ailəmi nalayiq sözlərlə təhqir etdi. Nalayiq sözlərə əsəbləşdim, əlimdəki bellə qarşımda yarımbükülü vəziyyətdə iş görən Qəzənfər Musayevə ardıcıl iki zərbə vurdum".

Mövlam Mustafayev qeyd edib ki, Qəzənfər Musayevi öldürmək niyyəti olmayıb: "Kürək nahiyəsinə vurub, ona xəsarət yetirmək istəsəm də, zərbə başından dəydi. Zərbədən sonra Qəzənfər üzü üstə arxa sarı yıxıldı və başından qan axmağa başladı. Qanı görüb qorxdum, evə tərəf qaçdım. Həyətdə arvadıma yaxınlaşaraq qonşumuz Qəzənfəri su bərəsinin yaxınlığında bellə vuraraq öldürdüyümü bildirdim. Arvadım buna inanmayaraq dediklərimi zarafat kimi qəbul etdi. Beli yaşayış evinin arxasına qoyduqdan sonra evə qalxaraq yataq otağında bir stəkan su içdim.

İstifadə etdiyim və yataq otağında stolun üstündə olan smartfon tipli olmayan mobil telefonu götürərək dəhlizə çıxdım, 102 xidmətini yığaraq bellə qonşum Qəzənfəri vurduğumu bildirdin. 102 xidməti ilə mobil telefonla danışdıqda digər yataq otağından gəlinim, arxasınca isə oğlum və nəvəm çıxdı.

Həmçinin mobil telefonla Bakı şəhərində yaşayan oğluma zəng etdim, hadisə barədə məlumat verdim. Hadisə yerinə polis və prokurorluq əməkdaşları gəldi".

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Mövlam Mustafayev 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan Mövlam Mustafayev apelyasiya şikayəti verib. O, barəsində olan cəzanın yüngülləşdirilməsini istəyib.

Həmçinin hökmdən narazı qalan zərərçəkmiş şəxsin hüquqi varisi tərəfindən də apelyasiya şikayəti verilib. O, Mövlam Mustafayevin cəzasının 14 ilə qədər artırılmasını istəyib.

Tərəflərin şikayətinə baxılması üçün Şəki Apelyasiya Məhkəməsinə göndərilib. Hakim Akif Eyvazovun sədrliyi ilə baş tutan iclasda hər iki tərəfin şikayətinin dəlilləri araşdırılıb, sonda qərar elan edilib.

Nə təqsirləndirilən, nə də zərərçəkmiş şəxsin hüquqi varisinin şikayəti təmin olunmayıb.

# Abşeronda ər arvadına dəhşətli işgəncə verdi, dərəyə atdı - Təfərrüat

***Abşeron rayonunda arvadına işgəncə verməkdə ittiham olunan 1986-cı il təvəllüdlü Elvin Rüstəmovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Elvin Rüstəmov Müşfiqabad qəsəbəsində yaşadığı evə mütəmadi sərxoş vəziyyətdə gəlməsinə görə arvadı Bənövşə Məhərrəmova ona irad tutub.

Bu səbəbdən onların arasında bir neçə dəfə münaqişə yaranıb. Elvin Rüstəmov 2009-cu il təvəllüdlü oğlunun gözləri qarşısında Bənövşə Məhərrəmovanın bədəninin müxtəlif nahiyələrinə təpik-yumruqla zərbələr enidrib, ona müxtəlif dərəcəli bədən xəsarəti yetirib.



Bundan başqa, Elvin Rüstəmov dəfələrlə arvadını döyüb, ona müxtəlif formalarda işgəncə verib.

İstintaq orqanı tərəfindən Elvin Rüstəmovun barəsində Cinayət Məcəlləsinin 127.2.2-ci (xüsusi amansızlıqla, o cümlədən zərərçəkənə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxs barəsində qəsdən sağlamlığa az ağır zərər vurma) və 133.1-ci (mu məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə) maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Elvin Rüstəmov elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, qeyd edib ki, Şamaxı rayonu, Böyük Xınızlı kəndində qeydiyyatda olmaqla Abşeron rayonu, Müşfiqabad qəsəbəsində ailə üzvləri ilə birlikdə yaşayır: "Rəsmi olaraq heç bir yerdə işləmirəm. 2008-ci ildə Bənövşə ilə ailə həyatı qurmuşam. Əvvəllər münasibətimiz normal olsa da, son zamanlar Bənövşə ilə yola gedə bilməmişik.

Yaşadığım evdə olanda Bənövşəyə qapıda dayanmamağı və evə keçməyini dedim. O, sözümə baxmayıb evə keçmədi. Buna görə aramızda mübahisə yarandı. Mübahisə zamanı yaşadığımız evə keçdik. Orada mübahisələrimiz davam etdirdik. Həmin vaxtı əsəbləşdiyim üçün Bönövşənin bədəninin müxtəlif nahiyələrinə yumruq və təpiklə vurdum. Həmin vaxtı azyaşlı oğlumuz bizi ayırdı.

Sonradan Bənövşənin qolu sındığı üçün ondan polisə müraciət etməməsini xahiş etdim. Bənövşə ilə birlikdə sınıqçının yanına getdik, sınıqçıda Bənövşənin qolunu sarıdılar. Bundan sonra Bənövşə ilə aramızda yenə mübahisələr oldu".

Təqsirləndirilən şəxsin ifadəsinə görə, növbəti mübahsilərindən sonra Bənövşə hadisə ilə bağlı Abşeron rayon Polis İdarəsinin Qobu polis bölməsinə müraciət edib: "Bənövşənin sözümə baxmadığı üçün döydüm. Məni Qobu polis bölməsindən çağırsalar da, polisin çağırışlarına getmədim. Bənövşə ilə aramızda mübahisələr isə davam etdi.

Bənövşə sözümə baxmadığı üçün aramızda yenə mübahisə baş verdi. Əsəbləşərək Bənövşənin bədəninin müxtəlif nahiyələrində təpik-yumruqla vuraraq xəsarət yetirdim. O da polisə müraciət etdi. Abşeron rayon Polis İdarəsinin əməkdaşları məni yaşadığım evin yaxınlığında saxlayaraq polis idarəsinə dəvət etdilər. Bundan imtina etməyərək polislərlə birlikdə polis idarəsinə gəldim".

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Bənövşə Məhərrəmova bildirib ki, Elvin Rüstəmovla 2008-ci il tarixdə ailə həyatı qurub: "Birgə nikahdan bir övladım var. Ailə həyatı qurduqdan sonra münasibətlərimiz normal olsa da, son zamanlar Elvinlə aramızda ailədaxili münasibətlər pozulub. Elvin evə tez-tez içkili vəziyyətdə gəlir, mənimlə mübahisə edir, evdə söz-söhbət yaradır".

Bənövşə Məhərrəmovanın sözlərinə görə, növbəti dəfə Elvin evə içkili vəziyyətdə gəlib: "Ona irad bildirdim. Bunun üstündə mübahisə baş verdi. Elvin yumruqla başıma vurmaq istəyərkən əlimi başıma tutdum. O, yumruqla zərbə vurdu və sol qolumdan xəsarət aldım. Bununla bağlı polisə şikayət etmədim, yaxınlıqda qonşumuz olan sınıqçının yanına getdim, qolumun sındığını dedim. Sınıqçı da qoluma sarğı qoydu".

Bənövşə Məhərrəmova qeyd edib ki, bu hadisədən sonra gecə saat 1 radələrində Elvin yenə evə içkili vəziyyətdə gəlib: "Elvin mənimlə mübahisə etməyə başladı. Mən də ona içməyi ilə bağlı etirazımı bildirdim. Elvin sağ yanaq nahiyəmdən, bədənimin müxtəlif nahiyələrindən təpiklə və yumruqla vurdu. Mən də hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin 102 xidmətinə və Abşeron rayon Polis İdarəsinin Qobu polis bölməsinə müraciət etdim. Sonra polis əməkdaşları məndən ərizə və izahat aldılar".

Bənövşə Məhərrəmova bildirib ki, bundan başqa Elvin evdə 700 qramlıq şüşədə olan araq içib və sonra yatıb: "Sonra mən də yatdım. Az bir vaxt keçməmiş Elvin ayağa durdu, məndən bayıra çıxmağımı dedi. Çöldə havanın soyuq olduğunu söylədim. O, səbəbsiz yerə yumruq-təpiklə başıma, sifətimə, bədənimin müxtəlif nahiyələrinə vurdu. Həmin günü Elvin məni evdə döyərkən orada heç kim olmayıb".

Zərərçəkmişin sözlərinə görə, səhəri gün saat 21 radələrində Elvin yenə evdə araq içib və onu döyüb: "Mən də onun əlindən çıxaraq bayıra qaçdım. Evin qarşısında yamac hissədə Elvin mənə çatdı, orada yumruqla vuraraq məni yerə yıxdı. Yamacdan təxminən 15 metr dərəyə yuvarlanaraq oraya düşdüm. Sonra dərədən çıxıb polisə zəng etdim".

Bənövşə Məhərrəmova ifadəsinin sonunda əri ilə barışdığını, onu bağışladığını söyləyib.

Abşeron rayon Məhkəməsinin hökmü ilə Elvin Rüstəmov 2 il 7 ay 8 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunub.

Təqsirləndirilən şəxs azadlığın məhdudlaşdırılması cəzasını çəkdiyi müddətə elektron nəzarət vasitəsi tətbiq edilməklə, üzərinə Abşeron rayonu, Bakı şəhəri ərazisini və saat 23.00-dan saat 06.00-dək yaşayış yerini tərk etməmək, elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək, müvafiq məhkəmə qərarı olmadan yaşayış yerini dəyişdirməmək, habelə cəzanın icrasına nəzarət edən orqanı iş yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırmaq kimi vəzifələr qoyulub.

Hökmün icrası Sumqayıt şəhər Probasiya şöbəsinə həvalə edilib.

# Əli Vəliyev: "Biz AtaSığorta ailəsi olaraq müştəri məmnunluğunu daim ön plana çəkirik"

***FED.az biznes-maliyyə portalı "AtaSığorta" ASC ilə birgə "Filiallarımızı Tanıdaq" adlı uzunmüddətli layihəsini uğurla davam etdirir. Layihənin növbəti müsahibi "AtaSığorta" ASC-nin "Paytaxt" filialının direktoru Əli Vəliyev olacaq.***

***Hörmətli Əli müəllim, özünüz haqqında qısa məlumat verməniz xahiş edirik . (təhsil və iş təcrübəsi)***

Hamınızı salamlayıram və FED.az saytının rəhbərliyinə və bu lahiyənin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Mən 1987-ci ildə M.F.Axundov adına APRDƏİ fərqlənmə diplomu ilə bitirmişəm. 1987-1990-cı illərdə Zərdab rayonu Məlikumudlu kənd orta məktəbində müəllim işləmişəm.



1990-cı ildən etibarən sığorta sistemində işləyirəm. Belə ki, 1990-cı ildən 1993-cü ilə kimi "Azərsığorta" ASC Binəqədi rayon agentliyində sığorta agenti vəzifəsində işləmişəm. 1993-1995-ci illər "Qayğı Sığorta"ASC Binəqədi rayon agentliyinin direktoru, 1995-2002-ci illərdə "Qayğı Sığorta" ASC-nin baş direktoru, 2002-2005-ci illərdə "Abşeron Sığorta" ASC-nin baş direktoru, 2006-2011-ci illərdə "Fidansığorta" ASC İdarə Heyətinin sədr müavini, 2012-2015-ci illərdə "Sənaye Sığorta" ASC-nin "Bakı" nümayəndəliyinin rəhbəri, 2016-cı ildə "Standart Insurance" ASC-nin "Bakı" filialının müdiri vəzifələrində işləmişəm. 2017-ci ildən "Atasığorta" ASC-nin "Paytaxt" filialının direktoru vəzifəsində işləyirəm. "Sığorta fəaliyyəti haqqında" qanuna müvafiq olaraq 2008-ci ildən Sığorta agenti kimi müddətsiz lisenziyam var. Sığortaçının rəhbər işçilərinə qoyulan tələblərə əsasən attestasiyadan keçmişəm.

***"Paytaxt" filialı nə vaxtdan fəaliyyət göstərir və müştərilərə daha çox hansı məhsullar təqdim edilir?***

-"Paytaxt" filaialı 2017-ci ildən fəaliyyət göstərir. Filialda 5 nəfər ştat işçisi var. Biz filial olaraq respublikada sığorta bazarındakı vəziyyəti daim müzakirə edir və işlərimizi buna uyğun qururuq. Biz sığorta fəaliyyətində olan dəyişiklikləri, yeni qayda və qanunları birlikdə müzakirə edərək işimizə tətbiq edirik. "AtaSığorta" ASC 26 könüllü və 4 icbarı sığorta növü üzrə müştərilərə xidmət göstərir. "Paytaxt" filialı əsasən nəqliyyat vasitələrinin kasko sığortası, səfər sığortası, əmlak sığortası, üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, yük sığortası, tibbi sığorta, nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin sığortası növləri üzrə məhsullar təqdim edir.

***Əhali tərəfindən hansı sığorta məhsuluna üstünlük verilir, yəni müştərileriniz nümayəndəliyinizə daha çox hansı məhsulla bağlı müraciət edir?***

-Biz "AtaSığorta" ailəsi olaraq müştəri məmnunluğunu daim ön plana çəkirik. Müştərilərə keyfiyyətli xidmət göstərmək filialın əsas iş prinsipidir. Filial olaraq müştərilərə "AtaSığorta" ASC-nin xidmət göstərdiyi bütün sığorta növlərini təqdim edirik. Ancaq müştərilər əsasən nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, nəqliyyat vasitəsinin kasko sığortası, səfər sığortası, daşınmaz əmlakın icbari sığortası, üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, əmlak sığortası, yük sığortası və s. kimi sığorta növlərindən daha çox istifadə edirlər. Biz könüllü sığortalardan hər bir məhsulun bir neçə növünü müştəriyə təqdim edirik. Məsələn, müştərinin nəqliyyat vasitələrinin kasko sığortası üzrə Avtodost, Məsləhətli Kasko, Petrollu Kasko və s. sığorta məhsulunu seçmək imkanı vardır. İşçilərimiz müştərilərə istədikləri hər bir sığorta məhsulu haqqında geniş məlumat verir, onları maraqlandıran sualları izah edir və onlara sığorta məhsulu seçməkdə yardım edirlər.

***Əmlakın icbari sığortası ilə bağlı əhali arasında hansı təbliğat-təşviqat işləri görülür? Ümumiyyətlə, bu sığorta növü üzrə yığımların artırılması istiqamətində filial tərəfindən hansı addımlar atılır?***

-Respublikamızda daşınmaz əmlakın icbari sığortası daha çox inkişaf etməlidir. Çünki son illər baş verən təbii fəlakətlər, yanğınlar hüquqi və fiziki şəxslərin əmlakına böyük zərərlər vurur və onlar bu zərərin ödənilməsini dövlətdən istəyirlər. Dəymiş zərərin isə dövlət tərəfindən tam ödənilməsi mümkün deyil. Bilirsiniz ki, nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayanlar müvafiq qaydada cərimələnirlər. Bu növdən isə sığorta olunmayanların cərimə olunması mexanizmi yoxdur. Keçən il elan olundu ki, əmlakı sığorta olunmayanlar müvafiq qaydada cərimələnəcəklər. Buna görə də 2019-cu ilin dekabr və 2020-ci ilin yanvar, fevral aylarında bu sığorta növü sürətlə inkişaf etməyə başladı. Ancaq mart ayında elan etdilər ki, bu növə görə cərimə tətbiq olunmayacaq və bu növün aparılması yenidən aşağı düşdü.

"Paytaxt" filialı olaraq daşınmaz əmlakın icbari sığortasının inkişaf etdirilməsi üçün yerli bələdiyyələrlə, təşkilatlarla görüşlər keçiririk. Bütün müştərilərimizə zənglər edirik, onlara əmlakın sığorta olunması haqqında smslər göndəririk. Müştərilərə bu sığorta növünün üstünlüklərini izah etməyə çalışırıq. Bu növdən reklam xarakterli bukletlər paylayırıq, binaların girişlərində elan löhvələrində bu növdən məlumat xarakterli şəkillər asırıq. Çalışırıq ki, bu sığorta növünü də digər sığorta növləri kimi inkişaf etdirək.

# Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yaradılıb



***"Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Fərman imzalayıb.

Fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb. Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirəcək.

Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi, o cümlədən müvafiq beynəlxalq öhdəliklərdən irəli gələn xərclərinin ödənilməsi dövlət büdcəsinin vəsaiti, habelə fəaliyyətindən əldə edilən gəlir, ianələr, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

# Daha 2 küçə təmir edilib



***Paytaxtın Pirallahı rayonu ərazisində 2 küçədə aparılan təmir işləri yekunlaşıb.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən "Unikal"a bildirilib ki, rayonun Süleyman Bağırov və Gənclik küçələrində aparılan təmir işləri artıq bitib. S.Bağırov küçəsinin uzunluğu 2,9 kilometr, Gənclik küçəsinin uzunluğu isə 1,1 kilometr təşkil edir. Aparılan təmir-tikinti işləri çərçivəsində küçələr boyu zəruri olan yerlərdə köhnə örtük sökülüb və yararsız qrunt qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirilib və yol əsası hazırlanıb. Daha sonra isə yeni asfalt-beton örtüyü döşənib. Təmir işlərinin aparıldığı ərazinin sahəsi 24 min kvadratmetr təşkil edir.

Xatırladaq ki, agentlik tərəfindən 2019-cu il ərzində Bakı şəhərinin Pirallahı rayonunun Gürgən qəsəbəsinin uzunluğu 2 kilometr olan daxili yolunda təmir işləri aparılıb.

# Özəlləşdirmə hərracına daha 13 dövlət əmlakı çıxarılacaq




***Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) tərəfindən növbəti hərrac fevralın 2-də təşkil ediləcək.***

ƏMDX-dən "Unikal"a bildirilib ki, hərraca 13 dövlət əmlakı (nəqliyyat vasitəsi) çıxarılacaq. Özəlləşdirməyə çıxarılan əmlakların tam siyahısı ilə burada tanış ola bilərsiniz: (https://bit.ly/2Xejx3T).

Dövlət Xidməti tərəfindən təşkil edilən hərraclarda hər kəsin sərbəst iştirakı təmin olunur. İştirak etmək istəyən şəxslərə seçdikləri dövlət əmlakı üzrə elektron sifariş verməklə yanaşı, hərraclara onlayn qoşulmaq imkanı da yaradılıb. Prosesə marağı olanlar hərrac günü həm Əmlak Xidmətləri Məkanına gəlməklə, həm də elektron resurslardan istifadə etməklə hərracları qeydiyyatsız formada izləyə bilərlər.

Keçiriləcək hərraclarda iştirak etmək istəyən şəxslər xidmətin rəsmi saytına ("emlak.gov.az") və ya Özəlləşdirmə Portalına ("privatization.az") daxil ola, seçim etməklə qeydiyyatdan keçə, dövlət əmlakının ilkin hərrac qiymətinin 10 faizi məbləğində behi ödəyib sifarişçi statusu ala bilərlər. Hərrac günü hər kəs Elektron Xidmətlər Portalından ("e-emlak.gov.az") "Elektron hərrac" bölməsini seçərək onlayn özəlləşdirməyə qoşula bilər.




# Əsgərlikdən sonra gəlib oxumaq istəyirdi, şəhidlik qismət oldu

***44 gün davam edən Vətən Müharibəsinin ilk şəhidlərindən biri də əsgər Tərlan Rövşad oğlu Rzayevdir.***

Tərlan Rzayev 2001-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhərindəki 27 nömrəli orta məktəbdə alıb. Hələ uşaq yaşlarından hərbiyə maraq göstərib. Tərlan Vətənə sevgisini, duyğularını ailəsi ilə tez-tez bölüşürmüş. Səbirsizliklə gözləyirmiş doğma yurdu qarşısında övladlıq vəzifəsini yerinə yetirmək üçün...

18 yaşı tamam olanda həvəslə hərbi xidmətə yollanıb. Hərbi xidmət müddətində komandirlərin rəğbətini qazanıb, mükafatlara layiq görülüb. Sentyabrın 27-də müharibə başlayan gün 1 il 3 ay imiş hərbi xidmətdə imiş Tərlan. Ali Baş Komandanın hücum əmrindən dərhal sonra əsgər yoldaşları ilə irəliyə atılıb. Mühasirəyə düşən yoldaşlarının köməyinə yetişməyə çalışan Tərlan Rzayev Füzuli istiqamətində son damla qədər qanınadək döyüşərək, şəhidlik zirvəsinə yüksəlib.

O kiçik qəlbində çox böyük arzuları var idi Tərlanın. Amma qismətinə qısa və şərəfli həyat yolu yazılıbmış:

Atası Rövşad Rzayev deyir ki, oğlu savaş başlayan günü şəhid olub: "Füzuli rayonunda ilk günlərdə savaş başlayan günü şəhid olub. Füzulinin 4 kəndinin alınması uğrunda döyüşüblər. Əsgər yoldaşları mühasirəyə düşüb. İki saat mühasirədən sonra bunlara əmr verilib səddi yarmaq üçün. Mühasirəni yarıb onları oradan çıxarıb. Bunlar da mühasirəni yaran vaxtı top atıblar ermənilər. Top mərmisi nəticəsində şəhid olub. Qismət olmadı. Əsgərlikdən sonra gəlib oxumaq istəyirdi kompüter üzrə. Sonra da yenidən hərbiyə qayıtmaq istəyirdi. Hərbçi olmaq istəyirdi. Onlar qismət olmadı, amma şəhidlik qismət oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə də şəfa versin!"

Sonuncu dəfə anası Simnarə Səlimova ilə danışıb Tərlan: "Danışdım. Soruşdum ondan, oğlum necəsən? Dedi, ana, narahat olma, yerimiz yaxşıdır, hər şey yaxşıdır. Siz də özünüzdən muğayat olun. Mən də o ərəfədə çalışırdım onun yanına getməyə. Dedim, oğlum yanına gələcəm. Yanıma sözün eşidəndə uşaq dayandı. Dedi, ana yanıma? Dedim, bəli, oğlum, yanına səni görməyə gələcəm. Dedi, ana yollar açıqdır bəyəm? Dedim, hə, oğlum açıqdır. İnşallah, dedi gələrsən. Mən icazə alaram, görüşərik. Yəni mənə müharibə barəsində heç nə demədi, gizlətdi məndən. Mən də bilmədim. Amma səhərisi günü uşağımın şəhid xəbəri gəldi".

Şəhidin babası Həsənbala Rzayev üçün nəvə itkisi çox ağırdır: "Hərbçi olmaq özü gözəl bir şeydir. Özü də ki, hərdən zəng edirdi anasına, birinci zəng vuran kimi məni soruşurdu ki, dədəm necədir, xəstələnməyib. Deyirdim, a bala, sən özün salamat ol. Mənim üçün darıxma, mən lap yaxşıyam".

Şəhid Tərlan Rzayev Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib. Ölümündən sonra təltif olunduğu "Vətən uğrunda" və "'Füzulinin azad olunmasına görə" medalları onun cəsurluğunun, vətən sevgisinin bariz təsdiqidir...

# Dar daxmada çürüyən istedad: "Adi karandaş, kağız almağa imkan yoxdu" - HƏYATIN DİBİNDƏN

***Rəsmə aid çox ləvazimat var. Amma bahadır. Almağa imkanımız yoxdu. Hazırda işlətdiyim karandaşları mənə xaricdə yaşayan bir dostum hədiyyə edib."***

Bunları Lent.az-a 14 yaşlı qəhrəmanımız İsgəndərli Səməd danışır. Yardımlı rayonun Sırıq kəndində yaşayır, Səməd. Rəssamlıq təhsili yoxdu. Amma adi karandaşlarla nələr yaradır, nələr...

Deyir, ən çox Vətən müharibəsinin qəhrəmanlarını çəkir.

- General Hikmət Mirzəyevin məşhur fotosu sosial şəbəkələrdə yayıldı. Onun o əzmli baxışlarını çəkmək istədim. Üzərimdə bir yük, məsuliyyət hiss etdim o an. Baxışlarında müharibənin əzablarını, çətinliklərini verməli idim.




Deyəsən verə bilib də. Generalın gerçək fotosu Səmədin çəkdiyi rəsmdən fərqlənmir.

- Polad Həşimovun da portretini çəkəndə eyni məsuliyyəti yaşadım. Rəsmi çəkən zaman onu gözlərindəki gülüşü, sifətindəki o təbəssüm mənə təsir etdi. Ümumiyyətlə, şəhidlərin gözlərindəki o məğrurluq insana təsirsiz ötüşmür.

Səmədin istedadı ilk dəfə illər öncə, necə deyərlər yaxın qohumu tərəfindən kəşf edilir. Evdə ara-sıra rəsmlər çəksə də, ailədə heç kim onun bu istedadının fərqinə varmırmış.

- Atam deyirdi ki, neynirsən şəkli. Anamın da xüsusi bir münasibəti yoxdu. Heç nə demir. Arada, "get dərsini oxu" söyləyir. Mən onsuz da dərsimi oxuyuram. Müəllimlərim isə paylaşanda görürlər rəsmlərimi.

Səməd heç bir rəssamlıq təhsili almadan, öz üzərində işləməklə, hə, bir də İnternetdə videolara baxmaqla bu səviyyəyə çatıb.

Ən böyük çətinliyi evdə rahat işləmək üçün şəraitin olmaması və rəsm avadanlıqlarını əldə etməkdi. 190-200 qramlıq kağızda çəkilməli olan portretləri, 80 qramlı A4 formatlı vərəqlərdə çəkir. Bu zaman isə kağızın əzilmə, cırılma ehtimalı daha çoxdu.

- Rəsmə aid çox ləvazimatlar var. Amma bahadır. İlk dəfə sadə qələmlə başladım. Elə ilk portretləri də o qələmlə çəkirdim. Hazırda işlətdiyim bu karandaşları mənə xaricdə yaşayan Sabir adlı şəxs təşkil edib. O, Bakıdan kimdənsən xahiş etdi, göndərdilər. Bundan sonra həvəsim daha da artdı. Çəkdikcə gördüm ki, əvvəlki şəkillərlə müqayisədə daha yaxşı işləmişəm. Yaxın çevrəmdən çoxu istəyir ki, portretlərini pulsuz çəkim. Çəkməyəndə də inciyirlər. Bacardığım qədər çəkməyə çalışıram ki, heç kim inciməsin.

Səməd həvəssiz, məcburi nəsə çəkə bilmədiyini deyir. Bir də evdə səs-küy olanda narahat olur, rahat işləyə bilmir. Bir otaqlı, aşağıdakı fotolarda da gördüyünüz kimi qəzalı vəziyyətdə olan bu evdə yaşayır və çalışır bu balaca istedad.

Qəhrəmanımız rəsmlərindən hələki gəlir əldə edə bilmir. Sosial şəbəkələrdə tanınmadığı üçün rəsmlərinə maraq olmadığını deyir. Sifarişlə çəkdiyi portret isə bir dəfə ünvan yanlışlığına görə, geri qayıdıb. Hazırda yeganə gəliri insanların rəsmlərinə baxandan sonra verdikləri dəyər, xoş sözlərdi...

# Bu tanınmışlar Vətən müharibəsində iştirak etdi - Siyahı

***Kulis.az Vətən müharibəsində iştirak edən tanınmış sənət və ədəbiyyat adamlarının siyahısını təqdim edir.***

Müğənni Vüqar Muradov Vətən müharibəsində iştirak edən sənətçilərimizdəndir.

Tamaşaçıların "Küləklər şəhəri" serialından tanıdığı aktyor Nicat Cəlilov da Vətən müharibəsinin başlandığı ilk günlərdən cəbhəyə könüllü yola düşən incəsənət adamlarındandır. O, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib. Qeyd edək ki, Nicat Cəlilovun atası Birinci Qarabağ müharibəsinin iştirakçılarından olub.

"Planet Parin iz Baku" KVN teatrının aktyoru, ssenarist Emil Musayev müharibə başlayandan könüllü ordu sıralarına yazılıb.

Cəbhəyə yollananlar sırasında dijey Rövşən Həsənov da (DJ Roshka) var.

Tanınmış şair Emin Piri səfərbərlikdə könüllü qeydiyyatdan keçib və Vətən müharibəsi başlananda ehtiyatda olan leytenant kimi hərbi xidmətə çağırılıb. Hazırda Şuşadadır.




Tanınmış jurnalist, bir çox sənədli filmlərin ssenari müəllifi və rejissoru İlham Tumas ehtiyatda olan baş leytenant kimik ön cəbhəyə gedib. Hazırda xidmətini davam etdirir. Qeyd edək ki, İlham Tumas Birici Qarabağ müharibəsində N saylı hərbi hissəni tərkibində əlahiddə "Qurtuluş" taborunda Tərtər ətrafında gedən döyüşlərdə iştirak edib.

Yazıçı-jurnalist Taleh Şahsuvarlı zabit kimi döyüşlrədə iştirak edib. O, Vətən müharibəsində baş leytenant rütbəsi alıb. T.Şahsuvarlı daha çox jurnalist kimi tanınsa da ədəbi yaradıcılıqla da məşğuldur. "Canlanma" adlı romanı çap olunub.

QAZILER: Vəkil Aslan İsmayılov ön cəbhədə olan zabit-jurnalisti məhkəməyə verib

Gənc şair Həsən Kür də Vətən müharibəsində iştirak edən qələm adamlarındandır. Həsən Kür ARB telekanalının keçirdiyi məşhur "Xalqın şairi" müsabiqəsinin qaliblərindəndir.

# Deyirdi ki, ata Polad şəhid oldusa biz niyə qorxaq? - REPORTAJ

***Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün... Polkovnik-leytenant Ruslan Tağıyevdə də hər kəsdən və hər şeydən çox sevdiyi Vətəni uğrunda canını fəda etdi.***

Tağıyev Ruslan Fuad oğlu 1982-ci ilin iyunun 12-də İsmayıllı rayon Qubaxəlilli kəndində doğulub. İlk təhsilini İsmayıllı rayon 3 saylı orta məktəbdə alıb. Uşaqlıqdan milli ruhda, vətənpərvərlik əhval ruhiyyəsində böyüyən Ruslanın ən böyük arzusu hərbiçi olmaq olub. Hələ məktəbdə oxuduğu illərdə hərbi oyunlara tez-tez qatılar və hər zaman da qalib gəlib birinci olmaq arzusu ilə yarışardı.

Atası Fuad Tağıyev deyir ki, Ruslan sərrast atış üzrə məktəblilər arasında 3-cü yer tutduğu gündən artıq qəti qərarını verdi. "Hərbiçi olacağam". Valideynləri onun bu fikrindən daşındırmağa çalışsalarda Ruslan inadından dönmədi. Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olan sıravi kursant 2004-2012-ci illərdə Naxçıvanda qulluq edir, 2012 - 2014-cü illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında dinləyici, 2014-2017-də Şəmkirdə N saylı hərbi hissədə, 2017-2020-ci illərdə isə Nazirliyin birinci idarəsinin birinci şöbəsinin baş zabiti olaraq vətənə xidmət edib. 2019-cu ilin fevral və iyul aylarında isə Ruslan Tağıyev təhsilini Çinin Pekin şəhərində davam etdirir: "Poladın ölümü ona o qədər pis təsir eləmişdi ki, ruhsuz vəziyyətdə dinməz, söyləməz elə ortada gəzirdi. O, Poladın dəfninə gəldi onu çiynində yola saldı. Onlar həm də dost idi, qonşu qalırdılar orda. Deyirdi ki, ata elə oğul şəhid oldusa biz niyə Vətən yolunda şəhid olmaqdan qorxaq. İndi də müharibə edib torpağımızı almasaq biz başı aşağı necə gəzə bilərik. O, torpaqlar bizi gözləyir".

Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan Ruslan ailəsi ilə bir neçə saatlıq son görüşündə "məndən nigaran olmayın, mən ya qalib gələcəm, ya şəhid olacam, şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz" deyərək vidalaşıb: "Gəldi həyətdə maşının yanında anası ilə görüşdü, maması ağladı, amma onun səsində bir əzm var idi ki, hər dəfə deyirdi biz qalib gələcəyik. Heç vaxt səsində bir kövrəklik hiss eləmədim. O, hazırlaşıb gəlmişdi vidalaşmağa. Mənimlə görüşəndə mən də kövrəldim, dedim, bala özünü qoru, dedi, ata, hər an hər şey ola bilər. Ona görə hazırlıqlı olun".

Anası Lətifə Tağıyevanın sözlərinə görə, Ruslan hər zaman onları şəhidlik xəbərinə hazırlayıb: "Atasına demişdi ki, ata, bu müharibəni siz udmalı idiniz, sizin uda bilmədiyiniz müharibəni biz udacağıq və gələcək balalarımıza qoymayacağıq qalsın. Deyəndə ki, orda ehtiyatlı ol, deyirdi bu müharibədir, özü də ən qızğın müharibə. Hər zaman şəhidlik xəbərim gələ bilər".

Cəsur polkovnik-leytenantın son döyüş yolu Laçın rayonunun Xanalılar kəndi uğrunda olur. Döyüş yoldaşlarının xatirəsində Ruslan ölümün gözünə dik baxan, cəsurluğu ilə əsgərlərinə nümunə olan kəşfiyyatçı kimi qalıb: "Yoldaşları bizə gələndə danışırdılar ki, döyüşə gedəndə qarşıda gedən özü olurdu. Əsgərləri də onun arxasınca irəliləyirdi. Elə son döyüşü Xanalılarda da Ruslan üç istiqamətdən ən çətin yeri özünə götürərək dərədə döyüşüb. Deyirlər güllə başlarına yağsa da dayanmırdılar. Düşmənin atdığı pulemyot qəlpəsi düz ürəyinə dəyib. Döyüş yoldaşı Babək deyir ki, həmin döyüşdə məni snayper vurdu, yaralandım. Onda gördüm ki, Ruslanı da vurublar. Əvvəl şəhid olduğunu bilmədim. Çağırdım gördüm üzündə bir təbəssüm var. İnanmadım şəhid olduğuna. Sonra gözlərinə baxdım, gördüm, yox, həqiqətən şəhid olub. Onu ayağından çəkib qayalığa gətirdik ki, nəşini xilas edə bilək, orda qalmasın qəhrəmanımız".

Həyat yoldaşı Günay Tağıyeva deyir ki, Ruslan işdən vaxt tapıb evə gələndə ilk işi uşaqlarının təhsili ilə maraqlanmaq olurdu. Ən böyük arzusu övladlarını Vətənə və cəmiyyətə yararlı şəxsiyyət kimi böyütmək idi: "Hər arzuları uşaqlarla bağlı idi. Vaxt tapan kimi evə gələndə uşaqlarla oynayar, onları gəzməyə aparardı, özü təbiəti sevirdi deyə uşaqları da rayonlarda təbiətdə gəzdirirdi".




Ruslanın keçdiyi döyüş yolundan fəxrlə danışan atası deyir ki, Ruslanın həmkar dostları hər zaman onun nizam-intizamından danışardılar. İndi Ruslandan qalan xatirə cəbhədən gələn əşyaları və hamıdan gizli saxladığı, sirlərini bölüşdüyü, atasına əmanət etdiyi gündəliyidir: "Son dəfə ayrılanda maşından bir dəftərçə çıxardı verdi ki, ata, bunu saxla, mən olmayanda oxuyarsan. Mən də heç baxmadım içinə qoydum evə. O, şəhid olandan sonra baxdım gördüm ki, içində döyüş günlərindən xatirələrini yazıb. Gələcək arzuları, şəhid olan döyüş yoldaşlarının xatirələri, müəyyən hərbi qeydlər var o, dəftərdə".

Xanımının sözlərinə görə, övladları Ruslanla qürur duyurlar: "Bəlkə də başqa cür rəhmətə getsəydi, uşaqlar bu qədər olğunluqla qarşılamazdı onun ölümünü. Atalarının ucaldığı zirvənin, şərəfin əslində aliliyini dərk edirlər. Ona görə səbirlə qarşıladılar. Mən bəzən ağlayanda mənə təskinlik verirlər. Onlar daha məğrur dayandılar. Həmişə də deyirlər ki, bizim atamız şəhid olduğuna görə biz atamızdan ayrı qaldıq".

Ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Laçının azad edilməsinə görə" medalları ilə təltif olunub qəhrəman kəşfiyyatçımız. Bu gün II Fəxri Xiyabanda olan məzarı təkcə yaxınlarının deyil, həmdə bütün Azərbaycanın ziyarətgah yeridir.

# Azərbaycan qəhrəmanları poçt markalarında

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərmarka" MMC tərəfindən "Azərbaycan 2020" adlı poçt markaları dövriyyəyə buraxılıb.***




Unikal.org xəbər verir ki, markalar 2020-ci ilin iki ən əhəmiyyətli hadisəsi - koronavirus pandemiyası və Vətən müharibəsinin əsas qəhrəmanlarına həsr olunub.

Birinci markada əsgər və həkimdən, ikinci markada isə dezinfeksiyaçı və minaaxtarandan ibarət fotokollajlar yerləşdirilib. Məqsəd həm pandemiya dövründə virusla mübarizədə, həm də 44 günlük Vətən müharibəsində şücaət göstərən həmvətənlərimizin adlarının markalar vasitəsilə tarixə yazılması, həmçinin onların bu hadisələrdə göstərdikləri fədakarlığın yerli və əcnəbi filatelistlər arasında təbliğ edilməsidir.

Buraxılışda fotoqraflar Roman İsmayılov, Əziz Kərimov və Tofiq Babayevin fotolarından istifadə olunub. Dizaynı "Azərmarka"nın baş rəssamı Vüqar Əyyubov tərəfindən hazırlanmış markalar Belarus Respublikasında hər vərəqdə 8 ədəd, 2 növ marka olmaqla hər növdən 50 min tirajla çap olunub.

Bununla yanaşı, 200 ədəd Birinci gün zərfi də hazırlanıb.

# Tarix yazan tarix müəllimi



***Vətən müharibəsinə vəzifəsindən asılı olmayaraq hər bir vətəndaşımız yollandı. İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadə də könüllü olaraq torpaqlarımızın azad olunması üçün döyüşə qatılıb.***

"Unikal" xezerxeber.az-a istinadən bildirir ki, oktyabrın 14-də Talış kəndi və Suqovuşan istiqamətində gedən qızğın döyüşlərdə, o, əsl igidlik göstərib. Famil Əhmədzadə döyüşlərin birində düşmən gülləsinə tuş gəlib. Dərs dediyi məktəbdə yaratdığı tarix muzeyinə onun unudulmaz, şərəfli adı verilib.

Onun təşəbbüsü ilə Tarix-Diyarşünaslıq Muzeydə toplanmış eksponatlar şagird və müəllimlər tərəfindən ilk gündən böyük rəğbətlə qarşılanıb.

Famil Əhmədzadə tək məktəbində yox, rayonda da aktiv müəllimlərdən biri olub.

Valideynləri də bütün rayon ictimaiyyəti kimi şəhid olmuş müəllim oğulları ilə qürur duyurlar.

İndi onun adı əbədi olaraq bu muzeydə yaşadılacaq.

# Ermənilari Xudavənga buraxmadılar

***Erməniləri Kəlbəcər rayonunun Vəng kəndində yerləşən Xudavəng monastırına buraxmayıblar.***



Unikal.org xəbər verir ki, bu barədə Xudavəngi ziyarət etmək istəyən Ermənistan sakini Yevgeniya Yengibaryan öz feysbuk hesabında yazıb.

"Milad günü xoşagəlməz hadisə ilə başladı. Rəfiqəm ilə Xudavəngə gedə bilmədik. Ora səfərlərin hər bazar olmasına baxmayaraq, məhz bu gün orada olmaq istədik. Bizim 40 nəfər olmağımıza baxmayaraq, həmçinin ziyarət etmək istəyənlərin sayında məhdudiyyətin olmaması bildirilsə də, bizim tərəf (Ermənistan tərəfi) yalnız 30 ziyarətçini türklərlə (Azərbaycan tərəfi) razılaşdırıb. Nəticədə üçüncü avtobusdan hamını düşürdüblər. Hə, Xudavəngi ziyarət etmək düşmənlə razılaşdırmadan asılıdır. Salam, yeni reallıq. Səninlə necə barışıb və dəli olmamaq - məsələ budur", - o qeyd edib.

# On bir illik ülvü sevgini, ana məhəbbətini Vətən yolunda qurban verən şəhid

***...Vətən göylərində əbədi parlaq günəşə çevrilən, ürəklərdə daima çağlayan bulağa bənzər, dan ulduzu kimi bərq vuran və qəhrəman el oğlumuz şəhid Elvin Mahmud oğlu Məmmədovdur. Şəhadətə qovuşan Azərbaycanımızın hər bir vətəndaşından, illərlə işğal altında qalan - torpaqlarımızın azadlığı uğrunda - ana məhəbbətindən, qardaşlarının, dostlarının, əzizlərinin istəyindən keçən, hətta 11 illik ülvü sevgini qurban verən - Zaqatalalı Elvin el oğlumuzdan söhbət açırıq.***

Belə insanlar dünyaya nadir hallarda gəlirlər... və həyatda-tarixdə silinməz iz qoyub gedirlər... minlərlə insanın ürəklərinə yol tapırlar, ancaq müsbət keyfiyyətləri ilə...

...Bu Vətən Savaşında ölməzliyə qovuşan Elvin Məmmədov cəmi 28 il ömür sürdü, amma çox mənalı ömür sürdü, gəncliyə örnək olası ömür... Hətda uşaqlıqdan, məktəb illərindən çox çətinliklərlə üzləşib. O, heç vaxt istəməyib ki, valideynlərinə, qardaşlarına, qohum-əqrəbaya, dostlarına əziyyət versin... Nə qədər çətin olsa da öz zəhməti ilə nəyəsə nail olurdu Elvin...

O, 1992 -ci il oktyabr ayının 3 -də Zaqatala şəhərində sadə, zəhmətsevər bir ailədə dünyaya göz açmışdır. Məmmədovlar ailəsinin son beşiyi, yəni 3 qardaşın sonuncusu idi Elvin. Buna görə də uçaqlıqdan hamı Elvinin xətrini çox istəyirdilər. Ailəsində olarkən məlum oldu ki, anası Tahirə xanım uzun illərdir ki, Zaqatala Rayon Mərkəzi Xəstəxanasında çalışır və kollektivdə böyük hörməti var. Atası Mahmud isə 2019 -cu ilin dekabr ayının 15 -də ağır xəstəlikdən dünyasını dəyişib. Mərhum zəhmətkeş insan və təcrübəli maşın ustası olub.

Elvin Zaqatala şəhər, Şıxəli Qurbanov adına 3 saylı tam orta məktəbini əla qiymətlərlə bitirib. Uşaqlıqdan arzusu ali təhsilli bank işçisi olmaq idi Elvinin. Böyük qardqaşı ali təhsilli hüquqşünasdır və 2 övlad atasıdır Nizami Məmmədov söhbət zamanı bildirdi ki, şəhid qardaşı son beşik olmasına baxmayaraq, ərkəsöyün olmayıb, tərbiyəli, ağıllı, dərrakəli, səliqəli və xoş rəftar idi. Həmişə dərslərinə ciddi hazırlaşar, valideynlərinin, qardaşlarının sözündən çıxmaz, ev işlərində kömək edərdi, səliqəli geyinər və dərs məşğələlərinə gecikməzdi Elvin. Qardaşı söyləyir ki, "təhsil aldığı 3 saylı tam orta məktəbin müəllimləri onun dərs davamiyyətindən, dərs məşğələlərindən, tədbirlərdə fəal iştirak etməsindən, davranışından həmişə razılıqla danışardılar. Məktəbdə onun çoxlu dostları vardı, xoş, mülayim xasiyyətili, sözü bütöv olduğuna görə oğlanlar da, qızlar da Elvinin xətrini çox istəyirdilər. Texniki fənlərə daha çox meyilli olsa da, vətənpərvərlik tarixi, hərbi mövzulardan, məktəbdə keçirilən dikusiyalardan, tədbirlərdən və yarışlardan, müsabiqələrdən kənarda qalmazdı Elvin" - deyir, şəhidin böyük qardaşı Nizami.

Öyrəndik ki, Elvin Məmmədov hələ məktəb illərində ölkəmizin hərb tarixi, sərhədlərimiz, Milli qəhrəmanlarımız, Qarabağ məsələsinin necə yaranması, torpaqlarımızın necə işğal olunması ilə bağlı bilgilər toplayırmış. Tez-tez dostları ilə Zaqatalanın tarixi yerləri və tarixi faktlarla maraqlanarmış. Rus imperiyasının işğalçılıq siyasəti nəticəsində erməni daşnaklarının bütöv Azərbaycanın ərazisində yerləşdirməsini, hiyləgər düşmənin məkirli siyasəti ilə torpaqlarımızı havadarlarının köməkliyi ilə necə zəbt olunmasını daima öyrənirdi. Çünki, o, dünyaya gələndə artıq düşmənlərimiz bizə qarşı çirkin niyyətlərini həyata keçirirdi...

Əlbəttə ki, onun uşaq yaddaşı, eşitdikləri, görüdkləri bunları götürqoy edirdi. Dərin düşüncəyə malik olan qəhrəman el oğlumuz bütün bunlara biganə yanaşa bilməzdi. Sözün düzü, əslində analar öz oğullarını - övladlarını daha yaxşı, daha yaxından tanıyırlar. Axı övlad üçün ən çox əziyyət çəkənlər, onların dərdlərinə şərik olanlar valideynlərdir.

"...Ana üçün bütün övladlar əzizdir, baldan şirindir. Şükürlər olsun ki, üç oğlumun üçü də çox ağıllı, çox kamallı, hər bir vəziyyəti dərhal anlayandır, zəhmətsevər, halallıqla böyüyəndirlər, zəhmətkeş və vətənpərvərdirlər. Elvinimin aləmizdə öz yeri var idi. Arzusuna, niyyətinə çatmaq üçün əziyyətlərə qatlanardı, biz valideynlərə əziyyət vermədi. Onun hər bir hərəkəti, dostnan-dost kimi, qardaşnan-qardaş kimi, böyüknən-böyük kimi, kiçiknən kiçik kimi deavranardı Elvin balam" - deyə, Tahirə xanım söhbətimizə qoşuldu...





Tahirə xanım onu da qeyd etdi ki, "mənim balam bir yox, iki müharibənin iştirakçısıdır. Duyğulu, arzuları çox idi, Elvinimin. Atası ailəni dolandırmaq üçün Rusiya Federasiyasına gedəndə çox narahatlıq keçirmişdi Elvin. Demişdi ki, "əzizim ata, niyə qərib ölkəyə gedirsən, biz ölməmişik ki, işləyəcəyik, qazanc əldə edəcəyik. Mən də, qardaşlarım da artıq böyümüşük, sən uzaqlara getmə". Ali təhsil almaq, bir işin qulpundan yapışmaq, ailəyə qazanc gətirmək və ailə qurmaq onun ən böyük arzusu idi. Milli Ordu sıralarına, həqiqi hərbi xidmətə gedəndə həvəslə, ürəklə, çəkinmədən getmişdi. Ona hərbi mündir də yaraşardı. Goranboy-Tərtər kimi cəbhənin ən qaynar ön hissələrində xidmət edirdi. Hərbi sirləri, döyüş texnikasını peşəkarlıqla öyrənmişdi. 2016 -cı ilin 18 aprel döyüşlərində iştirak etmiş, bir hərbiçi kimi əsil şücaət göstərmiş və özünü doğrultmuşdur. Elvin sanki bu döyüşlərdə bir sınaq məktəbini keçmişdi və Vətən Müharibəsində iştirak etməyə təminat yaratmışdı. Aprel döyüşlərində o, düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhf etmişdi. Xidmət etdiyi N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Əflatun Nurəliyev döyüş və ictimai-siyasi hazırlıqdqa əldə etdiyi nailiyyətə görə Elvini Fəxri Fərmanla təltif etmiş, bizin adımıza onun imzası və möhürü ilə təsdiqlənən Təşəkkür məktubu göndərmişdir. Bəli, cəsur Elvin balamız əlaçı əsgər kimi Vətənimizə xidmət etmişdi...

Amma o, çox yaxşı başa düşürdü ki, başlar tam əzilməmiş, mənfur düşmən nə vaxtsa yenə də məkrli niyyətini həyata keçirəcək... O, həmişə bunlardan narahat idi. Mən nə biləydim ki, müharibə başlayacaq, oğlum Elvin azğın düşmənlə döyüşəcək və... ana ürəyinə sağalmaz dağ çəkəcək... 2019 -cu ilin dekabr ayının 19 -da həyat yoldaşımı itirdik, 2020 -ci ilin oktybar ayının 15 -i isə kişi qeyrətli, kişi namuslu, nəslimizin fəxri olan, son beşiyimizi - Vətən yolunda fəda verdik... Ömürlərinin şirin çağlarında, öz körpə balalarını doyunca əzizləməyən, oğullar itirən analar necə təsəlli tapsınlar, qiymətsiz oğulların yoxluğuna necə alışsınlar..."

...Bu qürurlu anaya min-min alqış deyirəm, onun qarşısında bir igid, vətənpərvər, mərd və Vətənimiz uğrunda həlak olan şəhid Elvin Məmmədovun anası kimi dəfələrlə baş əyirəm...

Şəhid - igidimizin qardaşları Nizami və İlqar söyləyirlər ki, Elvin hələ ermənilərin Tovuz rayonundakı təxribatından sonra demişdi ki, əgər müharibə başlasa könüllü cəbhəyə gedəcəkdir. Sentyabr ayının 21 -də Elvin Məmmədov hərbi təlimlərdə iştirak etmək üçün hərbiyə çağırıldı. Qardaşalrı onda anladılar ki, müharibə qaçılmazdır. Onlar Elvini saxlatdırıb, özləri könüllü hərbi təlimlərə qatılmaq istəyiblər. Lakin, o, buna razılıq verməyib.

Yuxarıda qeyd etdiyim kimi bu müharibədə təcrübəli, qorxmaz və cəsur döyüşçü olmuş Elvin Məmmədov 11 illik ülvü, möhkəm məhəbbətini və sevgisini də Vətən yolunda, bütövlüyümüz, azadlığımız uğrunda əbədiyyətə yazdı. Əsil, namuslu - qeyrətli oğul kimi qəhrəmanlıq dastanı ilə yanaşı unudulmaz sevgi dastanını yaratdı - sevən gənclərə nümunə olacaq... Bu gün isə ondan əmanət qaldığı, ürəkdən sevdiyi həyat yoldaşı Xəyalə xanım və bir də ki, hələ 10 aylıq olan şəhidimizin doyunca əzizləmədiyi, yetərincə gəzdirmədiyi, şirin-şəkər qızı Ahunurdur. Hələ də Elvinin yoxluğuna inanmayan, Vətən fədaisinin həyat yoldaşı ilə görüşüb, söhbət etmək mənim üçün çox çətin idi... Çünki gənc yaşlarında az müddət bir yerdə yaşadığı ailə başçısını itirən qadının hansı hisslər keçirdiyi məlum idi. Onu qarşıda enişli, yoxuşlu yollar gözləyirdi... körpə qızının məsuliyyəti, qayğıları və s... Xəyalənin dedikləri: "Bəlkə də səhf edərəm, müasir dövrdə Elvin kimi həyatın hər bir incəliklərini dərk edən, mətin iradəli, müsbət keyfiyyətlərə malik, qarşılıqlı hörmət saxlayan, niyyətini həyata keçirmək üçün, ancaq halallıqla, zəhməti ilə nail olan şəxslər nadir hallarda olur. Çünki, mən onu 2009 -cu ildən tanıyırdım. Öncə etibarlı, sözü bütöv insan olduğunu bilirdim. Biz bir-birimizə çox bağlı idik. Axı, on bir illik sevgi və məhəbbətimiz bizi hər bir sınaqdan çıxarmışdı. Elvin Gürcüstan Respublikasında İqtisad Universitetinin maliyyə-kredit fakültəsini bitirmişdi. Amma doğma Vətənində iş tapmamışdı, Ordu sıralarında layaqətlə xidmət etmişdi. Ağır 16 aprel 2016 -cı il döyüşlərində mərdliklə iştirak etmişdi. Mən onun cəsurluğu ilə qürur duyurdum. Həmin döyüşlərdə hərbi peşəkarlığını artırmışdı. Hərbi xidməti başa vurduqdan sonra Elvin yenə də ixtisası üzrə iş axtarıb, lakin iş tapa bilmədiyindən Türkiyə Respublikasına işləməyə gedib. O, həmişə deyirdi ki, bir iş tapmamış ailə həyatı qurmayacaqdır. Çoxlu çətinliklərdən sonra, nəhayət dərman şirkətlərinin birinə imtahanı uğurla verdikdən sonra işə qəbul olundu. O, böyük arzulara yaşayırdı. Ən böyük arzusu isə ailə qurub, yaxşı ev şəraiti yaratmaq və xoşbəxt yaşamaq idi... 2019 -cu ilin mart ayının 20 -də biz ailə həyatı qurduq. Yaşadıqları evdə darısqallıq olduğuna görə biz kirayədə yaşamalı olduq. Buna baxmayaraq, Elvinlə çox mehriban yaşayırdıq. Bir tikəmizi ortadan bölürdük. Övladımız, qızımız Ahunur dünyaya gələndə Elvinin sevincinin həddi-hüdudu yox idi... O, həmişə nikbin olsa da narahat görünürdü... Övladını, mənimlə bərabər dünyalar qədər istəyirdi... Nəhayət...

21 sentyabr 2020 -ci il gəldi. Elvin hərbi təlimlər adı ilə cəbhə bölgəsinə, Tərtər rayonuna getdi. Hərbiyə gedəndə mənə demişdi ki, nigaran qalma, narahat olma, hər şey yaxşı olacaq, biz tezliklə görüşəcəyik... Sentyabr ayının 27 -də azğın düşmənlə müharibəyə başlayanda isə hər şeyi anladım... Elvinin hərbi təlimlərdən sonra döyüşlərə getdiyini bildim. O, cəbhənin ən qaynar nöqtəsində olsa da, telefonnan danışardı. Sizin özünüzdən və balamdan muğayat ol, məndən nigaran qalmayın - deyirdi. Amma Eıvin bizə müharibədən heç nə danışmırdı. Əsil hərbiçi tək hərbi andına sadiq qalaraq cəbhədə nələr baş verdiyindən bizi məlumatlandırmazdı, narahat olmayaq deyə... Sonradan eşitdim ki, Elvin sərrast atıcı kimi Tərtər-Goranboy-Ağdam-Ağdərə istiqamətlərində gedən döyüşlərdə əsil vətənpərvər kimi döyüşüb. Çoxlu mövqelərimizin, dağ yüksəkliklərimizin mənfur düşməndən azad olunmasında fədakarlıq göstərib. O mənimlə sonuncu dəfə oktyabr ayının 15 -də günorta saat 13-14 radələrində telefonla danışdı. Dedi ki, özünə və qızına yaxşı bax... Danışığında nəsə təlaş hiss etdim, çox nigaran qaldım"

Qəhrəmanımızın həyat yoldaşı deyir ki, "Elvin elə həmin gün Ağdərənin azad edilməsi uğrunda erməni mənfurları ilə gedən qızğın döyüşlərdə ağır yaralanaraq, Vətənimizin xilaskar, mərd oğlu kimi qəhrəmancasına həlak olub"

Məlumatlara görə Elvin Məmmədovun şəhid olduğu döyüşdə, düşmən güclü müqavimət göstərsə də hərbiçilərimiz dığaları susdurub, çoxlu sayda canlı qüvvəsini və texnikasını sıradan çıxardaraq, düçmənlərə sarsıdıcı zərbələr vurublar.

Xəyalə xanım söhbətinin davamında söylədi ki, "Elvinin həlak olması xəbərini 16 oktyabr 2020 -ci il tarixdə saat 10:30 -da aldıq... Elə bil dünya başımda fırlandı, anamgildə idim, qışqıraraq dedim - Axı niyə belə etdin, Elvin?... Sən mənə demişdin ki, hər şey yaxşı olacaq, tezliklə dönəcəyəm... Bəs gələcəkdə Ahunur səni soruşanda nə cavab verim - ay Elvin?" - deyə əlavə etdi...

Qeyd edək ki, Elvin həm də cüdo üzrə idman ustası və dəfələrlə yarış və turnirlərin qalibi olmuşdur. Onun adı şəhid idmançı kimi Cüdo Federasiyasının Şərəf kitabına yazılıb.

...Deyirlər "Vətən ürəkdə şəhidlə bitər..." Ürəyində daima Vətən sevgisi gəzdirən, 2016 -cı ildən bəri Goranboy rayonunun Ağcakənd kəndindən başlanan və Yaşmada xüsusi təlimlərdən keçən hərbi yolu - Bu Vətən müharibəsində şəhid kimi başa vurdu - igidimiz Elvin...

Ruhun şad olsun, Allah sənin əzizlərinə həsrətlə yolunu gözləyən Xəyalə xanıma - Ahunur balana Allah səbr versin - zaqatalanın fədakar oğlu.

Prezidentin Sərəncamı ilə cəsur eloğlumuz Elvin Məmmədov ölümündən sonra "Vətən Uğrunda" Medalı ilə təltif edilib.

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Dərd, sevgi, sənət və həyat ortaqları: ölümləri də bir bəladan oldu - Həyat hekayəti

***Son mahnısı “Şəhid anasıyam” mahnısıdır. Deyirdi, onları düşünəndə öz oğlumu ağlamağa utanıram. Mahnını özü ifa edib, klip çəkilib, qəhər boğazında, yanıqlı, ürəkdən oxuyur; oxumur, yaşayır mahnının dərdini. O ürəyin sahibi çox yaşaya bilməzdi...***

Mahnılarının yarısından çoxu vətənə həsr edilib, vətən haqqındadır. Üç gün əvvəl bir vəfalı qadın, fədakar ana, gözəl bəstəkar, vətənpərvər insan köçdü bu dünyadan. Bu dünyada yaxşı izini qoyub köçdü.

Xor Aranjemanı, Alətşünaslıq, Musiqi və onun tədrisi haqqında 67 elmi məqalə və Ali məktəblərdə Bakalavrın hazırlığı üçün proqramların müəllifidir. 30-dan çox xalq mahnılarının, bəstəkar mahnılarının xor üçün işlənilməsi. (Laçın, Küçələrə su səpmişəm, Qara tellər, Uşaq ritmik muğamı, Ulduzlar, Darıxma, Yaşa könül və s.500-dən artıq mahnının müəllifidir.

***

Nailə Mirməmmədli 1961-ci ildə Bakıda musiqiyə bağlı bir ailədə anadan olub. Atasının ana tərəfdən babası Məşədi Məmməd Fərzəliyev məşhur xanəndə olub. Atasının atası Abdulla Təzəpirdə axund olub, mərsiyələr yazırmış. Onlardan hətta Üzeyir bəy operalarında istifadə edib. Əmisi Əlibaba Abdullayev SSRİ-nin xalq artisti olub. Ailədə əksəriyyəti musiqi təhsili alıb, amma musiqiçi olmayıblar.

Odur ki, Nailənin musiqi təhsili almasına, sənətin ardıca getməsinə heç kim mane olmayıb. Biləndə ki, bəstəkar olmaq istəyir, ona kömək etməyə başlayıblar. Atası tarda gözəl ifa edirdi, amma ticarətçi idi. Nailə atasının sayəsində Emin Sabitoğlu, Mirzə Babayev, Niyazi, Tofiq Bayram, Hüseyn Arif, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəy kimi sənətkarların mühitində böyüyüb. Evin sonbeşiyi olduğundan atası onu özüylə dostlarının evinə aparırmış, Nailə də istədiyi qədər musiqi əhatəsində olurmuş.

1968-1979-cu illərdə Nailə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Fortepiano ixtisası üzrə təhsil alır. Ardınca Pedaqoji Universitetində Musiqişünas, dirijor, xormeyster, vokal, aranjeman, orkestrovka ixtisasları üzrə təhsilini davam etdirib. Bu ixtisasları fərqlənmə diplomu ilə başa vurub.

İkinci kursda oxuyanda Nadir Babayevin “Müəllimlər evi”ndə yaratdığı “Xəyal” instrumental ansamblında fortepiano ifaçısı kimi işə düzəlir. O vaxt çox məşhur olan bu ansamblda ondan əvvəl Hikmət Mirməmmədli işləyirmiş, orduya getdiyindən ifaçı axtarışına çıxıblar. Tam ansambla öyrənib, işi mənimsəyən Nailə bir gün görür ki, bir nəfər məşq zamanı gəldi və hamı işini buraxıb, qaçdı onunla görüşməyə. Məlum olur ki, ondan əvvəlki ifaçıdır və hamının onu çox sevməsini bir az da qısqanır. Deyir ki, mən gedərəm, daha onunla işləyərsiniz. Hikmət isə gəlib görür ki, onun yerinə qız ifaçıdır. Deyib, o qalsın, mən başqa yer taparam.

Hər ikisi Sovetski küçəsində doğulub, yaşayıblar. Anaları bir sinifdə oxuyub, amma heç vaxt rastlaşmayıblar, tanımayıblar bir-birini.

Ansambl Filarmoniyada konsertə hazırlaşırdı. Qrupun rəhbəri Nadir Babayev ifaçıların heç birini itirmək istəməyib, Nailəyə qədər Hikmət əla ifaçı olub, Nailə də itirməli ifaçı deyil. Deyib, konserti verək, sonra baxarıq vəziyyətə, konsertdə ikiniz də olacaqsınız, yarı-yarı ifa edərsiniz. Həmin bu yarı-yarı ifanın məşqləri, konsertin gedişatı onları dostlaşdırıb.

Bir gün Hikmət Nailəyə deyir ki, evlənmək istəyirəm, mənə özün kimi bir qız taparsan? Nailə də çıxır axtarışa. Namizədlər deyir ona. Axır Hikmət deyir ki, axı, sənin kimisi yoxdur, həm musiqidə, həm həyatda bərabər olacağım. Bazar günü ad günündür, bizimkilər də gələcəklər - deyir.

Bəzən tale adamın üzünə elə gülümsəyir ki, özünü xoşbəxtliyin son həddində hiss edirsən. Sonra başına gələnlərdən anlayırsan ki, o məsum təbəssümün arxasında acı istehza varmış. Bəlkə də yoxmuş, amma adama elə gəlir...

Həyatını musiqiyə, sənətə bağlamış bir gənc qız başqa hansı xoşbəxtlikdən danışa bilərdi, əgər onun yanında onu duyan, anlayan, sənətini və həyatını bölüşə bildiyi sevdiyi mükəmməl bir insan varsa. Həm də o insan yalnız onun üçün yaşayır, ona xoş olsun deyə həyatını qurur, bütünlüklə ona həsr edir özünü. Səhərlər gözünün açır ki, Nailəni bu gün də xoşbəxt etsin... Və bu sevgi bir ömür boyu davam etdi.

Hamının qibtə etdiyi bir sevgi, hamının arzusunda olduğu, amma hər kəsə qismət olmayan bir ailə oldu...

1986-cı ildə evlənirlər. Toyda Ağadadaş Ağayev oxuyur. Hikmətlə dost idilər, öz ailə məclisi sayılırdı, hər ikisi Ağadadaşın ansamblında çalışmışdı. Boş günü isə yox idi Ağadadaş Ağayevin. Ona görə də günü o təyin edir.

Hikmətin anası ilə bir yerdə qalırlar. Hikmətin anası da, bacısı da Nailəni doğma qəbul edə bilirlər, hərçənd, Hikmət onların seçdiyini deyil, öz sevdiyi ilə evlənmişdi. Ailəyə özünü sevdirə bilir Nailə.

Tezliklə ilk övladları Seyid Hüseyn dünyaya gəlib, ardınca qızları olub.

Nailə təhsilini davam etdirir.

1994-1997-ci illərdə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasında Musiqişünaslıq və Tofiq Quliyevin sinfində bəstəkarlıq ixtisasları üzrə təhsil alır. Yenə fərqlənmə diplomu ilə bitirir.

Təbii ki, iki uşaqlı ananın, bir ailənin qadının təhsil alması asan məsələ deyil. Bunun üçün ya gərək evdə sənin əvəzinə kimsə işi görən, ailənin məişət ehtiyaclarını ödəyən birisi olsun, ya da Hikmət kimi həyat yoldaşın-yəni sadəcə o qayğıları problem hesab etmədən yola verən. Sonuncu cümlə Nailə xanımın dilindəndir. Deyirdi, mənim təhsilimi başa vurmağım, işləməyim hamısı Hikmətin yaratdığı şəraitin sayəsində idi. Yağ içində böyrək kimi yaşamırdılar, əl-ələ verib çalışırdılar. Bir isti yuva qurmuşdular, hər ikisinin çiyinlərində və əllərinin hənirtisində bərqərar idi o yuva.

1994-2004-cü illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim, ”Bənövşə” uşaq xorunda Xormeyster və Ansambl rəhbəri vəzifələrində çalışıb Nailə xanım.





Hikmət də işləyirdi. Üstəlik birlikdə musiqilər yazır, tələbələr hazırlayırdılar.

Oğlu Seyid Hüseyn 6 saylı Musiqi məktəbinin vokal sinfində oxuyurdu, 16 yaşına çatmışdı. Ailənin çətin dövrləri başlayırdı. Evdə yeniyetmə oğlan, onun əhatəsi, dostları, artıq ailəni bir yumruq kimi saxlamaq çətin idi. Yeniyetmə oğlan o yumruğa sığmırdı. Kənara çıxmaq istəyirdi, üstəlik, ətrafdan dostlar ona ana uşağı deyə eyham vururdular. Gəl indi onu başa sal ki, elə deyənlər səni istədiklərindən demirlər. Sən qibtə edilən iki sənətkarın övladısan, hara gedib-gəlməyinə nəzarət olunmasa, səhv edərsən...

Bir gün özünü sübut etmək, mən ana uşağı deyiləm demək üçün evdən çıxıb dostları ilə dənizə gedən Seyid Hüseyn Xəzərdə batır.

O gün Hikmət infarkt keçirir, amma ağrısını da, infarktını da boğa-boğa bütün diqqətini Nailəyə yönləndiri ki, o ağrı çəkməsin, bu ağır itkini yaşaya bilsin. Nailə də onu düşünür-bircə Hikmət bu dərdə dözə bilsin.

Bir-birinin ardınca dərd gəldi ailəyə. Bir il əvvəl atasını itirmişdi Nailə Mirməmmədli, sonra oğlunu.

Hikmət siqaretə güc verib, bütün ağrısını onunla ovudurdu, Nailə siqareti onun əlindən almağa çalışırdı ki, çox çəkirsən. Gəl sən də çək, yüngülləşəcəksən - dedi Hikmət. Yazılan dərmanlar Nailəni sakitləşdirmirdi, dərd ortağı siqaret olur. Hər ikisinin.

Deyirdi, yanımda Hikmət var, ona ağır olmasın deyə dözməliyəm.

İllər keçirdi, yara qaysaq bağlayır, ən cüzi tərpənişdən qopurdu, qanayırdı, amma baş başa verib keçirdilər bu dönəmlərdən. Uşaqlar da böyüyürdü, oğlunun itkisinin ağrısını azaltmaq üçün Nailə Mirməmmədli daha bir oğul övladı gətirdi dünyaya. Qorxurdu ki, Hikmətin ailəsində baş verən facia onun ailəsində təkrar olar. Hikmətin 16 yaşlı bacısı kor bağırsağın əməliyyatı vaxtı dünyasını dəyişmişdi, bir bacı, bir qardaş qalmışdılar. Allaha inanan, oğlunun yasında belə namazı yalnız bir neçə saat yubadıb, sonra başını möhürə qoyub namazda Allaha şükür edən Nailə xanım o taleyə qarşı gəlmək üçün Mirkəlamı gətirdi dünyaya.

Böyük oğlu ali məktəbə hazırlaşırdı, uşaqlar böyüyürdü, elə bil hər şey qaydasına düşmüş kimi görünürdü...

Azərbaycan Dövlət Pedaqoji Universitetinin musiqi fakültəsində dosent, baş müəllim vəzifələrində çalışırdı.

2006-cı noyabr ayında Respublika sarayında yaradıcılıq hesabatı verirdilər. Özlərinə gəlmək üçün. Hikmət Mirməmmədlinin “Gedirəm” mahnısı Röyanın ifasında hesabatın son mahnısı idi.

Əlvida, gedirəm, əlvida, həyat
Yəqin göylərdədir azadə həyat
Bir nakam taleyin qurbanı oldum
Əlvida, gedirəm, əlvida, həyat
Gedirəm rüzgarın apardığı yerlərə, gedirəm...

46 yaşında Hikmət Mirməmmədli əməkdar incəsənət xadimi adını almasından iki gün sonra dünyayla vidalaşdı. Mayın 23-ü Nailə Mirməmmədlinin ad gününü keçirməli idilər. Hər il onun ad günündə Hikmət nə isə sürpriz edirdi. Elçilikdən tutmuş, xırda gül-çiçəkli sürprizlərə qədər. Pilləkənlər boyu bir-bir qızılgülləri düzərmiş düz qapılarının kandarına qədər.

O qədər problemlərdən, həyatın zərbələrindən uzaq tuturdu ki, qadınını, bəzən özü də deyirdi, sən mənsiz necə olacaqsan, insanlar sən düşündüyün kimi saf deyil.

Yenə dostlar dəvət olunmuşdu, sabah sürprizlərlə dolu bir gün olmalı idi.

2007-ci il mayın 22-ni dostlardan birinin şad günündə qəflətən ürək tutmasından getdi bəstəkar. Bu son sürprizi oldu xanımına.

O zaman böyük oğlu ali məktəbə hazırlaşırdı, qızı ondan dörd yaş kiçik, lap kiçiyi yaş yarımlıq idi. Oğullarının nisgilini unutdura biləcək xoş hadisələr gözləyirdilər, qalxmağa çalışırdılar.

Həmin il Nailənin anası da dünyasını dəyişdi. Az müddət sonra da qardaşı. İnsana zərbə ardınca zərbə dəydi, qalxmağa güc tapmaq lazım idi, hardan alsın o gücü? Bu qədər itkinin qarşısında zəif bir qadının qaməti necə düzəlsin? Üstəlik, yanında Hikmət yoxdur.

Qadın çox güclü məxluqdur.

Bir vaxtlar dost bildikləri, indi çox uzaqlardadı. Bəziləri isə daha yazma ayıbdır deyəcəklər arsız-arsız yenə musiqi yazır-deyirdi.

Yazdı Nailə Mirməmmədli, yazdı ki, “Nailə batdı, onun əvəzinə də Hikmət yazırdı, necə yazacaq ki” - deyənlərə də cavab olsun.

“Ona xoş olan işlər görürəm. Onun ruhu sevinsin deyə gördüyüm işlər var. Hiss edirəm ki, görür məni. Birlikdə arzuladıqlarımızı tək həyata keçirirəm, amma onun müşayiəti ilə edə bilirəm”.

O sənli günlərim de harda qaldı
Sən getdin gözlərim yollarda qaldı

“Əslində biz böyüklərimizdən qorxmuruq, onların nəzərindən düşməkdən qorxuruq. Baxmayın qəm üçün doğulmuşam, bunda da bir həyat eşqi tapıram” - bunlar son müsahibələrində dediyi fikirlərdir. Artıq dünyanın hər üzünü görmüş sənətkarın fikirləri.

2020-ci ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə yeni yaradılan Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru təyin edilir.

“Elə qorxuram Hikmətin, özümün yarımçıq qalmış işlərimizi tamamlayıb çatdıra bilməyəm, elə qorxuram övladlarımı yerbəyer edəndə hansısa yanlışa yol verəm” - deyirdi.

Oğlu Cavidanı evləndirib, iki nəvəsi də var. Çox razı idi gəlinindən, oğlunun xoşbəxtliyindən.

Hikmətdən sonra gecə qaranlıqlarında onun məzarına gedib sarıldığı vaxtlar beynində şiş yaranmışdı, müalicə alırdı. Son iki ayda deyirdi çəkilib, daha narahat etmir, amma övladlarına deməyib bu barədə. Bir dəfə müalicəsi üçün heç sevmədiyi, səsi olmayan ifaçıya bir mahnısını 18 min manata satıb. Ona deyib ki, sən bu mahnını ifa edəndə mən xəstələnəcəm, ona görə bu qədər baha satıram sənə.

Böyük oğlu skripkanı qurtarıb, amma ailəni dolandırmaq üçün başqa sənətə keçdi. Qızı fortepianonu qurtarıb, amma memar-dizaynerdi. Balaca oğlu özü yazır, çalır, oxuyur. Hələ balacadır, orta məktəbdə oxuyur.

Yenə ailədə Hikmətdən sonra qaydasına düşmüş kimi görünürdü vəziyyət.

Bir gün səhər oyanıblar, ana oyanmayıb, çağırıblar Nailə xanımdan cavab çıxmayıb. Gecə ilə şəkəri qalxıb, beyninə qan sızıb. Eynilə 46 yaşında Hikmət Mirməmmədlinin getdiyi kimi, həmin yolla 2021-ci il yanvarın 4-də onun ardınca yollanıb 59 yaşlı əməkdar incəsənət xadimi, bəstəkar Nailə Mirməmmədli.

***

Son mahnısı şəhid anasına həsr etdiyi mahnı idi, deyirdi onları düşünəndə öz oğlumu ağlamağa utanıram. Mahnını özü ifa edib, klip çəkilib, qəhər boğazında, yanıqlı, ürəkdən oxuyur; oxumur, yaşayır mahnının dərdini. O ürəyin sahibi çox yaşaya bilməzdi...

*Ramilə Qurbanlı*

# Şirələr bu halda daxili qanaxmaya səbəb olur

***Bəzi içkilərlə dərman qəbul etmək tövsiyə edilmir. Təsadüfi deyil ki, bir çox istehsalçı firmalar dərmanlarına əlavə edilmiş təlimatlarda heç bir qatqı olmadan yalnız içməli su ilə qəbul edilməsini yazırlar.***

"Unikal" publika.az-a istinadən xəbər verir ki, mütəxəssislər həmçinin şirələrlə dərman qəbul etməyin yanlış qərar olduğunu bildiriblər.

Yerkökü, alma, pomidor və portağal kimi bəzi şirələrlə antikoaqulyant qəbul edildiyi zaman daxili qanaxmaya səbəb olur. Dərmanlar qreypfrut suyu ilə də qəbul edilməməlidir.

Xərçəngin müalicəsi zamanı nar suyu ilə dərman qəbul edilərsə təsirlənmiş dərmanların həddindən artıq dozası arta bilər.

Kalsiumun yüksək miqdarına görə süd dərmanlarla uyğun gəlmir. Çünki kalsium bir çox aktiv maddənin udulmasının qarşısını alır. Mütəxəssislər antibiotik qəbul edən insanlara müalicə zamanı süd məhsullarından tamamilə imtina etmələrini tövsiyə edirlər.

Qazlı su ilə də dərman qəbul etmək məsləhət görülmür.

# Əgər sizdə bu 15 problem varsa...

***Limonun tərkibində orqanizm üçün gündəlik lazım olan C vitamininin 64% -i var. Onun tərkibində olan kimyəvi birləşmələr insan orqanimi üçün çox faydalıdır.***

Bir çox ekspertlər gün ərzində 1 stəkan isti limonlu su içməyin faydalarını araşdırıblar. Olnların araşdırmaları isə isti suya təzə sıxılmış 1 limon şirəsinin insan orqanizmində nələrə səbəb olduğunu aşkar edib.

1. Gün ərzində 1 stəkan isti limonlu su içmək üzdə olan səpgilərin və qara nöqtələrin sağalmasına səbəb olur.
2. İsti limonlu su insanın iştahasını azaldır, qanda şəkərin miqdarının normallaşmasına səbəb olur və sağlam çəkiyə düşməyə yardım edir. Onun tərkibindəki pektin həzmi sürətləndirir və bağırsaqların fəaliyyətini artırır.
3. İsti limonlu su böyrək daşlarının düşməsinə yardım edir.
4. İsti limonlu su immun sistemin yüksəlməsinə, orqanizmdə faydalı mikroorqanizmlərin artmasına səbəb olur.
5. İsti lmonlu su öd kisəsində yığılıb qaımış ödün axmasına səbəb olur və öd ağrısını aradan qaldırır.
6. İst limonlu su soyuqlama və qripp əlamətlərini aradan qadırır və xəstənin qısa müddətdə sağalmasına səbəb olur. Buna səbəb isə limonun tərkibində antioksidantların və C vitamininin olmasıdır.
7. Mütəxəssislər isiti limonlu suyun mədə-bağırsaq xəstəliklərinə faydalı olduğunu təsdiqləyiblər.
8. Gün ərzində 1 stəkan isti limonlu su içmək dırnaqların möhkəmlənməsinə səbəb olur.
9. İsti limonlu su orqanimdən zəhərlənmə əlamətlərini aradan qıdırır.
10. İsti limonlu su orqanizmdə xroniki soyuqlama əlamətlərini aradan qaldırır. Bunun üçün uzun müddət limonlu su qəbul etmək lazımdır.
11. İsti limolu si içmək qanın laxtalanmasının qarşısını alır.
12. İsti limonlu su fiziki fərəkət zamanı əzələlərdə əmələ gələn ağrıları aradan qaldırır.
13. isti limonlu su orqanizmdə sidik turşusunun miqdarının azalmasına səbəb olur. Bu isə podaqra və bu kimi xəstəliklərin əmələ gəlməsinin qarşısını alır.
14. Gün ərzində bir-neçə stəkan isti limonlu su qəbul etmək insanın spirtli içkiyə olan həvəsini azaldır.
15. Hər səhər isti limonlu su içmək kolitin sağalmasın yardım edir. Buna səbəb isə limonlu suyun bağırsaqların pH balansını normallaşdırması olur.

# Spirtli içki səbəbli qaraciyərin zədələnməsi

***Spirtli içki səbəbli qaraciyərin zədələnməsi uzun müddət spirtli içki içən adamlarda baş verir. Spirtli içki qaraciyərin aşağıdakı zədələnmələrinə səbəb olur:***

* piy toxumasının yığılması ( steatoz)
* iltihablaşma (alkohol hepatiti)
* fibroz qara ciyər ( sirroz)

Yuxarıda adları çəkilən xəstəliklərin ağırlıq dərəcəsi qəbul edilən spirtli içkinin miqdarında asılı olaraq dəyişir. Qadınlarda spirtli içki səbəbində baş verən qaraciyər xəstəlikləri kişilərdəkindən daha tez əmələ gəlir və qısa zamanda ağırlaşmalar verir.

Qadınlar gün ərzində 10 qram təmiz spirt (200 qram çaxır, 0,5 litr pivə və s.), kişiləri isə gün ərzində 50 qram təmiz spirt (0,5 litr çaxır, 1,25 litr pivə və ya 200 qram araq) qəbul etdikdə qaraciyərin xəstələnmə şansı çox olur.

Xəstəliyin əlamətləri qəbul edilən spirtin miqdarından və keyfiyyətindən asılı olaraq dəyişir. Erkən yaşlarından içməyə başlayan adamlarda 30-40 yaşlarından qaraciyər zədələnir. 40 yaşdan sonra isə qaraciyər tam zədələnmiş olur.



**Xəstəlik aşağıdakı əlamətlərlə özünü biruzə verir:**

* qarının sağ tərəfində ağrı
* qaraciyərin böyüməsi və sağ qabırğaaltı nahiyədə ağırlaşma hissi
* ağızda quruluq
* yorğunluq
* dəridə sarılıq
* iştahanın olmaması
* ürəkbulanma
* ayaqlarda şişkinlik
* arıqlama

Spirtli içki içən adamların qaraciyəri zədədləndikdə onların dərilərinin rəngi sarımtıl-qara, xoşagəlməz tünd olur. Onların əl və ayaqlarının rəngi qırmızıya çalır, kapilyar damarlarda qansızmalar meydana çıxır. Dəridə ulduzcuq şəklində qansızmalar görünür. Belə xəstələrdə bəzən burun və ya bağırsaq qanaxmaları müşahidə edilir.

Uzun müddət spirtli içki qəbul edənlərin sinir sistemnidə də patoloji əlamətlər meydana çıxır. Belə adamlar əsəbi, həyəcanlı, bəzən halsız olur, onlarda keylik müşahidə edilir. Diqqət dağınıqlığı, yaddaşsızlıq, halyusiyasiya, əl və ayaqlarda əsmələr, ağrı, fiziki lənglik müşahidə edilir. Belə kişilərin yumurtalıqları kiçilir, qadınların isə döşlərində böyümə baş verir.

Spirtli içki qəbulu səbəbindən qaraciyərdə əmələ gələn patologiyalara diaqnoz qoymaq üçün anamnez, laborator və diaqnostik müayinə metodlarından istifadə edilir. Xəstəliyin yeganə müalicəsi spirtli içkidən imtina etməkdir. Sirroz əlamətləri başlamadıqda xəstəliyi müalicə etmək mümkün olur.

# Dərinin sağlamlığı üçün bəzi maska və vasitələr

***Qara nöqtələrdən xilas olmaq üçün limon şirəsi. Üzdə olan qara nöqtələrdən xilas olmaq üçün buxar vannasından sonra üzü limon şirəsinə batırılmış pambıq tamponla təmiz silmək lazımdır. Prosedur bir neçə günə aparılır. Dəri yağlıdırsa,prosedurdan sonra üz spirtli losyonla silinir.***

-Geniş məsaməli və qırışlı yağlı dəri üçün hind maskası.

1 çay qaşığı bal , bir qədər isti süd , kartof nişastası və duz götürülür, sıyıq halına düşənə qədər qarışdırılır. Qarışıq qurtarana qədər pambıq tamponla qatbaqat üzə çəkilir. 20-25 dəqiqədən sonra üz əvvəlcə isti, sonra soyuq su ilə yuyulur. Maska qırışları hamarlaşdırır və dərini təravətləndirir.

-Civzə, yanıq, döyənək gözəltı torbaların müalicəsində kartof şirəsi.

Kartof qabığı soyulur, sürtgəcin xırda gözündən keçirilir və tənzifdən sıxaraq suyu çıxarılır. Alınan məhlul üzə çəkilir və ya tənzif salfet ona batırılaraq lazım olan nahiyələrə qoyulur. Kartof şirəsi iltihab əleyhinə təsir göstərir, civzə, yanıq, ağrılı döyənəklərin müalicəsində istifadə olunur, gözaltı torbaları aradan qaldırır. Şirəni yulaf və ya buğda unu ilə qatıb maska kimi 15-20 dəqiqə müddətində üzə qoymaq olar.

-Quru və solğun dəri üçün kök və ballı maska.

1 ədəd kök sürtgəcin xırda gözündən keçirilir,1 çay qaşıgı bal qatılır.Alınan kütlə üz və boyun nahiyəsinə çəkilir, 20 dəqiqədən sonra isti su ilə yuyulur.Üz dərisi soyuq suya batırılmış pambıq tamponla silinir.

-Solğun dəri üçün yerkökü ilə maska

Kök sürtgəcin xırda gözündən keçirilir, alınan kutlə üzə və boyuna çəkilir, üzərinə tənzif salfet qoyulur.15-20 dəqiqədən sonra sərin su ilə yuyulur və qidalandırıcı krem çəkilir. Maska istənilən dəri üçün , o cümlədən solğun, iltihablı, civzəli dəri üçün yararlıdır.



-İstənilən dəri üçün təravətləndirici və hamarlaşdırıcı maska

2 ədəd kök sürtgəcin xırda gözündən keçirilir, 1-2 qaşıq nişasta və ya təzə hazırlanmış kartof püresi və yumurtanın sarısı əlavə edilir. Qarışıq təmizlənmiş üz dərisinə çəkilir və 20 dəqiqə saxlanılır. Əvvəl isti, daha sonra soyuq suilə yuyulur. Maskanın özəlliyi ondan ibarətdir ki, ondan teztez istifadə etmək olar.

# İmmun sistemini gücləndirən təbii vasitələr

***İmmun sistemini gücləndirmək üçün dərmanlardan öncə təbii vasitələrə üz tutmaq lazımdır.***

"Unikal" publika.az-a istinadən xəbər verir ki, belə vasitələr arasında birinci yeri pomidor tutur. Tərkibində antioksidant rolunu oynayan karotin olduğu üçün pomidor immun sistemini gücləndirir.

B6 vitamini ilə zəngin olan bananın da faydası az deyil. O, dəri və sidik kisəsi xərçənginin yaranmasının və eyni zamanda böyrək daşının əmələ gəlməsinin qarşısını alır.

İri atpıtrağı qiymətli xüsusiyyətlərinə görə kollagen sintezini, hüceyrə canlılığını artırır və inkişafını stimullaşdırır.



Bu siyahıda propolisə də yer var. Propolis əzələ inkişafını təşviq edir, iltihab əleyhinə və ağrıkəsici təsir göstərir. Bundan əlavə, propolis immun sisteminin tarazlığını qorumaq üçün lazım olan makrofaqların virusları və bakteriyaları məhv etmək qabiliyyətini yaxşılaşdırdığı üçün güclü, təbii immunostimulyantdır.

İmmunitet sistemini gücləndirmək üçün pəhrizə göbələk və papaya əlavə etmək məsləhət görülür. Papaya cavanlaşdırıcı təsirə malikdir və quruduqda da faydalıdır.

# Millimizin üzvü karyerasını bitirdi, yeni vəzifəyə təyin edildi




***Sərbəst güləş üzrə Azərbaycan milli komandasının kapitanı Cəbrayıl Həsənov idmançı karyerasını başa vurub.***

"Unikal" federasiyanın rəsmi saytına istinadən xəbər verir ki, titullu güləşçimiz bundan sonra məşqçi kimi fəaliyyət göstərəcək.

Qurumun prezident əvəzi Namiq Əliyevin müvafiq əmrinə əsasən Cəbrayıl Həsənov sərbəst güləş üzrə gənclərdən ibarət yığma komandanın böyük məşqçisi vəzifəsinə təyin olunub. Bu komandada Rövşən Hacıyev, Nazim Əlicanov və Əşrəf Əliyev məşqçi kimi fəaliyyətini davam etdirəcək.

Federasiyanın rəhbəri bundan sonra sərbəst güləş üzrə böyüklər ibarət yığma komandanın kapitanının Şərif Şərifov olacağını bildirib.

Karyerasını bitirən 31 yaşlı sabiq güləşçi zədə səbəbindən qitə birinciliyində tam gücü ilə iştirak edə bilmədiyini söyləyib:

"Ötən il Avropa çempionatına hazırlaşanda boynumdan zədə aldım. Müayinə zamanı boynumda iki yırtıq aşkarlandı. Açığı, Tokio Yay Olimpiya Oyunlarında çıxış etdikdən sonra karyeramı başa vurmağı planlaşdırırdım. Ancaq bu zədəyə görə məşqlərdə ağrılar qalmaqda idi. Ona görə də fikirləşdim ki, idmançı karyeramı başa vurum. İnanıram ki, bundan sonra məşqçi kimi fəaliyyətimi davam etdirəcəyəm. Federasiyanın prezident əvəzi Namiq Əliyevə məni bu vəzifəyə təyin etdiyi üçün təşəkkürümü bildirirəm. Məşqçi kimi etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm".

Həsənovun sözlərinə görə, hər idmançının ən böyük arzusu olimpiya çempionu olmaqdır: "Bu mənə nəsib olmasa da, olimpiya medalı qazana bilmişəm. Rio Olimpiadasındakı üçüncü yeri karyeramın ən böyük uğuru sayıram. Əslində Londonda da eyni nəticəyə imza ata bilərdim. Kubalı güləşçiylə görüşdə qələbə qazanmağa yaxın idim. Ancaq sona bir neçə saniyəyə qalmış səhv edərək məğlub oldum. Bu, ən məyus olduğum görüş oldu. Karyeram boyunca ən prinsipial rəqibim rusiyalı Aniuar Geduyev idi. Onunla müxtəlif yarışlarda qarşılaşmışıq".

Millinin keçmiş kapitanı Şərif Şərifovun onu əvəzləməsinə də toxunub: "Şərif olimpiya, dünya və Avropa çempionumuzdur. Bu nəticəyə imza atan yeganə güləşçimizdir. İnşallah, kapitanlıq həm onun, həm komandamız üçün düşərli olar. İnşallah, komandamız Olimpiya Oyunlarında uğurlu çıxış edib, bayrağımızı yüksəldər".

Qeyd edək ki, Cəbrayıl Həsənov Rio-2016 Yay Olimpiya Oyunlarında bürünc medal qazanmaqla yanaşı, 2 dəfə dünya ikincisi, 3 dəfə Avropa çempionu, ilk Avropa Oyunlarının bürünc medalçısı olub. Həsənov ümumilikdə dünya və Avropa çempionatlarında 12 dəfə fəxri kürsüyə qalxıb.

# Bakıda Böyük Dəbilqə keçirilməyəcək: Səbəb məlum oldu

***Bu il Bakıda cüdo üzrə Böyük Dəbilqə yarışı keçirilməyəcək.***

"Unikal" qəzetinin məlumata görə, buna koronavirus pandemiyası səbəbindən yaranmış vəziyyət səbəb olub.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, hələlik Azərbaycan ərazisində qapalı məkanda beynəlxalq yarışların və kütləvi idman tədbirlərinin keçirilməsinə icazə verilmir.



Beynəlxalq Cüdo Federasiyası (İJF) artıq Tokio Yay Olimpiya Oyunlarına qədər keçiriləcək yarışların siyahısını açıqlamaq qərarına gəlib. Olimpiada ili olduğu üçün İJF lisenziya xallarını verən yarışların tezliklə bilinməsinin tərəfdarı olub. Hər il mayda Bakıda təşkil edilən Böyük Dəbilqə siyahıya daxil edilməyib.

Qeyd edək ki, 2020-ci ildə olimpiadaya lisenziya xalları qazandıran ənənəvi yarış koronavirus pandemiyası səbəbindən ləğv edilib.

Xatırladaq ki, 2013, 2014, 2015, 2016, 2017 və 2019-cu illərdə Bakıda Böyük Dəbilqə təşkil edilib.

# Argentina yığmasının sabiq üzvü komaya düşdü

***Argentina millisinin və İspaniyanın "Valensiya" klubunun sabiq futbolçusu Fernando Kaseres xəstəxanaya yerləşdirilib.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə "Valensiya" klubunun mətbuat xidməti məlumat yayıb. Xəbərdə, 52 yaşlı keçmiş müdafiəçinin komaya düşdüyü bildirilib. Kaseresin hansı səbəbdən komaya düşdüyü açıqlanmayıb.

Kaseres, 2009-cu ildə Argentinada başından güllə yarası almış və 8 həftə komada qalmışdı. Futbolçunun səhhəti sonradan yaxşılaşmışdı.

Kaseres İspaniyada "Valensiya", "Selta", "Saraqosa", "Kordoba" klublarının formasını geyinib. Keçmiş müdafiəçi Argentina yığmasında 24 oyuna 1 qol vurub.




# Azərbaycan çempionatları tarixinin ən məhsuldar legionerləri

***Azərbaycan çempionatları tarixinin ən məhsuldar legioneri Georgi Adamiyadır.***

"Unikal" qəzeti PFL-ə istinadən xəbər verir ki, gürcüstanlı futbolçunun hesabında 61 top var. Düzdür, onun həmyerlisi Badri Kvaratsxeliya daha çox qola imza atıb. Lakin 71 dəfə rəqib qapılarına yol tapan sonuncu, milliləşdirilərək Azərbaycan yığmasının da şərəfini qoruyub. Milli komandamızda oynamış Riçard Almeyda, Branimir Subaşic, Leandro Qomeş və Ruslan Qurbanovun da daxil edilmədiyi legioner bombardirlər cədvəlində Viktor İqbekoyi ikincidir. Nigeriyalı 50 qola sevinib. İlk üçlüyü braziliyalı Reynaldo Silva qapayır.

Cari mövsümdə Premyer Liqada meydana çıxan əcnəbilərdən yalnız Filip Ozobiç ən məhsuldar 20 legioner arasında yer alıb. 33 qol vuran xorvatiyalı 14-cü yerə şərikdir.

1. Georgi Adamiya - 61
2. Viktor İqbekoyi - 50
3. Reynaldo Silva - 44
4. Baqali Dabo - 41
5. Junivan Suares - 40
6. Fernando Peres - 40
7. Bahodir Nasimov - 38
8. Nikolas Kanales - 38
9. Junior Nildo - 37
10. Yakuba Bamba - 37
11. Baçana Sxadadze - 36
12. Viktor Kulikov - 35
13. Əhməd Ticani - 34
14. Dani Kintana - 33
15. Filip Ozobiç - 33
16. Anatoli Doroş - 32
17. Flavinyo - 31
18. Valter Quqlemon - 30
19. Viktor Mendi - 29
20. Vladimir Mazyar - 29



# Əfsanəvi futbolçu həmcinsi ilə sevgili oldu



***Qadın futbolunun əfsanəsi hesab olunan braziliyalı Marta ABŞ-ın "Orlando Pride" klubunda komanda yoldaşı olan Toni Deion Pressli ilə sevgilidi.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə Marta "Instagram" hesabında açıqlama verib. Pressli ilə fotosunu paylaşan braziliyalı əfsanə "Bu birlikdə yaşadığımız hekayənin başqa bir bölümüdür" şərhini yazıb.

Qeyd edək ki, Marta 6 dəfə dünyanın ən yaxşı qadın futbolçusu seçilib. O, 17 qolla qadınlar arasında dünya çempionatının ən çox qol vuran futbolçusudu. Futbolçu Braziliya millisində keçirdiyi 154 oyunda 108 qol vurub.

2017-ci ildən "Orlando Pride"də çıxış edən 34 yaşlı futbolçu əvvəllər Braziliyanın "Vasko da Qama", "Santa Kruz", "Santos", İsveçin "Umea", "Tiresö", "Rosenqard", ABŞ-ın "Los Anceles Sol", "Qold Pride" və "Vestern Nyu York "Flaş" klublarında çıxış edib. O, Braziliya, İsveç və ABŞ klublarının heyətində ümumilikdə 15 kubok qazanıb.

# "Braqa"nın futbolçusu xərçəngə görə karyerasını dayandırdı

***Portuqaliyanın "Braqa" klubunun müdafiəçisi Dioqo Kazimiro karyerasını qeyri-müəyyən müddətək dayandırıb.***



"Unikal" qəzeti xəbər verir ki, bu barədə sözügedən klubun rəsmi saytı məlumat yayıb.

22 yaşlı futbolçuda onkoloji xətəlik aşkarlandığından o, futbolla məşğuliyyətinə məcburi fasilə verməli olub.

Klub portuqaliyalı futbolçuya xərçəng xəstəliyinə qalib gəlməsi üçün dəstəyini əsirgəməyəcəyini açıqlayıb.

Səhifəni hazırladı: Aygün İlqarqızı